

# Davamlı inkişaf haqqında hesabat 2019



# Baş icraçı direktorumuzun giriş sözü

"Nobel Oil – Davamlı inkişaf haqqında hesabat"ın 2019-cu il buraxılışında xoş gördük. Bu buraxılış dünyada hər bir insana və biznesə çox ciddi təsir edən qlobal pandemiya dövrünə təsadüf etdi. Şübhəsiz, pandemiyanın ən çox təsir etdiyi sahələrdən biri də neft və qaz sənayesi oldu, amma bu olduqca çətin vaxtda Nobel Oil şirkəti üzərinə düşən hər bir işi ən yüksək səviyyədə görməyə çalışdı.

Biz anlayırıq ki, davamlı inkişaf uzunmüddətli sabitliyi, rəqabətədavamlılığı və bütün maraqlı tərəflər üçün dəyər yaratmaq bacarıqlarını təmin edən əsas amildir. Ona görə də, əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də, biz diqqətimizi davamlı inkişafın əsas istiqamətləri olan sosial-iqtisadi tərəqqi, sənaye və ekoloji təhlükəsizlik və sosial korporativ məsuliyyət üzərində cəmləşdirdik. Bizim hədəfimiz bu sahələrdəki bütün öhdəliklərimizi ən təhlükəsiz, səmərəli və etibarlı şəkildə yerinə yetirərək beynəlxalq səviyyəli mühəndis-tikinti şirkəti olmaqdır. Nobel Oil bu hədəfə çatmaq üçün davamlı inkişaf sahəsində dünyanın ən yaxşı təcrübələrinə istinad edir.

Nobel Oil bütün hədəflərinə çatmaq üçün insan faktorunun həlledici olduğunu düşünür və şirkətdə və şirkət üçün işləyən hər bir kəsə təhlükəsiz iş şəraitinin təmin edilməsini və əməyin mühafizəsini daim ən böyük prioritet hesab edir. İş şəraitinin və əməyin mühafizəsinin yaxşılaşdırılması, istehsalat zədələrinin sayının azaldılması məqsədilə biz əməyin texniki təhlükəsizliyi mədəniyyətinin inkişaf etdirilməsinə böyük diqqət yetiririk. Biz inanırıq ki, bu, digər əsas məqsədimiz olan sənaye və ekoloji təhlükəsizliyi təmin etmək üçün açar rolunu oynayır.

Biz ötən 15 il ərzində maraqlı tərəflərlə effektiv və şəffaf qarşılıqlı əlaqələrin yaradılmasına çalışmışıq. Buna nail olmaq üçün biz bütün maraqlı tərəflərin hüquq və maraqlarına hörmət edərək onların rəy və sorğularını daim diqqətə almışıq.

Nobel Oil inanır ki, uğurlu biznesin açarı onun yerli və beynəlxalq etik prinsiplərə və qaydalara uyğun olmasındadır. Bu məqsədlə biz, fəaliyyətə başladığımız ilk gündən bəri əmək və insan hüquqlarına riayət etmiş və korporativ idarəetmə sisteminin təkmilləşdirilməsinə çox ciddi fikir vermişik. Biz bu sahədə işçilərimizin biliklərini artırır, hərtərəfli təlimlər işləyib hazırlayır və onları daim təkmilləşdiririk.

Maraqlı tərəflərimizin etimadını qazanmaq və qoruyub saxlamaq üçün biz effektiv korporativ idarəetmə sistemi qurmuşuq və inanırıq ki, bu sistem şirkətin sərmayə qoymaq baxımından cəlbediciliyinin artmasına və bunun nəticəsində səhmdar dəyərinin artmasına kömək edir. Şirkətin səmərəli fəaliyyətinin və sərmayə cəlbediciliyinin əsasını korporativ qarşılıqlı fəaliyyətin bütün iştirakçıları arasında etimad təşkil edir. Nobel Oil biznesin davamlı inkişafı üçün öz korporativ idarəetmə sistemini daim təkmilləşdirir və yerli qanunvericiliyin və daxili sənədlərin müddəalarının tələbləri ilə yanaşı, müxtəlif standartların tələblərini, həmçinin ən yaxşı yerli və beynəlxalq təcrübələri də nəzərə alır.

Biz Azərbaycanda və fəaliyyət göstərdiyimiz bütün bölgələrdə təhlükəsiz, etibarlı və məsuliyyətli şirkət kimi həmin bölgələrin inkişafı, orada yaşayan insanların həyat səviyyəsinin yaxşılaşması, iqtisadi dəyərlərin yaradılması və inkişafı üçün əməli işlər görürük. Biz fəaliyyət göstərdiyimiz ölkələrdə yeni iş yerləri yaratmaqla yanaşı, bir çox avadanlıq və materialları almaqla cəmiyyətə həm müsbət iqtisadi, həm də sosial təsir göstərə bilirik.

2019-cu ilin hesabatında biz yuxarıda qeyd olunanlardan əlavə, Azərbaycandakı və digər bölgələrdəki əməliyyat larımız və layihələrimiz, əməyin texniki təhlükəsizliyi və ətraf mühit göstəriciləri, və cəmiyyətin müxtəlif sahələrinə verdiyimiz töhfələrdən bəhs edirik. Ümid edirəm ki, tam şəffaf və obyektiv şəkildə hazırladığımız bu hesabatı oxumaqdan zövq alacaqsınız. Biz məmnuniyyətlə təkmilləşdirə biləcəyimiz və daha yaxşı iş icrası göstərə biləcəyimiz istənilən sahə barədə fikirlərinizi öyrənmək istərdik.

Hörmətlə,
Vüqar Səmədli
Baş icraçı direktor



# Hesabat və hesabat vermə prosesi haqqında



**2**

Dərc olunmuş qeyri-maliyyə hesabatlarının sayı

**GRI**

2019-cu il üzrə hesabatın hazırlanmasında Qlobal Hesabatlılıq Təşəbbüsünün (GRI) standartlarının təlimatı əsas sənəd kimi istifadə edilib

**15**

Əhəmiyyətli mövzuların sayı



# Hesabat vermə prosesinin təşkili

Davamlı inkişaf sahəsində hazırkı hesabatımız (bundan sonra hesabat) 2019-cu ilin yanvarın 1-dən dekabrın 31-nə qədər olan dövrü əhatə edir. Hesabatın hazırlanmasında əsas məqsədimiz bütün maraqlı tərəflərə Nobel Oil şirkətinin davamlı inkişaf və korporativ sosial məsuliyyət sahəsində fəaliyyəti haqqında daha dolğun və şəffaf məlumatı təqdim etməkdir. Bizim Davamlı inkişaf haqqında hesabatlarımız şirkətin iqtisadi, ekoloji və sosial nəticələrinin, eləcə də korporativ idarəetmə və biznesin həyata keçirilməsinə etik yanaşmalar haqqında məlumatların əsas mənbələridir. Bundan başqa, hesabatda şirkətin iqtisadi, ekoloji və sosial sahələrdə strategiyası, siyasətləri, idarəetməyə yanaşmaları, fəaliyyət istiqamətləri, həmçinin maraqlı tərəflərlə qarşılıqlı fəaliyyət və həyata keçirilən tədbirlər barədə məlumatlar təqdim olunur.

Biz 2019-cu il üzrə hesabatı hazırlayarkən dayanıqlı inkişaf sahəsində hesabatların hazırlanması üzrə "Qlobal Hesabatlılıq Təşəbbüsü"nün (GRI) standartlarının təlimatları metodoloji əsas kimi götürülmüşdür. Həmçinin, bəzi mövzular işıqlandırılarkən, Sustainability Accounting Standards Board (SASB), Climate Disclosure Standards Board (CDSB) kimi nüfuzlu standartlarının və London Fond Birjasının ekoloji, sosial və korporativ idarəetmə üzrə təlimatın tövsiyyələri nəzərə alınıb. Hesabatda təqdim olunmuş maliyyə-iqtisadi göstəriciləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) əsaslanaraq qeyd edilmişdir.

Şirkətin Davamlı İnkişaf haqqında hesabatı müxtəlif bölmələr tərəfindən hazırlanır və Baş icraçı direktoru tərəfindən təsdiqlənir. Hesabatın məzmunu GRI təlimatlarında qeyd edilmiş əhəmiyyətlilik, maraqlı tərəflərin əhatə olunması, davamlı inkişaf və bütövlük prinsiplərinə əsasən tərtib edilmiş və tarazlılıq, müqayisəlilik, dəqiqlik, vaxta uyğunluq, şəffaflıq və etibarlılıq kimi prinsiplərə söykənir.

Davamlı inkişaf haqqında hesabata dair qeydlər və istəklər "Əlaqə məlumatı" bölməsində göstərilən elektron poçt vasitəsi ilə qəbul edilir. Daxil olan bütün təkliflər və iradlar növbəti Hesabatının hazırlanması prosesində nəzərdən keçirilir və diqqətə alınır.



# Hesabatın keyfiyyətinin təmin edilməsi prinsipləri

***TARAZLIQ***
Şirkət öz fəaliyyətinin həm müsbət, həm də mənfi nəticələrini açıqlayır və bununla da maraqlı tərəflərlə qarşılıqlı əlaqədə açıqlıq və şəffaflıq nümayiş etdirir.

***MÜQAYİSƏ MÜMKÜNLÜYÜ***
Hesabatda təqdim olunan məlumat həm şirkətin müxtəlif fəaliyyət aspektlərinin idarə olunmasına yanaşmalarını, həm də hər bir istiqamət üzrə nəticələri əks etdirir. Retrospektiv göstəricilər nəzərə alınmaqla, maraqlı tərəflərin vacib olan bütün göstəricilər üzrə təsəvvürləri olması üçün, bütün nəticələr iki və üç illik dinamikada dərc olunur.

***DƏQİQLİK***
Şirkət hesabatda təqdim olunan bütün əhəmiyyətli mövzular üzrə məlumatları dəqiq və ətraflı verməklə maraqlı tərəflərin şirkətin fəaliyyətinin məhsuldarlığını qiymətləndirməsinə imkan yaradır. Şirkətin fəaliyyətinin bu və ya digər aspektlərinə yanaşmalarını təsvir edərkən əsas diqqət daxili sənədlərin (siyasət, əsasnamə, məcəllə və s.) izahına yetirilir.

***VAXTINDA İCRA***
Şirkət hesabatların verilməsini müntəzəm qrafik əsasında həyata keçirir və maraqlı tərəflərin məlumatlı qərarlar qəbul edə bilməsi üçün hesabat hər ilin III rübündə dərc edir.

***AYDINLIQ***
Şirkət hesabatı istifadə edən maraqlı tərəflər üçün mümkün qədər aydın və açıq şəkildə hazırlayır. Hesabatda istifadə olunan bütün anlayışlar, ixtisarlar və metrik işarələr izah olunur.

***ETİBARLILIQ***
Hesabatda dərc olunan bütün məlumatlar şirkətin müxtəlif bölmələri tərəfindən təqdim olunmuşdur. Hesabat düzgünlük, etibarlılıq və məlumatların tamlığı prinsipinə əsaslanaraq şirkətin mütəxəssisləri, törəmə müəssisələrinin rəhbərləri və Baş icraçı direktoru tərəfindən təsdiq edilmişdir.

# Hesabatın məzmununu müəyyənləşdirən prinsiplər

Biz, hesabatın hazırlanması zamanı əhəmiyyətli mövzuları iki meyar üzrə müəyyən etdik: mövzunun maraqlı tərəflər və biznes fəaliyyəti üçün əhəmiyyət dərəcəsi. Şirkət üçün əhəmiyyətli mövzular dedikdə, Nobel Oil şirkətinin iqtisadiyyata, ətraf mühitə, cəmiyyətə və işçilərə əhəmiyyətli təsirini əks etdirən, eləcə də maraqlı tərəflərin qiymətləndirilməsinə və qərarlarına əhəmiyyətli dərəcədə təsir göstərə bilən mövzular nəzərdə tutulur. Hesabatda açıqlanacaq ən vacib mövzuları müəyyən etmək üçün, biz, maraqlı tərəflərin cəlb olunması nəticəsində əldə edilmiş məlumatları ətraflı təhlil etdik. Şirkətdə maraqlı tərəflərlə müxtəlif mexanizmlərin vasitəsilə mütəmadi olaraq görüş və məlumat mübadiləsi həyata keçirilir (daha ətraflı məlumat üçün, cədvəl ... baxın).

Bundan əlavə, daxili və xarici maraqlı tərəflərin maraqlarının təmin edilməsi məqsədilə, qlobal tendensiyaları və qabaqcıl analoji şirkətlərin dayanıqlı

inkişafa dair hesabatlarını təhlil etdik, davamlı inkişafın müxtəlif sahələrinə görə məsuliyyət daşıyan əməkdaşları ilə müsahibələr apardıq, eləcə də şirkətin fəaliyyəti haqqında mediada mövcud olan məlumatları, Qlobal Hesabatlılıq Təşəbbüsü (GRI) və digər standartların tövsiyyələrini nəzərdən keçirdik. Bunun nəticəsində, keçən ildən fərqli olaraq, mümkün olan əhəmiyyətli mövzuların siyahısını artırmış olduq. Biz inanırıq ki, bütün bu prosedurlar hesabatda məlumatların açıqlanması baxımından maraqlı tərəflərin gözləntilərini qarşılayacaqdır.

Apardığımız hərtərəfli təhlilin nəticəsi olaraq, əhəmiyyətli aspektlərin matrisində (bax şəkil 1) vacib mövzuları müəyyən etdik.

Bu hesabatda şirkətin 2019-cu ildə davamlı inkişaf sahəsində fəaliyyətinin prioritetləri ilə bağlı bir sıra məsələlər daha ətraflı açıqlanmışdır. Xüsusilə, podratçı təşkilatlarda sənaye təhlükəsizliyi və əməyin mühafizəsi, istixana qazlarının emissiyaları, aktivlərin bütövlüyü və proseslərin təhlükəsizliyi, antikorrupsiya fəaliyyəti, əməkdaşların hazırlanması və təhsili, layiqli əmək şəraitinin təmin edilməsi, keyfiyyətli xidmətin göstərilməsi kimi mövzulara xüsusi diqqət yetirilmişdir.

Məlumatların müqayisəsi və tutuşdurulmasının mümkünlüyünü təmin etmək üçün əsas göstəricilərin əksəriyyəti 2017-2019-cu illəri əhatə edən üçillik dövr üzrə dinamikada təqdim edilmiş, həmçinin 2020-ci il üçün plan göstəriciləri diqqətə çatdırılmışdır.

Hesabatın əhatə dairəsi və hüdudları ötən ilki kimi qalmışdır. Hesabatın əhatə dairəsinə Nobel Oil Qrupunun şirkətlərinə idarəetmə nəzarətini və idarə olunmasını təmin edən baş ofis Nobel Oil, ilk növbədə energetika sahəsində müştərilərə avadanlığın texniki xidməti üzrə xidmətlər göstərən Qlensol və tam xidmət diapazonu ilə tikinti, mühəndislik, və satınalmalar xidmətləri göstərən Prokon kimi törəmə şirkətləri daxildir.

Şəkil 1. Əhəmiyyətli aspektlərin matrisi




Dayanıqlı inkişaf mövzuları:






# MÜƏYYƏN EDİLMİŞ ƏHƏMİYYƏTLİ MÖVZULARIN SİYAHISI

| № | MÖVZU | ƏHƏMİYYƏTLİ MÖVZULARIN ƏHATƏ DAİRƏSİ | HESABAT BÖLMƏSİ |
|---|---|---|---|
| 1 | Korrupsiyaya qarşı mübarizə | Şirkət<br>İşçilər<br>Təchizatçılar və podratçılar<br>Səhmdarlar və investorlar<br>Müştərilər<br>Cəmiyyət<br>Dövlət | Etika və qanunlara riayət |
| 2 | İş yerində əməyin mühafizəsi və təhlükəsizliyi | Şirkət<br>İşçilər<br>Müştərilər<br>Təchizatçılar və podratçılar<br>Səhmdarlar və investorlar<br>Dövlət | Sağlamlıq, əməyin mühafizəsi və ətraf mühit |
| 3 | İqlim dəyişikliyinə təsirimiz | Şirkət<br>İşçilər<br>Səhmdarlar və investorlar<br>Təchizatçılar və podratçılar<br>Müştərilər<br>Cəmiyyət<br>Dövlət | Sağlamlıq, əməyin mühafizəsi və ətraf mühit |
| 4 | Subpodratçı və təchizatçının ilkin kvalifikasiyası prosesi | Şirkət<br>Səhmdarlar və investorlar<br>Təchizatçılar və podratçılar<br>Cəmiyyət | Satınalma təcrübəsi |
| 5 | Müxtəliflik və inklüzivlik | Şirkət<br>İşçilər<br>Cəmiyyət | Əmək münasibətləri təcrübəsi |
| 6 | İqtisadi göstəricilər | Şirkət<br>İşçilər<br>Səhmdarlar və investorlar<br>Təchizatçılar və podratçılar<br>Müştərilər<br>Cəmiyyət<br>Dövlət | İqtisadi göstəricilər |
| 7 | Biznes etikası və davranış qaydaları | Şirkət<br>İşçilər<br>Səhmdarlar və investorlar<br>Təchizatçılar və podratçılar<br>Müştərilər<br>Cəmiyyət<br>Dövlət | Etika və qanunlara riayət |
| 8 | Risklərin idarə edilməsi | Şirkət<br>İşçilər<br>Səhmdarlar və investorlar<br>Müştərilər<br>Cəmiyyət<br>Dövlət | Korporativ idarəetmə |
| 9 | Keyfiyyətin idarə edilməsi | Şirkət<br>İşçilər<br>Səhmdarlar və investorlar<br>Müştərilər | Keyfiyyətin idarə edilməsi |
| 10 | Ekoloji normalara uyğunluq | Şirkət<br>Səhmdarlar və investorlar<br>Təchizatçılar və podratçılar<br>Müştərilər<br>Cəmiyyət<br>Dövlət | Sağlamlıq, əməyin mühafizəsi və ətraf mühit |
| 11 | Yüksək ixtisaslı işçi qüvvəsinin təmin edilməsi | Şirkət<br>İşçilər<br>Müştərilər | Əmək münasibətləri təcrübəsi |
| 12 | İnformasiya şəffaflığı | Şirkət<br>Təchizatçılar və podratçılar<br>Cəmiyyət<br>Dövlət | Etika və qanunlara riayət |
| 13 | Tullantıların idarə olunması | Şirkət<br>Səhmdarlar və investorlar<br>Cəmiyyət<br>Dövlət | Sağlamlıq, əməyin mühafizəsi və ətraf mühit |
| 14 | Cəmiyyətə dəstək | Şirkət<br>Təchizatçılar və podratçılar<br>Cəmiyyət<br>Dövlət | Cəmiyyətə dəstək |
| 15 | İşçilərin məmnunluğu | Şirkət<br>İşçilər<br>Səhmdarlar və investorlar | Əmək münasibətləri təcrübəsi |



# Nobel Oil Qrup haqqında

| 1926 | 238 | 4 | 6 |
|---|---|---|---|
| İşçi heyəti | Gəlir, mln$ | Ölkə | Xidmət xətləri |



# Nobel Oil Qrup haqqında

Nobel Oil Ltd. 2005-ci ildə ilkin olaraq Xəzər regionunun neft-qaz sənayesi üçün qazma, quraşdırma, quyuların əsaslı təmiri, mühəndislik, tikinti, təmir və texniki xidmətlərin təchizatçı şirkəti kimi yaradıldı. 2013-cü ildə Nobel Oil öz fəaliyyətinin hərtərəfli strateji icmalını aparmış və bunun nəticəsində əsas diqqət şirkətin təşkilati imkanlarının, strateji hədəflərinin, əməliyyat bazarlarının və həm regional, həm də qlobal miqyasda artım imkanlarının qiymətləndirilməsinə yönəldilmişdir.

2014-cü ildə Nobel Oil Azərbaycandakı biznesini baş qərargahı Böyük Britaniyada yerləşən ana şirkətin altında yerləşdirmək və biznes proseslərini beynəlxalq standartlara uyğunlaşdırmaq üçün öz korporativ strukturunu yenidən quraraq, neft-qaz sahəsinin bütün servis seqmentlərini Nobel Oil Services (UK) Limited şirkətinin idarəçiliyi altında birləşdirdi.

## Bizim məqsədimiz:

Şirkətin məqsədi, fəaliyyət göstərdiyi ölkələrin sosial-iqtisadi inkişafına müsbət töhfələr verərək, eləcə də sənaye və ekoloji təhlükəsizlik, korporativ idarəetmə və sosial məsuliyyət standartlarına riayət edərək beynəlxalq mühəndis-tikinti şirkətinə çevrilməkdir.

Bu gün Nobel Oil Services (UK) Limited sürətlə böyüyən və enerjinin şaxələndirilmiş sahələri ilə əlaqəli şirkətlər qrupudur. Hazırda neft və qaz, enerji və tikinti sektorlarında fəaliyyət göstərən və müştərilərinə müxtəlif xidmətlər təklif edən Nobel Oil Services (UK) Limited dörd törəmə və beş birgə müəssisədən ibarətdir.

Biz müştərilər üçün müstəsna dəyər təmin edərək ən yüksək etik standartlara riayət etməklə innovativ həll yolları təklif edirik.



# İnkişaf tarixi

**2019**

***Nobel Oil Services*** *ISO 37001:2016 sertifikatını (rüşvətxorluğa qarşı mübarizənin idarə edilməsi sistemi) aldı.*

***PROKON Rusiya*** *bazarına çıxdı.*
***SOCAR AQŞ Türkiyə*** *bazarına çıxdı.*

**2018**

***SOCAR AQŞ*** *neft və qaz quyularının qazılması və mühəndisliyi üzrə xidmətlərin göstərilməsi üçün KCA Deutag ilə birgə müəssisə yaratdı.*

***Nobel Oil****, Layihələndirmə, satınalma və tikintinin idarə edilməsi xidmətlərini göstərmək üçün Wood ilə birgə müəssisə yaratdı.*
***SOCAR AQŞ Banqladeşdə*** *qazma işlərinə başladı.*

**2017**

***Glensol Türkiyə*** *bazarına çıxdı.*

***Nobel Oil****, eləcə də onun törəmə şirkətləri "Vergilər üzrə şəffaf tərəfdaş" statusunu əldə etdi.*

**2016**

***Nobel Oil*** *özünün Şirkətlər Qrupu çərçivəsində SAP ERP (Sistem Tətbiqi və məhsullar – Təşkilarıın Resurs Planlaması) proqram kompleksini işə saldı.*

**2015**

***Nobel Oil Services*** *Denholm Oilfield Services Ltd. şirkətinin Azərbaycanda istehsal biznesinin 50%-ni əldə etdi.*

***Global Energy Solutions*** *şirkəti Denholm Valvecare Lmtd. ilə klapanların idarə edilməsi xidmətlərinin göstərilməsi üzrə birgə müəssisə yaratdı.*

**2014**

***Nobel Oil Services*** *şirkəti Tədarük Təchizat Zəncirinin İdarə edilməsi üzrə kompleks xidmətlərin göstərilməsi üçün Llamrei törəmə şirkətini təsis etdi.*

***Nobel Oil****, kəşfiyyat və hasilat üzrə öz biznesini müstəqil bir şirkətə ayıraraq və diqqəti xidmətlərin göstərilməsi üzərində cəmləşdirərək öz korporativ strukturunu yenidən qurdu.*

**2012**

*Neft yataqlarında avadanlıqların istismarı və texniki xidməti ilə məşğul olan* ***Global Energy Solutions*** *törəmə şirkəti yaradıldı.*

*Tikinti və layihələrin idarə edilməsi ilə məşğul olan* ***PROKON*** *törəmə şirkəti yaradıldı.*

**2008**

***Nobel Oil*** *kəşfiyyat və hasilat sahəsində öz fəaliyyətini inkişaf etdirdi.*

**2007**

***Nobel Oil****, qazma, quyuların əsaslı təmiri və mühəndislik xidmətlərinin əlavə edilməsi hesabına öz imkanlarını genişləndirdi.*

***Abşeron Qazma (AQŞ)*** *törəmə şirkəti, qazma və quyuların idarə olunması üzrə kompleks xidmətlərin göstərilməsi üçün SOCAR-la birgə müəssisə yaradıb.*

**2005**

***Nobel Oil Ltd.*** *şirkəti ilk olaraq satınalma sahəsində xidmət təchizatçısı kimi təsis edildi.*

# Aktivlərin strukturu






# Biznes dəyərin yaradılması

## Xidmət sənayesi

**Neft-qaz** **Enerji** **Energetika və su** **Tikinti**

## Servis

### Quyuların qazılması və idarə edilməsi

Biz quyuların qazılması və xidməti prosesinin kompleks şəkildə idarə olunmasını və qazma işləri ilə bağlı bir sıra xidmətlər göstəririk. Bura üfüqi, çoxgövdəli və maili istiqamətli quyuların qazılması, layihələndirilməsi və planlaşdırılması, quyuların tamamlanması, quyularda əsaslı təmir və geoloji-texniki tədbirlərin həyata keçirilməsi, yan lülənin qazılması, qoruyucu kəmərlərin endirilməsi daxildir.

### Tikinti

Biz dənizdə qazvurma qurğuları və elektrik stansiyalarının, quruda və dənizdə neft və qaz emalı qurğu və zavodlarının, polimer və gübrə istehsalı zavodlarının tikintisi və quraşdırılması üzrə ixtisaslaşan layihələrin tikintisi və idarə edilməsi üzrə xidmətlər göstəririk. Biz eyni zamanda, infrastruktur layihələrinin tikintisi üzrə xidmət təklif edirik.

### Təchizat və logistika

Biz diqqətimizi başlama nöqtəsindən sifarişçiyə çatdırılmaya qədər material və avadanlıq axınının optimallaşdırılmasında müştərilərimiz üçün qazma, layihələr, texniki xidmət və istehsal əməliyyatları ilə bağlı neft-mədən materialları və avadanlıqlarının geniş çeşidini təqdim edirik.

### İstehsal və montaj

Biz metal konstruksiyaların istehsalı və montajı, dəniz obyektlərinin, boru sistemlərinin modernləşdirilməsi, o cümlədən yüksək təzyiqli xətlər, tutumlar, rezervuarlar və onlarla bağlı paketlər də daxil olmaqla, quruda və dənizdə istehsal və montaj üzrə xidmətlər göstəririk.

### Mühəndislik

Biz qaz turbinləri və kompressorların quraşdırılması, buraxılış-sazlama, istismara vermə, istismar və texniki xidmət işlərini yerinə yetirir, dənizdə üst ötürücünün texniki xidməti, habelə digər fırlanan və statik avadanlıqlar üçün yoxlama, texniki xidmət və təmirə yararlılıq xidmətlərini də göstəririk. Suez şirkəti ilə birlikdə GLENSOL suyun təmizlənməsi sahəsində ismismar həll yollarını təklif edir.

### Layihələrin idarə olunması

Biz layihələrin idarə edilməsi üzrə təcrübəmizi yüksək ixtisaslı komandamız ilə birləşdirərək, layihələri zamanında, büdcəyə uyğun təhvil vermək və tələb olunan standartlara uyğun mühəndislik, təchizat və tikinti sahələri üzrə layihələrin idarə edilməsi xidmətlərini təklif edirik.

Hesabat və hesabat vermə prosesi haqqında
Nobel Oil Qrup haqqında
Korporativ idarəetmə
Etika və qanunlara riayət
Davamlı inkişafa yanaşma
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə
Əmək münasibətləri təcrübəsi
Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühit
Keyfiyyətin idarə edilməsi
Satınalma Təcrübəsi
Cəmiyyətə dəstək
GRI standartlarına uyğunluq cədvəli

# Fəaliyyət coğrafiyası



| Ölkənin adı | Ofisin adı |
|---|---|
| Azərbaycan | Nobel Oil Ltd şirkətinin Azərbaycan Respublikasındakı Filialı |
| Qazaxıstan | Glensol |
| Rusiya | Prokon |
| Birləşmiş Ərəb Əmirlikləri | Llamrei |
| Türkiyə | SOCAR AQS |

# Maliyyə göstəriciləri











# Qrupun yeni strategiyası

Nobel Oil Services (UK) Limited şirkətinin Mckinsey&Company məsləhət şirkəti ilə müəyyən etdiyi hədəflər və bu hədəflərə çatmaq üçün bütün təşkilatı əhatə edən inkişaf strategiyasının qiymətləndirilməsi məqsədilə 2019-cu ildə əməkdaşlığa dair razılıq əldə edilib. Nobel Oil Şirkətlər Qrupunun gələcək infrastruktur investisiya planları da daxil olmaqla inkişaf planlarını nəzərdən keçirən McKinsey&Company, şirkətin gələcək inkişafı üçün kifayət qədər imkanlara malik olduğunu vurğulayıb. Bundan başqa, Qrupun fərqli şirkətlərinin bizness servis xidmətlərinin üst-üstə düşməməsi məqsədilə, xidmət fəaliyyətlərinin dəqiqləşməsi istiqamətində xüsusi addımlar təklif edilib. Nəticədə, Qrupun hər bir şirkəti ixtisaslaşdığı sahənin işlərini yerinə yetirdiyi üçün şirkətlər göstərdikləri xidmətlərini spesifikləşdirib və nəticə etibarilə şirkətlər arasında heç bir halda rəqabət halına rast gəlinməməsi təmin olunub. Habelə, Mckinsey&Company şirkəti tərəfindən qrup şirkətləri arasında intensiv şəkildə davam edən əməkdaşlığı artırmaq məqsədilə birlikdə işləyəyərək daha effektli nəticələr əldə edə biləcəkləri potensial sahələr müəyyən edilərək tədqiq edilib. Bu yanaşma şirkətin daxili mühitinə daim təsir edir, törəmə şirkətlər arasında əlaqəni gücləndirməklə işçilərin müstəsna bacarıqlarını qurmaq, təşkil etmək və birləşdirmək üçün xüsusi şərait yaradır. Beləliklə, Mckinsey&Company şirkəti Nobel Oil şirkətlər qrupunun inkişaf imkanlarını dəyərləndirilərək növbəti 5 il üçün inkişaf istiqamətləri üzrə yol xəritəsini təqdim edib.

GLENSOL
Global Energy Solutions





***Neft-qaz, energetika və su sənayesi sahələrində avadanlıqların istismarı və texniki xidməti üzrə xidmətlər göstərir.***

2012-ci ildə əsası qoyulmuş Glensol şirkəti Azərbaycanda və Xəzər regionunda neft yataqlarında avadanlıqların istismarı və texniki xidməti üzrə fəaliyyət göstərməsi üçün yaradılmışdır.

Şirkət fəaliyyət göstərdiyi sahələr üzrə sahib olduğu təcrübə və səriştəsi ilə yüksək səviyyəli iş icrası nümayiş etdirir. Glensol şirkəti yarandığı vaxtdan fərdi yanaşma, şəxsi və peşəkar inkişaf, maraqlı tərəflər üçün müstəsna dəyərin təmin edilməsi prinsiplərinə sadiq qalaraq, birinci dərəcəli xidmət təchizatçısı adını qazana bilib.

Şirkətin əməliyyat xidmətləri dərin sahə təcrübəsi və peşəkarlığa əsaslanması iş görmə qabiliyyətini və avadanlıqların təmirə yararlılığını artırmağa və istismar xərclərini minimuma endirməyə imkan verir. Qabaqcıl həll yolları tətbiq etməklə Glensol boşdayanma vaxtını azaldır və texnoloji proseslərin davamlılığını təmin edir.

2019-cu ildə, şirkət sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (SƏTTƏMM) standartlarının, prosesin optimallaşdırılması, səmərəliliyin artırılması və logistik rahatlığın fasiləsiz inkişaf etdirilməsi siyasətinə uyğun həll yolu təklif edib. Bu həll yolu sayəsində Glensol müştərinin bütöv mexaniki və elektrik avadanlıqları parkının bərpası və əsaslı təmiri üçün müştəriyə "bir pəncərə" konsepsiyası üzrə xidmətin göstərilməsi çərçivəsində yeni emalatxana tikib. Bunun nəticəsində şirkət çoxsaylı təchizatçılara olan ehtiyacın aradan qaldırılmasına nail olub.

# Şirkətin portfeli

- Qaz turbin generatoru ve qaz turbin kompressor qurğularının təmiri
- Nasosların təmiri
- Hava kompressorlarının (mərkəzdənqaçma, vintil, porşenli) təmiri
- Klapanların təmiri
- Elektrik və nazarat-ölçü cihazlarına xidmətlər (quraşdırma və istismara verma)
- Elektrik mühərriki, generator və alternatorların təmiri (dəyişən və sabit) cərəyanlı, aşağı və yuxarı gərginlik)
- Qaz turbin generatoru və qaz turbin kompressor qurğularının təmiri
- Kimyəvi maddələrin təchizatı (suyun emalı və texniki emal)
- Mexaniki-montaj işlərinin başa çatdırılması
- Aktivlərin idarə olunmasına dair həll yolları
- Üst ötürücü sistemli (Top Drive) qazma qurğusuna göstərilən xidmətlər
- Anbarın və inventarın idarə olunması
- Prosesə nəzarət (mövcud sistemlərin yenilənməsi və təkmilləşdirilməsi)
- Avadanlığın vəziyyətinə nəzarət (profilaktik təmir)

# Əsas layihələr

### Yüksək gərginlikli elektrik mühərrikinin əsaslı təmiri



**MÜŞTƏRİ:**
Qaraçaqanaq neft əməliyyat şirkəti
**LAYİHƏNİN YERİ:**
Aksay / Qazaxstan

**LAYİHƏNİN TƏSVİRİ:**
Şirkət Qaraçaqanaq petrol (Karachaganak Petroleum Operating Company) ərazisində 6 meqavatlıq mühərrikin təmiri üçün sifariş alıb. Bununla əlaqədar olaraq, şirkət bu mühərrikin tam əsaslı təmirini həyata keçirmiş və uğurla başa çatdırmışdır. İş prosesində 3 həftə hər gün fasiləsiz 24 saat ərzində, EASA Ex üzrə sertifikatlaşdırılmış yerli işçilər iştirak edib.

### Qaz turbin generatoru ve qaz turbin kompressoru qurğularına xidmət



**MÜŞTƏRİ:**
SOCAR
**LAYİHƏNİN YERİ:**
Xəzər dənizi / Azərbaycan

**LAYİHƏNİN TƏSVİRİ:**
Müştəri ilə müqaviləyə əsasən, iş həcminə dəniz obyektlərində 32 turbomaşın avadanlığına xidmət və satışdan sonra dəstək daxildir.

- Mühərrikin / rotorun əsaslı təmiri
- Səyyar xidmətin göstərilməsi (24/7)
- Fasiləsiz mühəndis dəstəyi (24/7)
- Nasazlıqların aradan qaldırılması
- Ehtiyyat hissələrin idarə edilməsi (anbarda malların minimal / maksimal sayı)

### Klapanların texniki xidməti



**MÜŞTƏRİ:**
BP
**LAYİHƏNİN YERİ:**
Azərbaycan / Gürcüstan

**LAYİHƏNİN TƏSVİRİ:**
**İş həcminə aşağıdakılar daxildir:**

- Klapan konstruksiyası və klapanların idarə edilməsi
- Xidmətin göstərilməsi və təmir
- Sınaqdan keçirilmə və sertifikatlaşdırma
- Yerində xidmətlər

### Elektrik və nəzarət-ölçü cihazlarına xidmət



**MÜŞTƏRİ:**
SOCAR, BP, AZENCO, WOOD
**LAYİHƏNİN YERİ:**
Xəzər dənizi / Azərbaycan

**LAYİHƏNİN TƏSVİRİ:**
**İş həcminə aşağıdakılar daxildir:**

- Gəmilərin / qazma qurğularının yenidən təchizatı, təmiri və onlara xidmət göstərilməsi
- Elektrik sistemlərinin montajı və xidmət göstərilməsi
- Yanğın və qaz aşkarlama sistemi
- Elektrik enerjisi istehsalı sistemi
- Nəzarət-ölçü cihazları və metrologiya
- Videomüşahidə sistemləri
- Perimetral siqnalizasiya sistemləri
- Təmir və xidmətin dayandırılması
- Panel tikinti
- İstismara verilmə
- Mobil laboratoriyalar
- Elektrik qurğu və avadanlıqlar
- Təhlükəli zonada quraşdırma



### Qazma buruğuna xidmətin göstərilməsi



**MÜŞTƏRİ:**
SOCAR
**LAYİHƏNİN YERİ:**
Xəzər dənizi / Azərbaycan

**LAYİHƏNİN TƏSVİRİ:**
Şirkət aşağıdakıları təmin edən xüsusi təchiz olunmuş və sertifikatlaşdırılmış işçi heyətinin tam çeşidini əhatə edən üst ötürücü sistemli xidməti (Top Drive Services) göstərir:

- Quruda və dənizdə qazma qurğularının sutka boyu üst ötürücü sistemli xidmətləri
- Üst ötürücülərin montajı və istismara verilməsi
- Profilaktik xidmət və nasazlıqların aradan qaldırılması
- Qazma qurğularında dayanmalar
- Şirkətin müəssisəsində sınaq başa çatdıqdan sonra üst ötürücünün mexaniki, hidravlik və elektrik hissəsi də daxil olmaqla, sexdə üst ötürücünün tam əsaslı təmiri.

PROKON



***Xəzər regionunda neft-qaz və tikinti bazarında fəaliyyət göstərən tikinti və layihə idarəetmə şirkətidir.***

2012-ci ildə əsası qoyulmuş Prokon şirkəti Azərbaycan bazarında mühüm layihələr üçün tikinti, mühəndislik, satınalma (təchizat), və tam fəaliyyət dövrünün idarə edilməsi üzrə peşəkar xidmətlər göstərir.

Yarandığı vaxtdan yüksək keyfiyyətli layihələri təhlükəsiz şəkildə, vaxtında və büdcəyə uyğun yerinə yetirməyə imkan verərək 'təcrübəli işçi heyəti və sınanmış sistemləri' olan şirkət imici qazana bilib. Prokon müştərilərə yüksək səviyyədə xidmətin göstərilməsi, işə sadiqlik, layihələrin uğurla həyata keçirilməsi və əməkdaşların vicdanlı olması sayəsində qazandığı misilsiz nüfuzu ilə daha çox qürur duyur.

Şirkətin gücü təkcə müvafiq bilik sahələri üzrə diqqətlə seçilmiş peşəkar və texniki heyətin keyfiyyətində və bilik və bacarıqlarının dərinliyində deyil, həm də işə dürüst və qabaqlayıcı yanaşmasındadır. Layihə komandası işləri bu yanaşma ilə idarə edərək və davamlı olaraq bütün layihə prosesində peşəkarlıq göstərərək, müştərinin maraqlarını daim təmsil və müdafiə edir və xərclərə nəzarət edir.

Prokon müştərinin baxışı və gözləntiləri barədə aydın bir fikir formalaşdıraraq layihəyə onların nöqteyi-nəzərindən baxır. Şirkət müştərilərin biznesinin, büdcə məqsədlərinin, qərarlarının qəbul edilməsi qrafiki və proseslərinin anlayışını formalaşdırır. Şirkət hər bir layihə üçün layihənin idarə edilməsinin ən uyğun üsullarını, eləcə də layihənin uğurla həyata keçirilməsini təmin etmək üçün tikinti üzrə işçi heyəti və məsləhətçilər seçir. Şirkətin idarəetməyə yanaşması və tikinti sahəsində peşəkarlardan ibarət yüksək ixtisaslı işçi heyəti layihənin təhlükəsiz şəkildə, vaxtında, müəyyən edilmiş büdcə çərçivəsində və daim müştərinin gözləntilərindən üstün yüksək keyfiyyət standartlarına uyğun olaraq təhvil verilməsi ilə nəticələnir.

# Şirkətin portfeli

- Layihələrin icra və idarə edilməsi strategiyaların işlənib hazırlanması
- Tender sənədlərinin hazırlanması
- Potensial subpodratçılar və təchizatçıların qiymətləndirilməsi
- Layihə üzrə iş və fəaliyyətlərin idarə edilməsi
- Tikinti-quraşdırma işlərinin idarə və icra edilməsi
- Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin qorunması sahəsində tələblərin idarə edilməsi
- Keyfiyyətin təmin edilməsi və keyfiyyətə nəzarət
- Layihənin dəyərinin qiymətləndirilməsi və nəzarət edilməsi
- Risklərin müəyyənləşdirilməsi və idarə edilməsi

# Əsas layihələr

SOCAR-ın "Heydər Əliyev adına Neft Emalı Zavodu"-da Modernizasiya və yenidənqurma işləri (PAKET A)



**MÜŞTƏRİ:**
KINETICS TECHNOLOGY AND TECNIMONT JV
**LAYİHƏNİN YERİ:**
Bakı / Azərbaycan

**LAYİHƏNİN TƏSVİRİ:**
Şirkətin iş həcminə aşağıdakılar daxildir:

**Əsas texnoloji bloklar**
- Dizel yanacağı hidrotreter bloku
- İzomerizasiya/benzin istehsalı üzrə qurğu

**Köməkçi qurğular**
- Kükürdün regenerasiyası qurğusu
- Turş suyun yumşaldılması bloku
- Hidrogen istehsalı qurğusu
- Metil-tret-butil efiri qurğusu.

**Kommunal xidmətlər**
- LPG anbarları
- Metanol anbarları
- Məşəl sistemi/insinerator
- Soyuducu su sistemi
- Yarımstansiya binaları
- Borular üçün birləşdirici dayaqlar

AZƏRKIMYA–Buxar turbini quraşdırma və işə salma



**MÜŞTƏRİ:**
SOCAR Uniper
**LAYİHƏNİN YERİ:**
Sumqayıt / Azərbaycan

**LAYİHƏNİN TƏSVİRİ:**

**İş həcminə aşağıdakılar daxildir:**
- Paylayıcı qurğunun tikinti işləri
- Buxar turbinli binanın və hava soyutması ilə binanın tikintisi
- Avadanlıq və boru kəmərlərinin montajı
- Binanın ətrafında tikinti işləri və sahənin abadlaşdırılması.

Lukoil Nijeqorodnefteorsintezin əsaslı təmiri



**MÜŞTƏRİ:**
Lukoil Nijeqorodnefteorsintez
**LAYİHƏNİN YERİ:**
Kstovo - Nijni Novqorod / RF

**LAYİHƏNİN TƏSVİRİ:**
2020-2022-ci illərdə "Kstvo Neft Emalı Zavodu"nun əsaslı təmirə dayandırılması zamanı mexaniki quraşdırma işlərinin həyata keçirilməsi.

İlk dayanma 2020-ci ilin aprel-may aylarında keçirilib. 45 gün ərzində PROKON ABT-6 qurğusunun məşəl boru kəmərinin və dizel boru kəmərlərinin yığılması, sökülməsi və montajı üzrə işləri başa çatdırmışdır. Bu il üçün planlaşdırılmış ikinci dayanma 2020-ci ilin oktyabrında keçiriləcək. PROKON artıq bu dayanmaya hazırlıq işlərinə başlayıb.

Çoxmərtəbəli bina



**MÜŞTƏRİ:**
RAVY PROPERTY MMC
**LAYİHƏNİN YERİ:**
Bakı, Azərbaycan

**LAYİHƏNİN TƏSVİRİ:**
İş həcminə ümumi sahəsi 24 806 kv.m olan 25 mərtəbəli binanın ofis binasının layihələndirilməsi və tikintisi işləri daxildir.

PAMBIQ YAĞI İSTEHSALI ZAVODU



**MÜŞTƏRİ:**
"AQROLİZİNQ" ASC
**LAYİHƏNİN YERİ:**
Ucar / Azərbaycan

**LAYİHƏNİN TƏSVİRİ:**
Müştəri ilə müqaviləyə əsasən işlərin həcminə tikinti, mexaniki, elektrik quraşdırma, texnoloji boru hissələri və izolyasiya işlərinin yerinə yetirilməsi daxildir. Bununla əlaqədar aşağıdakı işlər görülmüşdür:
- Pambıq toxumlarının ilkin emalı və yağın preslənməsi üzrə 200 t / sutka istehsal xətti
- İlkin presləmə üçün həlledici ilə ayırma üzrə 60 t / sutka istehsal xətti
- Pambıq yağının yarı-fasiləsiz 25 t / sutka təmizləmə xətti
- Axınların generasiyası prosesinin qurulması
- Pambıq toxumu istehsalı zavodu
- Yağ saxlama çənləri
- Buxar qazanxanası

SOSİAL LAYİHƏ - BİNƏ MƏKTƏBİ



**MÜŞTƏRİ:**
Heydər Əliyev Fondunun dəstəyi ilə Sosial Layihə
**LAYİHƏNİN YERİ:**
Bakı, Azərbaycan

**LAYİHƏNİN TƏSVİRİ:**
Sosial layihənin həcminə 1400 şagirdlik məktəb binasının, 2 mərtəbəli uşaq bağçasının, təcili yardım və poçt binasının layihələndirilməsi, təchizatı və tikintisi daxildir.

SOSİAL LAYİHƏ – ŞAĞAN UŞAQ BAĞÇASI



**MÜŞTƏRİ:**
Heydər Əliyev Fondunun dəstəyi ilə Sosial Layihə
**LAYİHƏNİN YERİ:**
Bakı, Azərbaycan

**LAYİHƏNİN TƏSVİRİ:**
Sosial layihənin həcminə 2 mərtəbəli uşaq bağçasının layihələndirilməsi, təchizatı və tikintisi daxildir.



# Korporativ idarəetmə

| 2/4 | 10 | 4 | 2 |
|---|---|---|---|
| Direktorlar şurasının müstəqil üzvü | Davamlı inkişaf sahəsində qəbul edilmiş qərarlar | 2019-cu ildə direktorlar şurasının keçirdiyi yığıncaqların sayı | komitələrin sayı |



# Korporativ idarəetmə sistemi

Biz dürüst və vicdanlı işgüzar tərəfdaş nüfuzunun qazanılmasının biznesin davamlı inkişafı üçün böyük əhəmiyyətə malik olduğunu anlayırıq. Bu səbəbdən şirkətimizdə maraqlı tərəflərimizin etimadını qazanmaq və qoruyub saxlamağa imkan verən optimal korporativ idarəetmə sistemi qurmuşuq.

Biz anlayırıq ki, effektiv korporativ idarəetmə sistemi şirkətin sərmayə qoymaq baxımından cəlbediciliyinin artmasına və bunun nəticəsində səhmdar dəyərinin artmasına kömək edir. Şirkətin səmərəli fəaliyyətinin və sərmayə qoymaq baxımından cəlbediciliyinin əsasını qarşılıqlı korporativ fəaliyyətin bütün iştirakçıları arasında etimad təşkil edir.

Nobel Oil şirkəti biznesin davamlı inkişafı üçün öz korporativ idarəetmə sistemini daim təkmilləşdirir və məhz buna görə də şirkət, yerli qanunvericiliyin və şirkətdaxili sənədlərin müddəalarının tələbləri ilə yanaşı, müxtəlif standartların və məcəllələrin tələblərini, həmçinin ən yaxşı yerli və beynəlxalq təcrübələri də nəzərə alır.

Fəaliyyətimiz dövründə biz geniş əhatə dairəsinə malik şəxslərin maraqlarına təsir göstəririk, buna görə də onlarla qarşılıqlı münasibətlərdə korporativ idarəetmənin ən yaxşı prinsiplərinə riayət olunması təkcə peşəkar uğurumuzun deyil, həm də bütün maraqlı tərəflərin uğurlarının açarıdır.

Bizim korporativ idarəetmə strukturumuz fəaliyyətimizi səmərəli idarə etməyə imkan verir. Nobel Oil şirkətinin idarəetmə orqanları şirkətin səhmdarlarının ümumi yığıncağı, direktorlar şurası və şirkətin cari fəaliyyətinə rəhbərlik edən direktorlar şurasının və səhmdarların ümumi yığıncağının qərarlarının icrasını həyata keçirən Baş icraçı direktordan ibarətdir.



## Korporativ idarəetmə strukturu




# Səhmdarların ümumi yığıncağı



Nobel Oil Qapalı Səhmdar Cəmiyyətinin səhmdarlarının ümumi yığıncağı şirkətin ən vacib məsələlərini həyata keçirən ali idarəetmə orqanıdır. Yığıncaq nizamnamə və şirkətin idarəetmə və nəzarət orqanlarının fəaliyyətini tənzimləyən daxili sənədlərə dəyişiklikləri təsdiq və daxil edir, illik hesabatların və maliyyə hesabatlarının təsdiq edilməsi ilə bağlı qərarları qəbul edir.

Səhmdarların qərar qəbul etmə prosesinə təsirinin əsas mexanizmi səhmdarların ümumi yığıncaqlarında iştirak etməsidir. Nobel Oil şirkətinin ümumi yığıncağın keçirilməsi proseduru bütün səhmdarların iştirakının bərabər imkanını təmin edir. Bizim səhmdarlarla qarşılıqlı fəaliyyət zamanı əsas məqsədimiz qərarların qəbul edilməsi prosesinin sadə, şəffaf və səmərəli olması üçün bütün şəraitin yaradılmasıdır.

# Direktorlar şurası

***Direktorlar şurası şirkətin və onun səhmdarlarının maraqlarına uyğun fəaliyyət göstərir və səhmdarların ümumi yığıncağına hesabat verir.***

Direktorlar şurası səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilən məsələlərin həlli istisna olmaqla, Nobel Oil şirkətinin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir. Korporativ idarəetmə sisteminin formalaşmasında və inkişafında, şirkətin fəaliyyətinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsində, strateji planlaşdırmada, biznesin idarə edilməsinə nəzarətində, həmçinin qeyd olunan məsələlərin idarə edilməsi haqda səhmdarların məlumatlandırılmasında əsas rol oynayır. İdarəetmə orqanın fəaliyyəti yerli qanunvericilik, şirkətin nizamnaməsi və direktorlar şurası haqqında əsasnamə ilə tənzimlənir. Direktorlar şurasının üzvləri səhmdarların ümumi yığıncağı tərəfindən seçilir və onun tərkibinə bir icraçı iki qeyri-icraçı üzv daxildir.



Direktorlar şurası praktiki iş üçün zəruri olan əsas bacarıqların olması baxımından balanslaşdırılmışdır. Strateji və korporativ idarəetmə, istehsal və maliyyə məsələləri, risklərin idarə edilməsi və sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (SƏTTƏMM) üzrə zəruri biliklərə və böyük təcrübəyə malik olmaları, onlara istənilən vaxt optimal qərarlar verməyə imkan verir. Bu bilik və bacarıqlar namizədlərin direktorlar şurasının üzvlüyünə seçilməsində məcburi göstəricidir.

Şirkətin fəaliyyətini, inkişaf strategiyalarını və əsas riskləri ətraflı öyrənmək və anlamaq üçün direktorlar şurasının üzvləri şirkətin ali rəhbərliyi ilə mütəmadi görüşlər keçirir. Bundan başqa, direktorlar şurasının üzvləri iclaslarda iştirak etmək və ölçülüb-biçilmiş qərarların vaxtında qəbul edilməsi üçün zəruri olan müxtəlif məsələlərin müzakirəsi və məlumatların müntəzəm mübadiləsi məqsədilə orta səviyyəli rəhbərlərlə rəsmi və qeyri-rəsmi görüşlər keçirirlər. Direktorlar şurasının iclasları il ərzində dörd dəfədən az olmayaraq keçirilir. İclasın gündəliyi onun çağırılması tələbi əsasında direktorlar şurasının sədri tərəfindən formalaşdırılır.

2019-cu il ərzində Nobel Oil şirkətinin direktorlar şurası şirkətin davamlı inkişaf sahəsində irəliləməsinə yönəlmiş bir sıra mühüm qərarlar qəbul edib.

**2019-cu ildə davamlı inkişaf sahəsində direktorlar şurası tərəfindən nəzərdən keçirilmiş məsələlərin və qəbul edilmiş qərarların siyahısı:**

- Şirkətin strategiyasını nəzərdən keçirdikdən və dərindən təhlil etdikdən sonra McKinsey şirkəti ilə gələcək əməkdaşlığın davam etdirilməsi haqqında qərar qəbul edilib;
- SAP (System Application and Products) modullarının şirkətin biznes proseslərinə tətbiqinin davam etdirilməsi barədə qərar qəbul edilib;
- Şirkət dəyərlərinin tətbiqinin davam etdirilməsi;
- Daxili nəzarət sisteminin təkmilləşdirilməsi məqsədilə Nobel Oil, Prokon və Qlensol üçün yeni SoD (Segregation of Duties) proseduru nəzərdən keçirilib və təsdiq edilib;
- “Kommersiya cəhətdən baxış proseduru” nəzərdən keçirilib və təsdiq edilib;
- Uzunmüddətli imkanların yaradılması üçün əməkdaşların təlimi və inkişafı üzrə təşəbbüslərə baxılıb;
- Strateji işəgötürmənin müəyyən edilməsi ilə şirkətin böyüməkdə olan biznesinə uyğunluğu baxımından korporativ ofisin imkan və bacarıqları analiz edilib;
- Müştəri məmnuniyyəti üçün rəylərin toplanması sisteminin təkmilləşdirilməsinə qərar verilib;
- ISO 37001və ABMS:2016 sertifikatının tam tətbiqi barədə qərar qəbul edilib;
- Şirkətin imkanlarına yeni sərmayə qoyuluşu nəzərdən keçirilib və qiymətləndirilib.



# Direktorlar şurasının komitələri

Direktorlar şurasının qəbul etdiyi qərarların səmərəliliyinin artırılması, daha vacib məsələlərin ətraflı ilkin nəzərdən keçirilməsi və müvafiq tövsiyələrin hazırlanması üçün 2019-cu ilin sonunda direktorlar şurası yanında iki komitə fəaliyyət göstərib: sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (SƏTTƏMM) üzrə komitə, etika və komplyens üzrə komitə.

Komitələr, müxtəlif məsələlərin ilkin baxışını, hərtərəfli təhlilini və direktorlar şurasının müvafiq tövsiyələrinin hazırlanmasını təmin edərək, korporativ idarəetmənin yüksək standartlarının saxlanılmasında mühüm rol oynayır. Hər il direktorlar şurasına bu sahələrdə idarəetmə sisteminin vəziyyəti və fəaliyyətin nəticələri, habelə idarəetmənin keyfiyyətinin və operativliyinin yaxşılaşdırılması üzrə həyata keçirilən tədbirlər barədə məruzə təqdim edilir. Komitə üzvləri şirkətin fəaliyyətinin bu istiqamətlərində qiymətləndirmə və tövsiyələrin verilməsi üçün uyğun peşəkar təcrübəyə malikdirlər.

Komitələr öz funksiyalarını yerinə yetirmək üçün şirkətin icra orqanının və ya struktur bölmələrin rəhbərlərindən istənilən zəruri məlumatı və ya sənədləri tələb etmək hüququna malikdir. Hər iki komitə onların səlahiyyətləri çərçivəsində olan məsələləri obyektiv qiymətləndirmək üçün zəruri peşəkar biliklərə və bacarıqlara malik xarici ekspert və məsləhətçiləri cəlb edə bilər.

## Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi üzrə komitə

Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (SƏTTƏMM) üzrə komitə Nobel Oil Qrup şirkətlərinin idarəetmə sisteminin təkmilləşdirilməsində və səmərəliliyinin artırılmasında mühüm rol oynayır. Komitə qanunvericiliyi və korporativ idarəetmənin ən yüksək standartlarına uyğun öz vəzifələrini yerinə yetirmək üçün idarəetmə sisteminə dəstək verir, həmçinin SƏTTƏMM sahəsində şirkətin strategiya və vəzifələrinin həyata keçirilməsinə nəzarət edir.

Bu idarəetmə orqanı SƏTTƏMM məsələlərini mütəmadi olaraq yüksək səviyyədə nəzərdən keçirir, şirkətin rəhbərliyi üçün istehsalat və ekoloji təhlükəsizlik məsələlərini yüksək prioritet kimi dəstəkləyir. Nobel Oil şirkətinin idarəetmə orqanlarının şirkətin bu sahədə səmərəliliyinin daim artırılması üzrə planları həyata keçirərək SƏTTƏMM sahəsində riskləri lazımi qaydada idarə edilməsini təmin edir. SƏTTƏMM üzrə komitə istehsalat sahəsində olan tədbirləri üzrə materialları, eləcə də bu sahədə əvvəlki göstəricilərə dair yekun hesabatı nəzərdən keçirir.

***Komitənin tərkibinə səsvermə hüququ olan beş üzv və səsvermə hüququ olmayan bir üzv daxildir.***

**STRUKTUR VƏ ÜZVLÜK**

Komitə aşağıdakı üzvlərdən ibarətdir:

- SƏTTƏMM üzrə qrup rəhbəri, sədr və katib
- Baş icraçı direktor, üzv
- Baş əməliyyat direktoru, üzv
- Baş kommersiya direktoru, üzv
- Qazma işləri üzrə baş direktor, üzv
- Layihə direktoru, üzv
- GLENSOL-Baş direktor/Baş direktorun müavini, üzv
- PROKON-Baş direktor/ Baş direktorun müavini, üzv
- SDL NOBEL-Baş direktor, üzv
- OGP- Baş direktor, üzv

**2019-cu il üçün davamlı inkişaf sahəsində komitənin nəzərdən keçirdiyi əsas mövzular:**

- Nobel Oil qrupunun SƏTTƏMM standartları təsdiq edilərək bütün qrup üzrə tətbiq edilmişdir.
- Prokon şirkətində fəaliyyətin izlənməsi sistemini (ATS) işləyib hazırlamaq;
- Qrupda SƏTTƏMM dəyişikliklərinin idarəetmə protokolunu müəyyənləşdirmək;
- Hadisələr haqqında məlumatlandırma və araşdırma protokolunu işləyib hazırlamaq;
- Risklərin qiymətləndirilməsi protokolunu işləyib hazırlamaq;
- Qrup üçün SƏTTƏMM qiymətləndirməsi və auditi proqramını hazırlamaq;
- Yoxlamaların ümumi planlı proqramını işləyib hazırlamaq və onu Qrup üzrə tətbiq etmək;
- Qrupun SƏTTƏMM üzrə hüquqi və digər tələblərinin reyestrini işləyib hazırlamaq.

# Etika və komplayens üzrə komitə

Komitə direktorlar şurasına etika məsələlərinə və şirkət çərçivəsində tələblərə uyğunluğa nəzarət edilməsində və mümkün problemlərin həll edilməsində dəstək olmaqla mühüm rol oynayır. Əsas rollardan biri etika ilə bağlı risklərə riayət edilməsinə nəzarətin dəstəklənməsindən, həmçinin biznesə təsirlərin azaldılması üzrə tədbir və işlərin nəzarətdə saxlanılmasından ibarətdir.

Şirkətin qanunlara və etik davranış normalarına riayət etməyə həvəsləndirən etika mədəniyyətinin dəstəklənməsi və təşviqi üçün komitə vaxtaşırı idarəetmə sisteminin səmərəliliyini təmin etmək üçün həyata keçirilməli addımlar barədə direktorlar şurasına tövsiyələr hazırlayır. Komitə etik və hüquqi normalara riayət olunması üzrə səmərəli proqramların işlənib hazırlanmasına, həyata keçirilməsinə və fəaliyyət göstərməsinə yardım edir, həmçinin biznesin etik qaydada aparılmasını və qanuna riayət olunmasını tələb edən oxşar proqramların faydasını ən üst səviyyəyə çatdırmağa kömək edir.

***Komitənin tərkibinə səsvermə hüququ olan beş üzv və səsvermə hüququ olmayan bir üzv daxildir.***

**STRUKTUR VƏ ÜZVLÜK**

Komitə aşağıdakı üzvlərdən ibarətdir:

- Etika və komplayens üzrə mütəxəssis, sədr və katib
- Baş icraçı direktor, üzv
- Baş əməliyyat direktoru, üzv
- Baş kommersiya direktoru, üzv
- Baş maliyyə direktoru, üzv
- Hüquq məsələləri üzrə Qrup meneceri, üzv

**2019-cu il üçün davamlı inkişaf sahəsində komitənin nəzərdən keçirdiyi əsas mövzular:**

- Risklərin qiymətləndirilməsi planı;
- İntizama cəlb etmə proseduru və şikayətlərin baxılması proseduru;
- Biznes təkliflərinin baxılması  baxışı və satınalma prosedurları;
- Risklərin qarşısının alınması planı;
- Elektron təlim portalının yaradılması;
- ISO 37001 ABMS (Rüşvətxorluqla mübarizəyə dair idarəetmə sistemi): 2016-cı il standartının şirkətdaxili tətbiqinin 2019-cu il üzrə dəyərləndirilməsi və davamlı olaraq bu standartın tələblərinin şirkət daxilində tətbiqi və davamlı inkişafın həyata keçirilməsi, habelə 2020-ci ildə Lloyds Registry tərəfindən həyata keçiriləcək auditə hazırlıq.

# Baş icraçı direktor



Baş icraçı direktor şirkətin fəaliyyətinə operativ rəhbərlik edir və Nobel Oil nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində fəaliyyət göstərir.

Baş icraçı direktor direktorlar şurasının qarşıya qoyduğu vəzifələri həyata keçirir və bölmələrə fəaliyyətin müəyyən istiqamətləri - istehsalat və ekoloji, maliyyə-iqtisadi, sosial və hüquqi - üzrə kuratorluq edərək şirkətin inkişaf strategiyasını icra edir.



# Risklərin idarə edilməsi




Bizim rəhbərliyimiz strateji məqsədlərimizə çatmaq üçün risklərin əlaqələndirilməsi məsələlərinə xüsusi diqqət yetirir ki, bu da mümkün təhlükələri və itkiləri vaxtında aşkar etməyə, təhlil etməyə və qarşısını almağa imkan verir. Şirkətimiz risklərin idarə edilməsi sistemini bir-biri ilə əlaqəli mütəşəkkil tədbirlər və proseslərin məcmusu kimi qiymətləndirir. Bura təşkilati struktur, yerli normativ aktlar və digər normativ hüquqi aktlar, sənədlər, normalar, standartlar və qaydalar kimi metod və prosedurlar, həmçinin şirkətin rəhbərliyi və əməkdaşları tərəfindən şirkətin məqsədlərinə nail olmaq və problemlərin həlli üçün kifayət qədər zəmanətin təmin edilməsi istiqamətində həyata keçirilən korporativ mədəniyyətin norma və tədbirləri daxildir. Bütün bu məcmu vacib qərarların qəbul edilməsində rəhbərliyimizin və əməkdaşlarımızın dəstəklənməsinə yönəlib.

Şirkət üçün risklərin idarə edilməsi bütün layihə dövrü ərzində davam edən davamlı prosesdir. O, özündə risklərin idarə edilməsinin planlaşdırılması, müəyyən edilməsi, təhlili, monitorinqi və nəzarət proseslərini ehtiva edir. Bu proseslərin bir çoxu bütün layihə dövrü ərzində yenilənir, çünki yeni risklər istənilən vaxt aşkar edilə bilər. Risklərin idarə edilməsinin məqsədi layihə üçün mümkün əlverişsiz hadisələrin qarşısını almaq və təsirini azaltmaqdır. Digər tərəfdən, biz müsbət təsir göstərə biləcək istənilən hadisədən də istifadə etməyə çalışırıq.

2019-cu ildə risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üçün iki yeni prosedur işlənib hazırlanmış və təsdiq edilmişdir: SƏTTƏMM sahəsində risklərin qiymətləndirilməsi protokolu və rüşvətxorluq və korrupsiya sahəsində risklərin qarşısının alınması planı.

# SƏTTƏMM sahəsində risklərin qiymətləndirilməsi protokolu

Sağlamlıq, əməyin texniki təhlükəsizliyi, ətraf mühitin mühafizəsi (SƏTTƏMM) sahəsində risklərin vahid idarəetmə sisteminin yaradılması məqsədilə 2019-cu ildə şirkətin bütün iş sahələrində "Risklərin qiymətləndirilməsi protokolu" işlənib hazırlanmış və təsdiq edilmişdir. Bu protokol əsas fəaliyyətin tələb etdiyi yüksək keyfiyyət səviyyəsinə nail olmaq üçün Nobel Oil Qrupu tərəfindən tətbiq ediləcək yanaşmanı təsvir edir. Protokolun əsas məqsədi Qrup daxilində risklərin qiymətləndirilməsinin aparılmasının ardıcıl metodunu müəyyən etməkdir və zəmanət verilsin ki, şirkət:

### SƏTTƏMM üzrə risklərin idarə edilməsi sisteminin məqsədləri

**_Əmək və ətraf mühitin mühafizəsi (SƏTTƏMM) üzrə Qrupun standartlarının tələblərinə uyğun gəlir_** → **_Əməkdaşları, Qrupu, müştəriləri və ictimaiyyəti risklərdən qoruyur_** → **_Riskin azaldılmasına daha geniş yanaşmanı dəstəkləmək məqsədilə müəssisələr üçün risk reyestrlərini işləyib hazırlayır və aparır_**

Protokolun reqlamentinə əsasən, riskin qiymətləndirilməsi Nobel Oil üçün və ya onun adından törəmə şirkətlərin obyektlərində və iş sahəsindən kənarda həyata keçirilən bütün işlər üçün aparılmalıdır. Bundan əlavə, razılaşdırılmış uyğun və ya daha ciddi prosedurlar mövcud olmadıqda, protokol tərəfdaşlıq sazişlərinə və / və ya birgə müəssisələrə tətbiq olunacaq. Əgər müştəri müqavilə çərçivəsində risklərin qiymətləndirilməsinin müəyyən prosedurunu və öz obyektində istifadə üçün formalar təqdim edirsə, o, şirkətin müvafiq menecerinin həmin formaların şirkətin protokoluna uyğunluğunun təmin edilməsi şərtilə istifadə edilə bilər.

# Rüşvətxorluq və korrupsiya sahəsində risklərin qarşısının alınması planı



2019-cu ildə həyata keçirilən daha bir addım bütün Nobel Oil Qrupu üçün rüşvətxorluq və korrupsiya üzrə "Risklərin qarşısının alınması planı" prosedurunun işlənib hazırlanması və təsdiq edilməsi oldu.
Bu plan əsasən şirkət üçün nəzərdə tutulmuş rüşvətxorluq və korrupsiya riskinin azaldılması üzrə mümkün tədbirlərin nəzərdən keçirilməsini ehtiva edir. Plan yarana biləcək müvafiq problemlərə işarə edərək, anti-korrupsiya tədbirlərinin planlaşdırılması üçün risklərin azaldılması üzrə mümkün tədbirlərin praktiki nümunələrini vermək məqsədi daşıyır. Bundan başqa, planın məqsədi şirkətin layihələrinə mənfi təsir göstərə biləcək hadisələri idarə və nəzarət etmək üçün istifadə olunacaq prosesləri, alətləri və prosedurları sənədləşdirməkdir.

Tətbiq etdiyimiz planda olan prinsiplər, şirkətdə rüşvətxorluq və korrupsiyanın bütün aspektlərində risklərin azaldılmasına tətbiq edilə bilər və beynəlxalq ISO 37001 ABMS (Rüşvətxorluqla mübarizəyə dair idarəetmə sistemi): 2016 standartına və şirkətin qəbul etdiyi digər siyasətlərə uyğun gəlir. Rüşvətxorluq riskinin azaldılması forması əsasən gözlənilməz rüşvətxorluq və korrupsiya risklərinin azaldılması və planlaşdırılması məqsədilə istifadə üçün işlənib hazırlanmışdır.



# Daxili nəzarət



Daxili nəzarətin səmərəliliyinin artırılması məqsədilə şirkətimizdə, biznes proseslərinin iştirakçılarının məsuliyyətinin funksional bölgüsü üçün, subyektlər arasında qarşılıqlı fəaliyyətin funksiyalarını, rolunu və əsaslarını vahid sənəddə müəyyən edən SOD proseduru işlənib hazırlanmışdır. Bu prosedur şirkətin mövcud yerli normativ sənədləri nəzərə alınmaqla hazırlanmış və profil üzrə ən üst səviyyəli idarəçilərlə razılaşdırılmışdır.

SOD prosedurunun əsas məqsədi biznes üzərində səmərəli daxili nəzarətin qurulmasıdır ki, bu da şirkət üçün risklərin, səhvlərin və saxtakarlıqların minimuma endirilməsi kimi mühüm üstünlüyü təmin edir. Bu sənəd hərəkətlərin düzgün istiqamətləndirilməsi üçün hər bir fərdin əməl etməli olduğu biznes-hərəkətlərin ardıcıllığı prosesini yaradır. Bundan başqa, bu sənəd biznes-proseslərin daxili strukturunun mükəmməl başa düşülməsini və həm korporativ, həm də fərdi məsuliyyəti təmin edir və biznes-proseslərin səmərəliliyini artırır.

Biz dərk edirik ki, müasir rəqabət avtomatlaşdırılmış daxili nəzarət sistemlərinə ehtiyac yaradır. Bu səbəbdən biz, idarəetmə proseslərinin səmərəliliyinin artırılması məqsədilə hesabat və monitorinq prosedurları da daxil olmaqla, şirkətdaxili prosedurlarımızın avtomatlaşdırılmasını genişləndiririk. Bunun üçün Nobel Oil şirkətində SAP proqram təminatının modullarının tətbiqini davam etdiririk ki, bu da ən səmərəli biznes vasitələrindən istifadə etməklə hesabat və idarəetmə proseslərini tam avtomatlaşdırmağa imkan verir.

Nobel Oil şirkətində və onun törəmə şirkətlərində hesabatlılıq, layihələrin idarə edilməsi, insan resurslarının idarə edilməsi, əmək haqqının hesablanması və pul vəsaitlərinin hərəkəti, kommersiya təklifi və satınalma prosesi, həmçinin nəzarət kimi bir sıra əməliyyat funksiyaları üçün kompüterləşdirilmiş idarəetmə üsulları tətbiq edilmişdir. Bundan əlavə, SOD proseduru, maliyyə, təchizat, i̇nsan resursları, hüquq və kommersiya hüququ şöbələri də daxil olmaqla SAP və OpenText əməliyyat sistemlərinə daxil edilmişdir.

**_Bizim daxili nəzarət prosedurlarımız bir çox üstünlüklərin təmin edilməsinə yönəlib. Bura aşağıdakılar daxildir:_**

- şirkətin maliyyə dayanıqlılığının təmin edilməsi, onun dəyərinin və gəlirliliyin artması;
- biznes-proseslərində risklərin effektiv idarə edilməsi;
- təsərrüfat fəaliyyətinin nizamlı və səmərəli aparılması;
- aktivlərin qorunmasının təmin edilməsi;
- pozuntuların aşkarlanması və qarşısının alınması;
- tətbiq olunan qanunvericiliyə və yerli normativ sənədlərə riayət olunması;
- düzgün maliyyə hesabatlarının vaxtında hazırlanması və bununla da sərmayə qoyuluşu baxımından cəlbediciliyinin artırılması.

Daxili nəzarət və idarəetmənin şəffaflığı və səmərəliliyinin artırılması məqsədilə 2020-ci ilə qədər SAP-da bütün tender proseslərini tətbiq etməyi və müştərilər üçün SRM sistemini yaratmağı, Qlensol və PROKON üçün qabaqcıl anbar idarəetmə modulunu və satınalma sifariş modulunu quraşdırıb nizamlamağı planlaşdırırıq. SOD ilə daxili nəzarət mexanizminin gücləndirilməsi məqsədilə 2020-ci il üçün SOD komitəsinin yaradılması planlaşdırılır.




# Etika və qanunlara riayət

**4**

*Etika və qanunlara riayət edilməsi ilə bağlı qəbul edilmiş qərar*

**100%**

*Biznes etikası və davranış qaydaları üzrə təlimlərdə iştirak etmiş işçilər*

**100%**

*Antikorrupsiya fəailliyəti üzrə təlimlərdə iştirak etmiş işçilər*

# Antiinhisar və rəqabət qaydalarına riayət olunması

Biz fəaliyyət göstərdiyimiz ölkələrdə yerli qanunvericiliyin və beynəlxalq qanunların tələblərinə riayət edirik. Əgər bizim iş etikası norması və davranış qaydalarımızla qanunlar arasında hər-hansı bir uyğunsuzluq olarsa, biz qanunu üstün tuturuq.

Biz inanırıq ki, mövqeyindən asılı olmayaraq, ölkədə sahibkarlıq fəaliyyətinin və ya layihənin idarə edilməsinə məsuliyyət daşıyan şirkətin hər bir əməkdaşı, həmin ölkənin qanunvericiliyinin tələblərinə riayət olunmasına cavabdehdir. Nobel Oil şirkətinin hər bir əməkdaşı rəqabət əleyhinə təcrübələri qadağan etməklə rəqabəti qoruyan antiinhisar və rəqabət qanunlarının tələblərinə riayət etməlidir.

Bizim iş etikası və davranış kodeksimiz fəaliyyət göstərdiyimiz bazarlarda rəqabətədavamlı iş icrasının əsas prinsiplərini və işçilərin antiinhisar qanunvericiliyinin tələblərini təmin etmələri üçün davranış qaydalarını müəyyən edir. Kodeksimizin tələbi budur ki, şirkətin heç bir əməkdaşı və ya agenti qiymət məsələlərində, satış və ya xidmət şərtlərində və heç bir rəqib şirkətlə hər-hansı bir anlaşma, razılaşma, plan və layihələrdə iştirak etməməli; rəqiblərlə satış və xidmət şərtlərinin dəyəri və ya rəqabətə təsir edəcək istənilən məlumatı mübadilə və müzakirə etməməli; hansısa antiinhisar qanununu pozan fəaliyyətlə məşğul olmamalıdır. Biz bütün təşkilatlarımızda müvafiq yerli normativ-texniki sənədlər işləyib hazırlamış və antiinhisar tədbirləri həyata keçirmişik.

Biz antiinhisar məsələlərinin tənzimlənməsi üzrə seminarlar və dəyirmi masalar təşkil edərək işçilərimizin biliklərini artırır, antiinhisar qanunvericiliyinin tələblərinin pozulmasının qarşısının alınması məqsədilə xəbərdaredici kompleks tədbirlər işləyib hazırlayır və onları daim təkmilləşdiririk.

# Biznes etikası və davranış qaydaları



Biz anlayırıq ki, dürüst və vicdanlı işgüzar tərəfdaş etibarın, etimadın qazanılması və qorunması üçün mühüm əhəmiyyət kəsb edir. Maraqlı tərəflərlə qarşılıqlı əlaqələri saxlamaq üçün biz öz biznesimizi qanun çərçivəsində, vicdanlı və etik prinsiplər əsasında qururuq. Bu tələblərə riayət olunmasını davamlı inkişaf sahəsində fəaliyyətimizin əsası hesab edirik.

Biz korporativ sənədlərimizi Böyük Britaniyanın və yerli qanunvericiliyin tələblərinə uyğun və biznes etikası və davranış qaydaları üzrə ən yaxşı dünya təcrübələrinə əsasən hazırlamışıq. Bu sənədlər həm daxili həm də xarici tərəfdaşlarımızla qarşılıqlı əlaqələrə aid davranış qaydaları və öhdəliklərin tənzimləməsində şirkətin rəsmi mövqeyini əks etdirir.

Biznes etikası və davranış qaydaları maraqların toqquşması vəziyyətində bütün işçilərin necə hərəkət etməsini müəyyən edir, korrupsiya davranışına dözümsüzlüyü, bütün işçilər üçün imkanların bərabərliyini əks etdirir, ayrı-seçkiliyə qadağa prinsiplərini təsbit edir, korporativ etika normalarının həyata keçirilməsi və onlara əməl olunmasına nəzarət mexanizmini müəyyən edir.

Biznes etikası və davranış qaydaları bütün vəzifəli şəxslərə, idarə heyəti üzvləri də daxil olmaqla bütün əməkdaşlara (subpodratçı və ya könüllü olaraq daimi və ya müvəqqəti işlə məşğul olanlar da daxil) tətbiq edilir. Bu qaydaların prinsip və tələbləri, şirkətlə mal və xidmətlərin tədarükü üzrə müqavilə bağlayan podratçı, məsləhətçi, tədarükçü kimi tərəfdaş şirkətlər və onların nümayəndələrinə də tətbiq olunur.

Biznes etikası və davranış qaydaları həmçinin şirkətimizin və ya onun hər-hansı bir törəmə şirkətinin səhmlərinin nəzarət paketinə sahib və ya operatoru olduğu birgə müəssisələrin bütün fəaliyyət sahələrinə tətbiq olunur. Şirkətin və ya onun hər-hansı törəmə şirkətinin səhmlərinin nəzarət paketinə sahib olmadığı birgə müəssisələrlə münasibətdə biz biznes etikası və davranış qaydalarımızda qeyd olunan prinsip və tələblərin həmin birgə müəssisənin siyasət və təcrübəsində öz əksini tapmasına da çalışırıq.

# Korrupsiyaya qarşı mübarizə

Biz korrupsiyanın qanunun aliliyinə təhlükə yaratdığını, idarəetmənin effektivliyini azaltdığını, investisiya qərarları üçün əlverişsiz mühit yaratdığını, büdcə vəsaitlərinin və maliyyə ehtiyatlarının qeyri-səmərəli istifadəsinə səbəb olduğunu düşünürük. Bunu nəzərə alaraq, biz beynəlxalq və xarici qanunvericiliyin normativ aktlarının tələblərinə, habelə korrupsiyaya qarşı mübarizə məsələləri üzrə yerli və beynəlxalq orqanların və təşkilatların tövsiyələrinə uyğun olaraq korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə üzrə daxili normativ baza formalaşdırmışıq.

***Nobel Oil şirkəti korrupsiyanın qarşısının alınmasına və onunla mübarizə aparılmasına dair məsələləri daim diqqət mərkəzində saxlayır. Biz korrupsiyaya qarşı effektiv mübarizə sisteminin yaradılması məqsədilə aşağıdakı hüquqi aktları və daxili sənədləri əsas tutaraq korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə üzrə rəhbər prinsiplər hazırlamışıq:***

- Böyük Britaniyanın 2010-cu il rüşvətxorluğa qarşı mübarizə haqqında qanunu
- ABŞ-ın 1977-ci il xaricdə korrupsiya haqqında qanunu
- 1997-ci il beynəlxalq kommersiya əqdlərinin həyata keçirilməsində xarici dövlətlərin vəzifəli şəxslərinin ələ alınmasına qarşı mübarizə haqqında konvensiya
- Birləşmiş Millətlər Təşkilatının 2003-cü il korrupsiyaya qarşı konvensiyası
- ISO ABMS 37001:2016 beynəlxalq standartı
- ISO 19011 audit idarəetmə sistemləri üzrə təlimat

Korrupsiyaya qarşı mübarizə və onun qarşısının alınması sahəsində əsas tədbirlər bizim antikorrupsiya siyasətimizdə təsvir edilib. Bu siyasət şirkətimizin, direktorlar şurasının və əməkdaşların işin ən yüksək etik standartlara uyğun aparılmasına, korporativ idarəetmənin ən yaxşı təcrübələrinin və standartlarının qəbul edilməsinə və işgüzar nüfuzumuzun ən yüksək səviyyədə saxlanılmasına sadiqliyini əks etdirir.

Bizim antikorrupsiya siyasətimizdə qeyd olunan korrupsiya halının qəbul edilməməsi prinsipi şikətimizin rəhbər işçiləri başda olmaqla hər bir əməkdaşının həm Azərbaycanda həm də fəaliyyətdə olduğumuz dünyanın digər ölkələrində korrupsiya fəaliyyətində iştirakının qəti qadağan olunduğunun göstəricisidir. Bu siyasət əməkdaşlarımıza və ya şirkətimizə və ya onun törəmə şirkətləri adından işə cəlb olunan şəxslərə və ya şirkətlərə hər hansı formada rüşvət təklif etməyi, verməyi, tələb etməyi və ya almağı qadağan edir. Biz bütün əməkdaşlarımızı bu siyasətə riayət etməyə təşfiq edir və əsas prinsiplər, tələblər və riayət edilmədiyi halda görüləcək cəza tədbirləri haqda məlumat veririk.

Biz korrupsiyaya qarşı mübarizə sisteminin təkmilləşdirilməsi üzrə aparılan işlər çərçivəsində, ISO 37001:2016 beynəlxalq "Rüşvətxorluğa qarşı mübarizə sistemi" standartına uyğun faktiki və ya ehtimal dilən rüşvətxorluq və korrupsiya hallarının qarşısının alınması, aşkarlanması, bildirilməsi və araşdırılması üçün prosedurlar tətbiq etmişik.

## Rüşvətxorluğa qarşı mübarizədə şirkətin məqsədləri

*Şirkətin, direktorlar şurasının üzvlərinin korrupsiya hərəkətlərinə cəlb olunması riskinin minimuma endirilməsi.*

*Bu siyasətin direktorlar şurası, əməkdaşlar, səhmdarlar, sərmayə cəmiyyəti, kontragentlər, idarəetmə orqanlarının üzvləri və digər maraqlı tərəflərin dəqiq və tam başa düşməsinin təmin edilməsi.*

*Direktorlar şurasından və əməkdaşlardan bu siyasətin prinsipləri və tələbləri, rüşvətxorluğa qarşı mübarizə ilə bağlı prosedurlar və rüşvətxorluğa qarşı mübarizə haqqında tətbiq olunan qanunvericiliyin əsas müddəaları haqqında məlumatlandırılmış olmaları və onlara riayət etdiklərinə dair öhdəliyin alınması.*

*Birləşmiş Krallığın anti-korrupsiya qanunvericiliyinin və şirkətə tətbiq oluna biləcək rüşvətxorluğa qarşı mübarizə haqqında istənilən yerli qanunların əsas tələbləri barədə məlumatın verilməsi və izah edilməsi.*

Biz anti-korrupsiya standartlarında qeyd olunan prosedurların effektivliyinin yoxlanılması məqsədilə mütəmadi olaraq monitorinqlər həyata keçiririk. Monitorinqin nəticəsində dəyişikliyə və ya təkmilləşdirilməyə ehtiyac duyulan sahələr müəyyən edildikdə dərhal onları ətraflı araşdırıb lazımi tədbirləri görürük. Bundan əlavə, şirkətimizin direktorlar şurası tərəfindən bu sahəyə daim yüksək diqqət yetirilir, vaxtaşarı şirkətin anti-korrupsiya siyasəti nəzərdən keçirilir, zərurət olduqda müvafiq düzəlişlər edilərək yenilənir.

# Hədiyyələrin təqdim və qəbul edilməsi





Şirkətimizn biznes etikası və davranış qaydalarına və anti-korrupsiya siyasətinə uyğun olaraq, korrupsiyanın qarşısının alınması məqsədilə görülən əsas tədbirlərdən biri hədiyyələrin təklif, təqdim yaxud qəbul edilməsinə münasibətin düzgün təsbit edilməsidir. Hədiyyələrin təklif, təqdim yaxud qəbul edilməsi rüşvət kimi qəbul ediləcəyi halda, hədiyyələrin, qonaqlığın, ianələrin və oxşar mənfəətlərin təklif, təqdim və ya qəbul edilməsi cəhdlərinin qarşısını alınır.

Biz əməkdaşlarımızı onların qərəzsizliyinə, qərarlarına və davranışlarına təsir edə biləcək hədiyyələrin və ya mükafatların qəbulundan, həmçinin belə hədiyyələrin və mükafatların kənar şəxslərə və şirkətlərə təqdim edilməsindən çəkindiririk. Əməkdaşlarımız onlara təklif edilmiş hədiyyənin şirkətin biznes etikası və davranış qaydalarında, anti-korrupsiya siyasətində qeyd olunmuş meyarlara uyğun gəlmədiyi və digər bütün hallar barədə şirkətimizin etika və komplayens üzrə məsul şəxsə məlumat verməli olduqlarını izah və təşfiq edirik.

Həmçinin ISO 37001:2016 "Rüşvətxorluğa qarşı mübarizə sistemi"nin hədiyyələr və qonaqlıqla bağlı maddəsinə uyğun olaraq, şirkətimiz bir sıra prosedurlar həyata keçirir. Biz bu prosedurları elə hazırlayırıq ki, hədiyyələrin qəbulu və qonaqlıq zamanı maksimal xərclər, bu fəaliyyətlərin başvermə tezliyi, müddətlər, məntiqilik, qəbul edənin şəxsiyyəti, qarşılıqlılıq və normativ-hüquqi mühit kimi amillər nəzərə alınsın.

Biz hədiyyələrin qəbul və təqdim edilməsinin şirkətimizin anti-korrupsiya siyasətinə, biznes etikası və davranış qaydalarının prinsiplərinə və tələblərinə, habelə digər normativ aktlara və ya qüvvədə olan qanunlara zidd olmamasını təmin edirik.

# Korrupsiya riski

Nobel Oil şirkətinin fəaliyyət sahəsinin genişliyini nəzərə alaraq biz korrupsiya riskinin aradan qaldırılması və azaldılması məqsədilə hər bir biznes prosesini ayrı-ayrılıqda nəzarət altında saxlayırıq. Bu məqsədlə hər il şirkətin bütün əsas və köməkçi biznes proseslərində mümkün korrupsiya riskinin müəyyən olunması üçün xüsusi monitorinqlər keçirilir. Biz fəaliyyətimiz və potensial biznes proseslərimizə xas olan korrupsiya riski göstəricilərini aşkarlamaq və yeniləməklə, korrupsiya riskinin mütəmadi qiymətləndirilməsini təmin edirik.

Riskin qiymətləndirilməsi üzrə tövsiyələr almaq üçün şirkət "Transparency International"in hazırladığı "Korrupsiya riskinin diaqnostikası - Korrupsiya riskinin effektiv qiymətləndirilməsinin aparılması üzrə təlimat" adlı nəşrə, həmçinin beynəlxalq ISO 37001 ABMS:2016 "Rüşvətxorluğa qarşı mübarizənin idarə edilməsi sistemi" standartına uyğun hazırlanmış "Riskin azaldılması planı" proseduruna müraciət edir.

Risklərin azaldılması prosesinə yanaşmada biz iki əsas məqama diqqət edirik: 1) Hadisənin baş vermə ehtimalının azaldılması. 2) Hadisənin gözlənilməz şəraitdə baş verməməsi üçün bir sıra qabaqlayıcı tədbirlərin və ya hadisə baş verdikdən sonra nəticələrinin aradan qaldırılması planının həyata keçirilməsi. Biz düşünürük ki, fövqəladə hallarda hərəkət planının həyata keçirilməsi üçün qərar qəbul etməzdən əvvəl, risklərin ehtimal təsirinin qiymətləndirilməsi vacibdir.

Həmçinin şirkətin korrupsiyaya qarşı mübarizədə atdığı əsas addımlardan biri də istənilən korrupsiya əməlində iştirak etmiş kontragentlə biznesin aparılması riskini minimuma endirmək üçün uyğun səylərin göstərilməsidir. Bu məqsədlə biz müqavilə tərəfdaşının rüşvətxorluğa qarşı tolerantlığını, o cümlədən rüşvətxorluğa qarşı mübarizə üzrə öz siyasət və prosedurlarının olub-olmadığının yoxlanılmasını və şirkətimizin siyasətinin tələblərinə riayət etməyə hazırlığını ciddi qiymətləndiririk. Bundan əlavə, şirkət kontragentlə bağladığı müqavilələrə rüşvətxorluğa qarşı mübarizə haqqında müddəalar daxil edir və biznesin vicdanla aparılmasına kömək edirik.

# Təlimlər

Biz hesab edirik ki, korrupsiyanın qarşısının alınması üçün əsas elementlərdən biri antikorrupsiya haqda məlumatlandırma və təlimləridir. Nobel Oil şirkətlər qrupunda mütəmadi olaraq bütün işçilərə etik davranış qaydaları öyrədilir və qanunsuz hərəkətlərə yol verilməməsi təşviq edilir. Şirkətdə vaxtaşırı rüşvətxorluğun qarşısının alınmasına yönəlmiş xüsusi tədris proqramları həyata keçirilir. Belə təlimlər bütün əməkdaşlarımız, eləcə də podratçı təşkilatların əməkdaşları üçün keçirilir. Yeni əməkdaşlar giriş təlimi proqramında rüşvətxorluq mədəniyyətinin düzgün başa düşülməsi üçün rüşvətxorluğa qarşı mübarizə haqqında bölmə ilə tanış edilir. Rüşvətxorluğun qarşısının alınmasına yönəlmiş xüsusi tədris proqramları qanunda hər hansı mümkün dəyişikliyi əks etdirmək üçün mütəmadi olaraq yenilənir.

Tədris proqramlarından əlavə, hər bir əməkdaş istənilən vaxt anti-korrupsiya siyasətinə əməl olunması, etik davranış, məxfiliyə riayət edilməsi və digər analoji məsələlər üzrə məsləhət almaq üçün etika və normativ tələblərə riayət edilməsi məsələlərinin təşkili və onlara nəzarət üzrə məsul əməkdaşa müraciət edə bilər.

Nobel Oil şirkətlər qrupunun bütün əməkdaşları, habelə yeni işə alınan əməkdaşlar hər il təlimlərdə iştirak edir və təlimdə etika və komplayens ilə bağlı verilmiş məlumatlarla tanış olduqdan sonra yazılı bəyanat imzalayırlar. 2020-ci ildə bu təlimin onlayn rejimdə keçirilməsinə üstünlük veriləcəkdir. Həmçinin risk-yönümlü yanaşma ilə etika və tələblərə uyğunluğu pozacağı daha çox ehtimal olunan hədəf qrupları müəyyən olunacaqdır.

# Məlumatlandırma və ünsiyyət




Qanunsuz hərəkətlərin qarşısının alınması və korrupsiya və dələduzluq risklərinin minimuma endirilməsi, eləcə də qanunsuz davranışın digər hallarının aradan qaldırılması üçün Nobel Oil şirkəti ehtimal olunan və ya faktiki pozuntularla bağlı effektiv məlumatlandırmaya metodunun yaradılmasına xüsusi diqqət yetirir. Bununla əlaqədar olaraq, Böyük Britaniyada hamı tərəfindən qəbul edilmiş korporativ idarəetmənin qabaqcıl təcrübəsinə uyğun olaraq, şirkətdə "Konsern haqqında hesabat" proseduru tədbiq edilib. Bu prosedurun məqsədi əməkdaşlara rüşvətxorluq, korrupsiya və ya qanunsuz hərəkətlərin faktiki və ya ehtimal olunan halları barədə məlumat vermək üçün metodologiya təqdim etməklə "pozuntular haqqında məlumatlandırma" və "narahatlığın artması" prinsiplərinin həyata keçirilməsini dəstəkləməkdir.

Məsuliyyətli şirkət kimi biz əməkdaşların üzərinə bir sıra hallar barədə məlumat vermək öhdəliyini qoyuruq. Belə hallara faktiki və ya ehtimal olunan pozuntular, hər hansı mümkün qanunsuz hərəkətlər, korrupsiya və dələduzluq hərəkətlərinin faktiki yaxud ehtimal olunan halları və ya məxfi, imtiyazlı və ya şəxsi məlumatların qeyri-qanuni əldə olunması, açıqlanması və ya sui-istifadəsi və digər xətalar daxildir.

Biz maraqlı tərəflərimizin kodeksimizin müddəalarının pozulması barədə məlumatlandırma kanallarından xəbərdar olmasına diqqət yetiririk. Şirkətdə iş etikası üzrə hər kəsin müraciət edə biləcəyi qaynar xətt fəaliyyət göstərir. İstənilən xəbərdarlığın etika və komplayens üzrə qaynar xəttə göndərilməsi üçün e-poçt:
ethics_nbo@nobeloil.com
və ya etika və komplayens üzrə məsul əməkdaşın əlaqə nömrəsi mövcuddr:
+994 70 2994980.

Etika və normativ tələblərə əməl edilməsi məsələləri üzrə əməkdaşımız biznes etika və davranış kodeksinin pozulması haqqında bildirişlərin araşdırılmasına görə məsuliyyət daşıyır, müvafiq hesabatlar hazırlayır və hesabatları Baş icraçı direktora təqdim edir.

Biz zəmanət veririk ki, biznes etikası və davranış qaydaları ilə bağlı məsləhət üçün müraciət edən, narahatlığını ifadə edən, faktiki və ya şübhəli pozuntu barədə məlumat verən heç bir kəsə qarşı hər hansı bir təqibə dözümlülük göstərilməyəcək.

# Maraqların toqquşmasının qarşısının alınması

Biz idarəetmə orqanları və icra orqanları üzvləri arasında maraqların mümkün toqquşmasının qarşısının alınması və baş vermiş münaqişənin nəticələrinin minimuma endirilməsi məsələlərinə daim diqqət yetiririk. Şirkət öz işçilərinin işdən kənar məqsəd və maraqlarının müxtəlifliyini və əhəmiyyətini qəbul edir və hörmət edir, lakin işçisinin şəxsi, ailə zəmnində və düşdüyü digər vəziyyətlər nəticəsində şirkətə münasibətdə loyallıq və obyektivliyini itirdiyi və ya itirə biləcəyi vəziyyətə biganə qalmır. Əməkdaşlar şirkətin biznes maraqlarını üstün tutmalı, maraqların bütün toqquşmalarını bəyan etməli və maraqların toqquşması görüntüsü yaradan vəziyyətlərdən qaçmalıdırlar, çünki belə hal işçinin effektivliyinə mənfi təsir göstərə bilər. Ona görə də biz bu cür münaqişələrin qarşısının alınması üçün tədbirlər görürük.

Nobel Oil şirkətinin rəhbərləri və əməkdaşlarının şəxsi maraqları şirkətin maraqlarına zidd olduğu halda, onlar bu barədə dərhal məlumat verməlidirlər. Əməkdaşlar Nobel Oil şirkəti ilə iş görən şirkətlərdə hər hansı əmlak və ya maliyyə marağına malik ola bilməzlər və şirkət tərəfindən onların şəxsi marağı olan əqdlərin bağlanması zamanı qərarların qəbul edilməsində iştirak etməkdən çəkinməlidirlər. Biz hər bir əməkdaşın hədiyyələrin, xidmətlərin, hər hansı digər mənfəətlərin əldə edilməsi və ya ötürülməsinin maraqların toqquşmasına səbəb ola biləcəyi istənilən vəziyyətdən qaçmasını tövsiyyə və təşviq edirik.

Biz maraqların toqquşmasının baş verməsi riskinin effektiv idarə olunması üçün müəyyən vəzifəli əməkdaşların maraqların toqquşması haqqında bəyannaməni doldurmaqla maraqların toqquşması haqqında məlumatların açıqlaması təcrübəsini tətbiq etmişik.

# İnsan hüquqları

Biz hüquqların bərabərliyinə və milliyyəti, cinsi, mənşəyi, yaşı, dini və digər əlamətlərinə görə ayrıseçkiliyin olmamasına, habelə işçilərin öz seçimlərinə görə istənilən ictimai təşkilatlarla ünsiyyət qurması hüququna təminat veririk.

Şirkət Əmək Məcəlləsinə və ümumiyyətlə, hər hansı ayrıseçkiliyi, əmək hüquqları və azadlıqlarında məhdudiyyətləri istisna edən qanunvericiliyə tam uyğun işləyir. Məsuliyyətli işəgötürən kimi biz qanunvericiliyin bütün tələblərinə riayət edir və ən yaxşı dünya təcrübələrini tətbiq edirik.

Nobel Oil şirkətinin insan hüquqlarına riayət olunması sahəsində prinsipləri əsas korporativ sənədlər olan biznes etikası və davranış qaydaları, anti-korrupsiya siyasəti, əməyin mühafizəsi, təhlükəsizlik və ətraf mühitin qorunması sahəsində siyasətdə öz əksini tapıb.



Biz zəmanət veririk ki, əməkdaşlarımız öz hüquqlarını bilir və mütəmadi olaraq görüşlər və ünsiyyət vasitələri ilə onların bilik səviyyəsini artırırıq. Biz maraqlı tərəflərlə münasibətləri elə qururuq ki, insan hüquqlarının hər hansı bir mümkün pozuntusunun qarşısını alaq. Şirkətdə tətbiq olunan şikayət və müraciətlərin verilməsi və baxılması mexanizmi əməkdaşlarımıza, eləcə də xarici maraqlı tərəflərə insan hüquqlarının pozulması ilə bağlı hər hansı problem və ya şübhələr barədə məlumat verməyə imkan verir.

# Ayrı-seçkilik

Biz əməkdaşlarımıza şəxsi hüquqlarından tam və düzgün şəkildə istifadə etmələrinə imkan yaradır və onları ayrı-seçkiliyə yol verməyən, təhlükəsiz və sağlam bir iş mühiti ilə təmin edirik. Şirkət işçilərin fərdi inkişafını təmin etmək üçün lazımi tədbirlər görərək, onların sosial maariflənmə ilə müvafiq sosial və cəmiyyət layihələrində könüllü iştirakını dəstəkləyir.

Biz bütün işçilərimizə ədalətli, dürüst davranır və hörmətlə yanaşırıq. İşə qəbul, seçmə, inkişaf etdirmə və vəzifədə yüksəlişlə bağlı qərarları ədalətli şəkildə veririk və cinsiyyət, şəxsi əlaqələr, irq, etnik mənşə, əlillik, din, cinsi oriyentasiya və yaş kimi amillərlə görə ayrı-seçkilik etmirik.

Biz əməkdaşlarımıza, müştərilərimizə, podratçılarımıza, təchizatçılarımıza, qonaqlarımıza, dövlət rəsmilərinə və ya əlaqədə olduğumuz hər hansı maraqlı tərəfə qarşı olan istismar və ya zorakılığa göz yummuruq. Hesab edirik ki, hədə-qorxu, zorakılıq, irqçi ifadələr, ayrı-seçkilik, kobud danışıq, sözlü aqressiya, fiziki aqressiya, təhdidkar davranış, təhqir və ya cinsi zorakılıq göz



yumulmayacaq və intizam tənbehinə və ya işdən azad edilməyə səbəb olacaq ciddi nalayiq hərəkətlərdir.

Şirkət işçinin şəxsi həyatına hörmət edir və şəxsi məlumatlarının məxfiliyini qoruyur. Şəxsi məlumatlar yalnız müəssisəni idarə etmək və qanunvericiliyin tələblərinə riayət etmək məqsədilə əldə edilir. Toplandıqdan sonra şəxsi məlumatlar onların məxfiliyini qoruyacaq şəkildə və müvafiq qanunvericiliyə uyğun olaraq saxlanılır və işlənir.



# İnformasiya şəffaflığı



Biz düzgün qərarların qəbul edilməsi məqsədilə maraqlı tərəflər üçün informasiya şəffaflığının yüksək səviyyədə təmin olunmasına məsuliyyətlə yanaşırıq. Nobel Oil bu sahədə bütün qanuni tələblərə riayət etməklə ən yaxşı beynəlxalq təcrübələrə riayət etməyə çalışır.

Bizim Biznes etika və Davranış qaydalarımız informasiya şəffaflığının əsasını təmin edir və maraqlı tərəflər ilə həm şifahi həm də yazılı rabitə və ünsiyyətimizi şirkətin adından qanuni, doğru və peşəkar olmasını təmin edir. Şirkətin maraqlarını müdafiə etməklə, kommersiya sirlərinin və məxfi məlumatların qorunması ilə birlikdə informasiyanın əlçatanlığı və maliyyə şəffaflığı korporativ idarəetmə sisteminin əsas hissəsidir.

Nobel Oil ictimaiyyətlə əlaqələri genişləndirmək, ictimaiyyəti dəqiq və vaxtında məlumatlandırmaq məqsədilə kütləvi informasiya vasitələrinin imkanlarından mütəmadi olaraq yararlanır. Şirkətin kütləvi informasiya vasitələri üçün həm şifahi, həm də yazılı ictimai bəyanat və ya şərh kimi məsələləri yalnız

linkedin.com/company/nobel-oil-services-uk-ltd/

facebook.com/Nobel.Oil.Services/

twitter.com/NobelOil

səlahiyyətli heyət tərəfindən və şirkətin ictimaiyyətlə əlaqələr üzrə meneceri vasitəsilə həyata keçirilir. Bununla yanaşı, şirkət fəaliyyəti haqqında məlumatın cəmiyyətə obyektiv şəkildə çatdırılması və maraqlı tərəflərlə sağlam əlaqənin təmin edilməsi məqsədilə, rəsmi veb səhifəsi (http://www.nobeloil.com) və sosial media hesablarından (Twitter, Facebook, Linkedin) da istifadə edir. Şirkətin veb səhifəsində onun istehsalat, maliyyə və qeyri-maliyyə fəaliyyəti haqda mütəmadi olaraq press-relizlər, eləcə də davamlı inkişaf haqqında hesabatlar və maliyyə hesabatları yerləşdirilir.

ISO 37001 və ABMS:2016-ya uyğunluğu təmin etmək üçün, şirkət korrupsiya ilə mübarizə sistemi üzrə daxili və xarici əlaqələri müəyyən edir:

a) Nə haqqında ünsiyyət quracağı;
b) Nə zaman ünsiyyət quracağı;
c) Kiminlə əlaqə quracağı;
d) Necə ünsiyyət quracağı;
e) Kimin ünsiyyət quracağı;
f) Ünsiyyət qurulan dil;

Biznes Etikası və Davranış qaydaları, Rüşvətxorluğa qarşı Siyasət Nobel Oil qrupunun bütün işçi heyətinə və iş tərəfdaşlarına təqdim olunur. Başqa sözlə, bu qaydalar həm işçilər, həmdə rüşvətə qurşanma riskinin minimum səviyyəsindən yuxarı ola biləcək istənilən birbaşa əlaqə qurulacaq biznes tərəfdaşları üçün əlçatandır.



# Davamlı inkişafa yanaşma

**26**
Şirkətin Davamlı inkişaf üzrə məqsədləri

**13/17**
BMT-nın Davamlı inkişaf üzrə məqsədlərinə töfhəmiz

**22**
Həyata keçirilmiş tədbirlər



# Davamlı inkişaf sahəsində yanaşma

Nobel Oil şirkətinin davamlı inkişaf sahəsində məqsədi fəaliyyət göstərdiyi ölkələrin sosial-iqtisadi inkişafına müsbət töhfələr verərək, eləcə də sənaye və ekoloji təhlükəsizlik, korporativ idarəetmə və sosial məsuliyyət standartlarına riayət edərək beynəlxalq səviyyəli mühəndis-tikinti şirkəti olmaqdır.

Biz davamlı inkişaf prinsiplərini və dəyərlərini gündəlik fəaliyyətimizə tətbiq etməyə çalışırıq və strateji qərarların alınması zamanı əsas kimi götürürük. Nobel Oil şirkəti davamlı inkişafın uzunmüddətli sabitliyi, rəqabətədavamlılığı və maraqlı tərəflər üçün dəyər yaratmaq imkanlarını təmin etmək üçün əsas amil olduğunu anlayır.

Bizim davamlılığımız və ya uzunmüddətli gələcəyimiz, işimizdəki qərar qəbuletmə proseslərində iqtisadi, sosial və ekoloji aspektləri balanslaşdırma bacarığımızdan asılıdır. İnsan kapitalına sərmayələr, layiqli və təhlükəsiz əmək şəraitinin təmin edilməsi, mövcud olduğumuz regionlarda sosial mühitin və həyat keyfiyyətinin yaxşılaşdırılması, habelə ətraf mühitə mənfi təsirin minimuma endirilməsi bizim üçün uğurlu əməliyyat və maliyyə nəticələri qədər vacibdir.

Fəaliyyətimizin iqtisadi, ekoloji və sosial aspektlərinin idarə edilməsinə yanaşmamız davamlı inkişaf sahəsində dünyanın ən yaxşı təcrübələrinə əsaslanır. Göstərdiyimiz fəaliyyətin bütün mərhələlərində biz maraqlı tərəflərin ehtiyaclarını və gözləntilərini nəzərə almağa, cəmiyyətə, əməkdaşlarımıza və ətraf mühitə qayğı göstərməyə çalışırıq. Biz bu yanaşmanın böyük şirkət olmağın açarı olduğunu hesab edirik, və belə yanaşma bizə riskləri və imkanları müəyyən etməyə və lazımi şəkildə idarə etməyə kömək edir.

Nobel Oil Qrupunun müxtəlif səviyyəli rəhbərləri davamlı inkişaf sahəsində fəaliyyətin idarə olunmasına cavabdehdirlər. Direktorlar şurasının səlahiyyətlərinə davamlı inkişaf sahəsində fəaliyyətlə bağlı məsələlərin strateji idarə edilməsi, eləcə də yüksək səviyyəli sənədlərin nəzərdən keçirilməsi və təsdiqi daxildir. Davamlı inkişaf məsələlərinin operativ idarə edilməsi Nobel Oil şirkətinin müxtəlif şöbələri tərəfindən həyata keçirilir. Qrupun törəmə şirkətlərində bu məsələləri həmin şirkətlərin rəhbərləri idarə edirlər. Qrupun şirkətləri davamlı inkişaf sahəsində onların fəaliyyətinin sənaye xüsusiyyətlərini nəzərə alan öz sənədlərini işləyib hazırlaya bilərlər.

Ümumiyyətlə, Nobel Oil şirkətində hər bir işçi gündəlik işlərin davamlılığının təmin edilməsinə görə öz məsuliyyətini dərk edir. Bizim uğurlu fəaliyyətimiz birbaşa olaraq bütün əməkdaşlarımızın işdə tətbiq etdikləri yanaşma və prinsiplərdən asılıdır.

Hesabat və hesabat verma prosesi haqqında
Nobel Oil Qrup haqqında
Korporativ idarəetmə
Etika və qanunlara riayət
Davamlı inkişafa yanaşma
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə
Əmək münasibətləri təcrübəsi
Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühit
Keyfiyyətin idarə edilməsi
Satınalma Təcrübəsi
Cəmiyyətə dəstək
GRI standartlarına uyğunluq cədvəli

# Baxış, Missiya və Dəyərlər




## Baxış

Baxışımız, işçilərimizin həvəsli və fəal iştirakilə ən yaxşı xidmətləri uğurla təqdim etməklə fəaliyyətimizin bütün istiqamətlərində müştərilərimizin əsas seçimi və ən etibarlı tərəfdaş olmaqdır.

## Missiya

Bizim missiyamız təhlükəsiz, səmərəli və ekoloji cəhətdən məsuliyyətli bir şəkildə keyfiyyətli proseslərdən istifadə edərək yüksək keyfiyyətli xidmət və həll yolları təqdim etməkdir.

## Dəyərlər

### TƏHLÜKƏSİZLİK

Biz sosial və ekoloji təhlükəsizliyin ən yüksək standartlarına uyğun şəkildə fəaliyyət göstəririk. Biz yaxşı korporativ vətəndaş olmağa çalışırıq. Bizim əsas prioritetimiz - əməyin, sağlamlığın mühafizəsi, işçilərin təhlükəsizliyi, aktivlərin və ətraf mühitin qorunmasıdır.

### KEYFİYYƏT

Biz şirkətin keyfiyyət göstəricisinə və keyfiyyətə nəzarət xidmətinə zəmanət veririk. Biz bütün müvafiq keyfiyyət standartlarına və normalara riayət edirik.

### VAHİD KOMANDA

Beynəlxalq bir şirkət kimi biz, fəaliyyət göstərdiyimiz ölkələrdə yerli mədəniyyətlərin unikallığını qiymətləndiririk və hörmət edirik. Harada işlədiyimizdən asılı olmayaraq, biz hərtərəfli iş mühiti təklif edirik və insanların, ideyaların, istedadların və təcrübənin müxtəlifliyini qəbul edirik. Biz sağlam bir ətraf mühit yaratmaq və vahid komanda kimi işləməyə çalışırıq.

### VİCDANLILIQ

Biz başqalarına və özümüzə qarşı dürüstük. Biz bütün işgüzar münasibətlərdə ən yüksək etik standartlara cavab veririk. Biz nəyi vəd ediriksə onu da edirik. Biz etdiyimiz bütün hərəkətlərə görə məsuliyyət daşıyırıq.

### MÜKƏMMƏLLİK

Biz məhsuldarlığın və əməliyyat səmərəliliyinin yüksək səviyyədə olmasına çalışaraq, gördüyümüz hər bir işdə mükəmməlliyə can atırıq.



# Davamlı inkişaf sahəsində məqsədlər



## Sənaye və ekoloji təhlükəsizlik

- Sənaye və ekoloji təhlükəsizlik məsələləri daxil edilmiş idarəetmə sisteminin daim təkmilləşdirilməsi;
- Əmək şəraitinin və əməyin mühafizəsinin yaxşılaşdırılması, istehsalat zədələrinin sayının azaldılması məqsədilə əməyin texniki təhlükəsizliyi mədəniyyətinin inkişaf etdirilməsi;
- Layihələrin həyata keçirilməsində uyğun ehtiyat prinsipinin tətbiqi;
- Ətraf mühitə təsirin minimuma endirilməsi;
- Təbii ehtiyatlardan səmərəli istifadə;
- İnnovativ texnologiyalardan istifadə;
- Ekoloji təmiz texnologiyaların tətbiqi.

## Maraqlı tərəflərlə qarşılıqlı əlaqə

- Maraqlı tərəflərlə effektiv və şəffaf qarşılıqlı əlaqə sisteminin yaradılması;
- Maraqlı tərəflərin bütün qruplarının hüquq və maraqlarına hörmət;
- Maraqlı tərəflərlə dialoqun inkişaf etdirilməsi, tərəfdaşlıq münasibətləri;
- İnformasiyanın əlçatan və şəffaf olması;
- Maraqlı tərəflərin rəy və sorğularının hesabatının aparılması.

## Fəaliyyət göstərdiyi bölgələrin inkişafı

- Cəmiyyətin və fəaliyyət göstərdiyi bölgələrin inkişafına yardım;
- Yerli təchizatçılara dəstək;
- Təhsil və mədəniyyət proqramlarının həyata keçirilməsi.

## İşçilər qarşısında məsuliyyət

- Layiqli iş şəraitinin təmin edilməsi;
- Bərabərliyin təmin olunması və insan hüquqlarının pozulmasına yol verilməməsi;
- Əmək haqqının rəqabət səviyyəsinin saxlanması;
- İşçilərin şəxsi və peşəkar inkişafına dəstək;
- Əməkdaşlara sosial dəstək;
- Təhlükəsiz iş şəraitinin təmin edilməsi və əməyin mühafizəsi.

## Biznesin aparılmasının etikliyi

- Korrupsiyaya qarşı mübarizə;
- Yaxşı işgüzar nüfuzun təmin edilməsi;
- Korporativ idarəetmənin səmərəliliyi və şəffaflığı;
- Əmək və insan hüquqlarına riayət edilməsi
- Korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi.

## İqtisadi dəyərlərinin yaradılması və inkişafı

- İnvestisiyaları cəlbetmə imkanlarının yaradılması;
- Maliyyə davamlılığının təmin edilməsi;
- Rəqabətə davamlılığın təmin edilməsi.

# BMT-nin Davamlı İnkişaf Məqsədlərinin inteqrasiyası

2015-ci ildə Birləşmiş Millətlər Təşkilatı 17 Dayanıqlı İnkişaf Məqsədi (DİM) və hər məqsəd üzrə xüsusi hədəfləri müəyyən etmişdir. Bu məqsədlər yoxsulluğun qarşısının alınması, təhsil və səhiyyə xidmətlərinin gücləndirilməsi, iqlim dəyişikliyi ilə mübarizənin artırılması, dünyanın daha dayanıqlı və ədalətli olması və digər məsələləri hədəfə alaraq dünyanı narahat edən çətinliklərin aradan qaldırılmasına yönəlmişdir.

Nobel Oil şirkəti inanır ki, bu hədəflərə çatmaq üçün məsuliyyət tək dövlətlərin deyil, həmçinin özəl sektorun və sivil cəmiyyətin də üzərinə düşür. Bu səbəbən, biz fəaliyyət və təşəbbüslərimizi daim DİM ilə uyğunlaşdırmağa, bu yolda öz töhfəmizi verməyə çalışırıq.

Biz əvvəlki illərdə olduğu kimi indi də şirkətimizin etibarlı və davamlı texnoloji təklifləri təqdim etməsi yolu ilə DİM-nə birbaşa təsir göstərmək və bu məqsədlərə çatmağı sürətləndirmək bacarığı olduğunu dərk edirik.

2019-cu ildə daha çox əməliyyat fəaliyyətimizə uyğun olan DİM və əhəmiyyətli töhfəmizdən daha artıq faydalana biləcək sahələri müəyyən etmək məqsədilə yenidən ətraflı təhlil apardıq. DİM-nin hər biri bizim üçün eyni əhəmiyyət kəsb etsə də, həyata keçirdiyimiz əməliyyatların və təşəbbüslərimizin mahiyyətindən asılı olaraq biz əsasən 13 DİM üzrə töhfə veririk.




| BMT-nin DİM-ləri | Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün Nobel Oil-in yanaşması | 2019-cu ildə həyata keçirilən tədbirlər |
|---|---|---|
| 1 Yoxsulluğun aradan qaldırılması | Şirkət fəaliyyət göstərdiyi bölgələrdə yeni iş yerləri yaradaraq işçiləri layiqli əmək haqqı ilə təmin edir. Həmçinin, sosial proqramlar həyata keçirərək həssas təbəqənin rifahının artırılmasında vacib rol oynayır. | • Şirkətin əməkdaşlarına təklif etdiyi əmək haqqı fəaliyyət göstərdiyi ölkənin minimum əmək haqqından 200 %-dən çox olmuşdur.<br>• Şirkət sosial layihələr həyata keçirərək həssas qrup nümayəndələrini və az təminatlı insanları iş yeri ilə təmin etmişdir. |
| 3 Sağlam yaşayış və yaxşı rifah | Şirkət işçilərin həyatı və sağlamlığının qorunmasını qeyd-şərtsiz prioritet hesab edərək təhlükəsiz iş şəraitinin yaradılmasını təmin edir və qəzasız istehsalata nail olmağa çalışır. | • Şirkət sağlamlıq və əməyin texniki təhlükəsizliyi üzrə prosedur və təşəbbüsləri nəzərdən keçirərək təkmilləşdirmişdir.<br>• İşçilərin sağlamlığını və iş yerində təhlükəsizliyi qiymətləndirmək üçün müntəzəm olaraq görüşlər, iş yerlərinin attestasiyası və monitorinqlər keçirilmişdir.<br>• Əməkdaşlarımız və podratçı təşkilatların işçilərinin bilik və bacarıqlarının artırılması məqsədilə təlim proqramları təşkil edilmişdir.<br>• Əməkdaşlarımız və podratçı təşkilatların işçiləri tibbi sığorta, həyat sığortası və pulsuz dövri tibbi müayinə ilə təmin edilmişdir. |
| 4 Keyfiyyətli təhsil | Şirkət əməkdaşların bilik və bacarıqlarının artırılmasına dair kompleks proqramlar həyata keçirir. Həmçinin fəaliyyət göstərdiyi regionlarda cəmiyyətin inkişafını dəstəkləyən sosial proqramlarda iştirak edir. | • Əməkdaşlarımız üçün ilboyu müxtəlif mövzularda təlim, təhsil və inkişaf proqramları həyata keçirilmişdir.<br>• Şirkət həssas qrup nümayəndələrinin və gənc mütəxəssislərin inkişafını dəstəkləmək məqsədilə bir neçə sosial layihələrdə iştirak etmişdir. |
| 5 Gender bərabərliyi | Bizim işgüzar etikamız bərabər imkanların təmin edilməsini və ayrı-seçkiliyə yol verilməməsi prinsiplərinə sadiqliyimizi nəzərdə tutur. | • Şirkət gender bərabərliyinə böyük əhəmiyyət verərək, qadın və kişilərə bərabər ödəniş, mükafatlandırma və karyera inkişafı təmin etmişdir. |
| 7 Əlçatan və təmiz enerji mənbələri | Şirkət enerjidən məntiqli və ehtiyatla istifadə üzrə ümumdünya tendensiyasını dəstəkləyərək şirkət daxilində və müştərilər üçün enerji səmərəliliyinin artırılması üzrə tədbirlərin həyata keçirilməsini özünə prioritet olaraq qəbul edir. | • Şirkət əməliyyat effektivliyinin, həmçinin obyektlərin layihələndirilməsi və tikintisinin dayanıqlığının yüksəldilməsi istiqamətində fəaliyyət göstərmişir. |
| 8 Layiqli iş və iqtisadi artım | Şirkət yeni iş yerlərinin yaratmaqla, nümunəvi vergi ödəyicisi olmaqla və yerli təchizatçıların işə cəlb olunmasına üstünlük verməklə fəaliyyət göstərdiyi ərazilərin sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfələr verir. | • Şirkət əməkdaşlarının məmnunluq və məhsuldarlıq göstəricilərinin artırılması ilə bağlı əhəmiyyətli layihələr həyata keçirib.<br>• Şirkət əməkdaşların layiqli əmək haqqı, sağlam və təhlükəsiz iş şəraiti ilə təmin edilməsi ilə bağlı mühüm işlər görüb.<br>• Yerli təchizatçıların payı 90%-dən çox olub. |
| 9 Sənayeləşmə, innovasiya və infrastruktur | Şirkət etibarlı və dayanıqlı texnoloji təkliflərin təqdim edilməsi yolu ilə sənaye sektorlarının texnoloji imkanlarının təkmilləşdirilməsi və səmərəliliyinin artırılmasına təkan verir. | • Şirkət həyata keçirdiyi layihələrdə keyfiyyətli və ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqinə üstünlük verib. |
| 10 Bərabərsizliyin aradan qaldırılması | Şirkətin biznes etikası və davranış qaydaları işçilərə bərabər imkanların təmin edilməsinə, insan hüquqlarına riayət edilməsinə və ayrı-seçkiliyə yol verilməməsinə zəmanət verir. | • Şirkətdə gənclərin və həssas qrup nümayəndələrinin işə cəlb olunması, onların inkişaf etdirilməsi üzrə təşəbbüslər həyata keçirilib. |
| 11 Dayanıqlı şəhərlər və yaşayış yerləri | Şirkət təbii ehtiyatlardan və enerjidən səmərəli istifadə edilməsinə, eləcə də tullantıların həcminin azaldılmasına xüsusi diqqət yetirir. | • Şirkət əməkdaşları layihələrin həyata keçirilməsi zamanı müntəzəm olaraq sudan və enerjidən effektiv və səmərəli istifadə etməyə təşviq edir.<br>• Şirkət tullantıların effektiv idarə edilməsi istiqamətində yeni prosedurlar tətbiq edərək, təhlükəli tullantıların azaldılmasına nail olub. |
| 13 İqlim dəyişikliyinə qarşı mübarizə | Şirkət daim istifadə etdiyi texnologiyaları təkmilləşdirməklə və ən yaxşı təcrübələri tətbiq etməklə özünün və müştərilərinin fəaliyyətinin səmərəliliyinin artırılmasına və ətraf mühitə mənfi təsirinin minimuma endirilməsinə çalışır. | • Şirkət istehsalat sahələrində İstilik Effekti Yaradan Qazların azaldılması ilə bağlı təşəbbüslər həyata keçirərək ətraf mühitə təsirin azaldılmasına nail olub. |
| 16 Ədalətli, sülhsevər və açıq cəmiyyətlər | Şirkət qanunvericiliyin tələblərinə ciddi riayət olunmasına, korrupsiya və dələduzluğa qarşı mübarizə aparılmasına və maraqların toqquşmasının qarşısının alınmasına xüsusi diqqət ayırır. | • Şirkət mütəmadi olaraq işçilər üçün biznes etikası və davranış qaydaları üzrə təlimlər təşkil edib.<br>• Şirkət antikorrupsiya sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə prosedurlar hazırlayaraq tətbiq edib.<br>• Təchizatçı şirkətlərin korrupsiya meyarına görə yoxlanılması həyata keçirilib. |
| 17 Davamlı inkişaf üçün qlobal əməkdaşlıq | Şirkət daim maraqlı tərəflərlə əməkdaşlığı inkişaf etdirir, fəaliyyət göstərdiyi regionların dayanıqlı inkişafı naminə tərəfdaşlarla açıq dialoqa can atır. | • Şirkət dayanıqlı inkişaf üzrə məqsəd və hədəflərinə nail olmaq üçün müvafiq sahələrdə aparıcı və təcrübəli təşkilatlarla əməkdaşlıq edib. |



# Maraqlı tərəflərlə qarşılıqlı əlaqə

**9**
Maraqlı tərəf qrupu

**38**
Müzakirə olunmuş mövzular

**16**
Hesabata ümumiləşdirərək daxil edilmiş mövzular

# Maraqlı tərəflərlə qarşılıqlı əlaqə prinsipləri

Fəaliyyətimizə və səmərəliliyimizə yüksək dərəcədə təsir göstərən tərəflər, fəaliyyətlərindən əhəmiyyətli dərəcədə asılı olduğumuz tərəflər, öhdəliklərimiz olduğumuz tərəflər, həmçinin strateji perspektivlərimizi nəzərə alınmaqla əməkdaşlığın vacib olduğu tərəflər bizim üçün maraqlı tərəflər hesab edilir.

Nobel Oil şirkəti dayanıqlı inkişaf məqsədlərinə çatmağın mümkünlüyünü maraqlı tərəflərlə qarşılıqlı əlaqə sisteminin effektiv qurulmasında görür. Bu səbəbdən, biz mümkün kanallar və kommunikasiya metodlarından istifadə etməklə maraqlı tərəflərlə daha səmərəli dialoqun qurulmasına çalışırıq. Məsuliyyətli şirkət kimi, biz maraqlı tərəflərin sorğularına operativ reaksiya verilməsinə, məhsuldar dialoqa açıq olmağımıza və maraqlı tərəflərin maraqlarının nəzərə alınmasına zəmanət veririk.

Biz maraqlı tərəflərlə müxtəlif formatlarda əməkdaşlıq edirik və bu zaman bütün tərəflərin maraqlarına hörmət edirik. Şirkət əlaqələrin müntəzəmliyi, eləcə də fəaliyyətinin əsas aspektləri barədə vaxtında məlumatlandırma prinsiplərinə daim riayət edir.

**Maraqlı tərəflərlə qarşılıqlı əlaqənin əsas prinsipləri aşağıdakılardır:**

- uzunmüddətli davamlı, səmərəli inkişafa nail olmaq
- fəaliyyətdə şəffaflıq və informasiya açıqlığı
- bütün maraqlı tərəflərin hüquq və maraqlarına hörmət, ayrıseçkiliyə yol verilməməsi
- dialoqa hazırlıq

# Maraqlı tərəflər qrupu






# Qarşılıqlı əlaqə formaları və müzakirə olunan mövzular

| Maraqlı tərəf qrupları | Qarşılıqlı əlaqə formaları | Əsas mövzular |
|---|---|---|
| Səhmdarlar | Səhmdarların ümumi yığıncaqlarının keçirilməsi;<br>Şirkətin menecerlərinin səhmdarlarla müntəzəm görüşləri;<br>Səhmdarların müraciətləri (telefon və poçt vasitəsilə);<br>İllik hesabatların nəşri. | Strategiyanın həyata keçirilməsi;<br>Maliyyə davamlılığı;<br>Korporativ idarəetmə;<br>Xidmətlərin keyfiyyəti;<br>Səmərəliliyinin artırılması;<br>Normativ tələblərə riayət edilməsi. |
| Sərmayəçilər | Şirkətin menecerlərinin sərmayəçilərlə müntəzəm görüşləri;<br>İllik hesabatların nəşri;<br>Konfranslarda, zirvə görüşlərində iştirak;<br>Sərmayəçilər üçün konfrans zəngləri; | Şirkətin inkişaf strategiyası;<br>Şirkətin fəaliyyətinin əməliyyat və maliyyə nəticələri;<br>Şirkətin inkişaf perspektivləri;<br>Dayanıqlı inkişaf məsələləri. |
| İşçi heyəti | Şirkətin rəhbərliyinin kollektiv və şəxsi görüşləri;<br>Şirkətdaxili əlaqələr sistemi;<br>Məmnuniyyət araşdırmaları;<br>Qiymətləndirmə, təlim və ixtisasartırmanın təşkili;<br>İllik hesabatların nəşri. | Əməkdaşların mükafatlandırılması və sosial dəstəyi;<br>Təhlükəsiz iş şəraiti;<br>Əməkdaşların təlimi və inkişafı;<br>Əməyin ödənilməsi sisteminin təkmilləşdirilməsi. |
| Dövlət | Tənzimləyici orqanlarla əlaqələr;<br>İşçi qruplarda, dəyirmi masalarda konfranslarda, forumlarda iştirak;<br>İllik hesabatların nəşri;<br>Press-relizlərin, əhəmiyyətli faktlar barədə məlumatların dərc edilməsi. | Şirkətin fəaliyyətinin qanunvericilik normalarına uyğunluğu;<br>Yerli iqtisadiyyata təsir;<br>Sağlamlıq, təhlükəsizlik, əmək və ətraf mühitin mühafizəsi;<br>Hesabatların şəffaflığı. |
| Müştərilər | Şirkətdaxili əlaqələr sistemi;<br>Mütəmadi görüşlər;<br>Təkliflərin alınması;<br>Müqavilələr, sazişlər;<br>İllik hesabatların nəşri. | Xidmətlərin keyfiyyəti;<br>Şəffaf qiymətqoyma;<br>Etik biznes təcrübəsi;<br>Layihənin vaxtında və iqtisadi cəhətdən səmərəli başa çatdırılması;<br>Normativ tələblərə uyğunluq;<br>Sağlamlıq, təhlükəsizlik, əmək və ətraf mühitin mühafizəsi. |
| Cəmiyyət | Şirkətdaxili kommunikasiyalar sistemi;<br>Xeyriyyə və sponsorluq layihələri;<br>Qəbul günləri;<br>Press-relizlərin, əhəmiyyətli faktlar barədə məlumatların dərc edilməsi;<br>İllik hesabatların nəşri. | Xeyriyyəçilik fəaliyyəti;<br>Məşğulluq;<br>Şirkətin təhsil mərkəzləri ilə qarşılıqlı əlaqəsi. |
| İşgüzar tərəfdaşlar | Şirkətdaxili kommunikasiyalar sistemi;<br>İşçi qruplarında, dəyirmi masalarda iştirak;<br>Konfranslarda, zirvə görüşlərində iştirak;<br>Müqavilələr, sazişlər. | Davamlı inkişaf məsələləri;<br>Birgə layihələrin həyata keçirilməsi;<br>Əməkdaşlıq perspektivləri;<br>Hesabatların şəffaflığı. |
| Təchizatçılar və podratçılar | Təchizatçının seçilməsi prosedurları;<br>Şirkətdaxili kommunikasiyalar sistemi;<br>Müqavilələr, sazişlər;<br>İşgüzar görüşlər;<br>Konfranslarda, sərgilərdə iştirak. | Qarşılıqlı öhdəliklərə əməl edilməsi;<br>İşgüzar etikaya riayət olunması, Korrupsiyaya qarşı mübarizə;<br>Yerli istehsalçıların dəstəklənməsi;<br>Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi. |
| Kütləvi informasiya vasitələri | Mətbuat konfransları;<br>Press-relizlər;<br>Xüsusi tədbirlər;<br>Yazılı və şifahi əlaqə. | İnformasiya şəffaflığı; |

Hesabat və hesabat vermə prosesi haqqında
Nobel Oil Qrup haqqında
Korporativ idarəetmə
Etika və qanunlara riayət
Davamlı inkişafa yanaşma
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə
Əmək münasibətləri təcrübəsi
Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühit
Keyfiyyətin idarə edilməsi
Satınalma Təcrübəsi
Cəmiyyətə dəstək
GRI standartlarına uyğunluq cədvəli




# Əmək münasibətləri təcrübəsi

**641**
Nobel Oil Services, Glensol və Prokon şirkətlərində işçilərin ümumi sayı

**18 %**
2019-cu ildə işə qəbul edilən qadınların ümumi faizi

**94%**
Yerli əhali

**~84%**
Əməkdaşların şirkətə bağlılıq göstəricisi

# İnsan resurslarına yanaşma və onun idarə edilməsi



İşçi heyəti bizim üçün ən vacib dəyər və şirkətimizin uzunmüddətli perspektivdə uğurlu və davamlı inkişafının əsas amili olaraq qalır. İnsan resurslarına yanaşmamız bizi məsuliyyətli işəgötürən olmağa təşviq edən sosial tərəfdaşlıq prinsipinə əsaslanır. Bu prinsip yalnız qanunvericiliyin tələbləri ilə deyil, həm də şirkətin özünün bir sıra könüllü öhdəliklərindən ibarətdir.

Biz anlayırıq ki, ən yaxşı işçiləri cəlb etmək və saxlamaqla bütün iş seqmentlərimizdə müştərilərə ən yüksək səviyyədə xidmət göstərə bilərik. Məhz bu səbəbdən, Nobel Oil-in həyata keçirdiyi kadr siyasəti şirkətə savadlı kadrların cəlb olunmasına, mövcud kadr potensialının saxlanılmasına, onların davamlı inkişafına, karyera yüksəlişi və sosial rifahının təmin edilməsinə, eyni zamanda personalın idarə edilməsi sisteminin təkmilləşdirilməsinə yönəlmişdir. İnsan resurslarının idarə edilməsi Nobel Oil və onun törəmə şirkətlərinin insan resursları şöbələrinin səlahiyyətindədir və illik tədbirlər planları ilə tənzimlənir. Bizim fəaliyyətimiz Azərbaycan Respublikasının Konstitusiyasına, Əmək Məcəlləsinə və digər müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirilir.






Nobel Oil şirkətin işçi heyətinin seçilməsi və saxlanılması siyasətinə riayət edərək, əməkdaşlarının dəyərlərini, məqsədlərini və ambisiyalarını əks etdirən bir mədəniyyət formalaşdırıb. Bizim işçi heyətin seçilməsi üzrə komandamız şirkətin dəyərlərinə sadiq olan, onun məqsədlərinə çatmasına dəstək olan və orada işləməsi ilə fəxr edən ixtisaslı, məsuliyyətli və motivasiyalı əməkdaşlardan ibarət komanda formalaşdırmağa çalışır. Məhz bu keyfiyyətlərə sahib işçilərimizin sayəsində biz hazırki səviyyəyə çatmışıq.

İşçi heyətin cəlb edilməsi üzrə əsas fəaliyyətlərə ali təhsil müəssisələri ilə qarşılıqlı fəaliyyət proqramları, yerli və xarici bazarlarda peşəkarların cəlb edilməsi daxildir. Nobel Oil və onun törəmə şirkətləri Prokon və Glensol daxil olmaqla, 2020-ci il yanvar ayının 1-nə işçilərin ümumi sayı 641 nəfər olub. 2019-cu il ərzində bu şirkətlərdə 452 nəfər işə qəbul edilmişdir ki, onlardan 369 nəfər müvəqqəti işçilər (mövsümi, tikinti, sahə işləri ilə əlaqədar), 3 nəfər təcrübə proqramının məzunları, 80 nəfər isə daimi işə qəbul edilənlərdir.

## Əmək müqaviləsinə görə işçilərin cəmi sayı

| Şirkətin adı | İşçilərin cəmi sayı | 2017 | | 2018 | | 2019 | |
|---|---|---|---|---|---|---|---|
| | | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| Nobel Oil | Daimi işçilər | 27 | 15 | 28 | 12 | 37 | 12 |
| | Müvəqqəti işçilər | 0 | 0 | 4 | 0 | 1 | 4 |
| Prokon | Daimi işçilər | 857 | 43 | 13 | 2 | 15 | 4 |
| | Müvəqqəti işçilər | 0 | 0 | 324 | 24 | 428 | 42 |
| Glensol | Daimi işçilər | 23 | 9 | 60 | 13 | 84 | 14 |
| | Müvəqqəti işçilər | 27 | 3 | 0 | 0 | 0 | 0 |

## Kadr hərəkətliliyi[1]

| Şirkətin adı | İşçilərin cəmi sayı | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|
| Nobel Oil | İşə götürülən | 20 | 22 | 27 |
| | İşdən azad olunan | 36 | 21 | 18 |
| | Kadr axını | 72% | 52.50% | 40.45% |
| Prokon | İşə götürülən | 1246 | 330 | 456 |
| | İşdən azad olunan | 369 | 833 | 113 |
| | Kadr axını | 79.96% | 21% | 26% |
| Glensol | İşə götürülən | 16 | 44 | 46 |
| | İşdən azad olunan | 9 | 11 | 22 |
| | Kadr axını | 29.51% | 21.15% | 26.04% |

[1] Kadr axınının yüksək olmasının səbəbi şirkətlərin layihələrində çalışan müvəqqəti işçilərlə bağlıdır.

Biz 2019-cu ildə şirkətimizin insan resursları siyasətini dəstəkləyən "Dəyərlərlə necə yaşamalı" layihəsini həyata keçirdik. Layihənin məqsədi qərarların qəbul edilməsi prosesində şirkətin əməkdaşlarını dəstəkləmək, müştəriləri və potensial tərəfdaşları şirkətin xüsusiyyəti və dəyərləri haqda məlumatlandırmaq, həmçinin ünsiyyəti, motivasiyanı və əməkdaşların cəlb olunmasını yaxşılaşdırmaqdır.

Bununla yanaşı, həyata keçirdiyimiz layihə çərçivəsində, əməkdaşlarımıza aşılanan şirkətin dəyərləri, xüsusilə də çətin vaxtlarda onlara istiqamət verərək dəstək olur. Biz inanırıq ki, bu münasibət qlobal iqtisadiyyatda sürətlə dəyişən texnoloji, ekoloji və sosial tələblər qarşısında xüsusi əhəmiyyətə malikdir.

**Hesabat ilində layihə ilə əlaqədar 150 əməkdaşın iştirak etdiyi 8 təlim keçirilmişdir**

2019-cu ildə işçi heyətinin idarə olunmasının effektivliyinin artırılması məqsədilə atılan mühüm addımlardan biri də "Səriştəliliyin inkişafı proqramı"nın həyata keçirilməsidir. Proqramın məqsədi, əməkdaşlarımıza onların fəaliyyətinin səmərəli olması üçün nə etməli olduqlarını, həmçinin şirkətin məqsədləri və uğuru ilə necə bütöv olmalarını aydın şəkildə müəyyən etməkdir. Biz, şirkətdəki hər bir istiqamət üzrə səlahiyyətləri müəyyənləşdirməklə, əməkdaşlarımızın qarşısına qoyulan məqsədlərə çata bilmələri üçün tələb olunan və şirkətin dəyər verdiyi davranış növlərini göstərmiş olduq. Bu, əməkdaşların şirkətin dəyərləri və yüksək iş icrası ilə ifadə edilən həmin davranışları anlamalarını təmin edir.

Bizim səriştəlilik sistemimiz əməkdaşlarımıza yüksək nəticələr əldə etmək üçün onlardan gözlənilən fəaliyyət səviyyələri və nümayiş etdirəcəkləri davranış qaydaları haqqında aydın təsəvvürləri olmasına imkan verir.

Biz inanırıq ki, səriştəlilik sistemindən istifadə olunması, əməkdaşlarımızın bilik və bacarıqlarının təşkilatın prioritetləri ilə uğurla əlaqələndirilməsinə imkan verərək işgüzar təcrübələrin yaxşılaşdırılmasına və işin səmərəliliyinin artmasına səbəb olacaqdır.

### Səriştəlilik xüsusilə aşağıdakıları təmin edəcək:

1. *Dəqiq gözləntilərin müəyyən edilməsi və əməkdaşların təşkilatın missiyası, mədəniyyəti və məqsədlərinə uyğun olaraq davranışı necə qəbul edə və gücləndirə biləcəklərinə dair göstərişlər əldə etmələri;*
2. *İş mühitində nəyin lazım olduğunu və gözlənildiyini təsvir etmək üçün ümumi bir dilin yaradılması və bununla da işin etibarlı və keyfiyyətli yerinə yetirilməsi;*
3. *İnsan resurslarının planlaşdırılmasında, işə alınmasında, təlim və inkişafında, həmçinin məhsuldarlığının idarə edilməsində uzlaşmanı yaxşılaşdırılması və bununla da insan resurslarının rasionallaşdırılmasına və nəticədə səmərəliliyin artırılmasına kömək edərək, insan resurslarının idarə edilməsinin müxtəlif aspektlərinin inteqrasiyası;*
4. *Peşəkar bacarıqlarda boşluqlarının aradan qaldırılması, güclü tərəflərin daha da inkişaf etdirilməsi və karyera inkişafına dair tələblərin dəqiqləşdirilməsi;*
5. *İşçi heyətin hərəkətliliyi, təşkilati dəyişikliklərin və təşkilati mədəniyyətin formalaşması.*



# Yüksək ixtisaslı işçi qüvvəsinin təmin edilməsi

Əməkdaşlarımızın təliminə və inkişafına qoyduğumuz sərmayələr işçi heyəti ilə münasibətdə vacib istiqamət olaraq qalır. Biz hesab edirik ki, əməkdaşların keyfiyyətli təlim keçməsi və peşəkar inkişafı biznesimizin uğuru üçün əsasdır. Bu səbəbdən şirkət keyfiyyətli kadr ehtiyatının formalaşdırılmasını, kollektivin loyallığının artırılmasını və əməkdaşlarımızın bilik və bacarıqlarının artırılmasını daim diqqət mərkəzində saxlayır. Bu da öz növbəsində əməkdaşların qeyri-peşəkar addımları ilə bağlı risklərin minimuma endirilməsində əsas amil olaraq qalır.

İşçi heyətinin təlimi Nobel Oil şirkətinin, həmçinin onun Prokon və Qlensol törəmə şirkətlərinin illik təlim və inkişaf planları əsasında həyata keçirilir. Sahənin xüsusiyyətindən asılı olaraq, hər bir struktur şirkət işçilərin ixtisasının artırılması üçün öz fəaliyyət planını tərtib edir. İnkişaf proqramları işçi heyətinin müxtəlif qruplarının təlimində müəyyən edilmiş ehtiyaclar vaciblik prinsipi əsasında qurulur. Bu sahədə bizim əsas strateji tərəfdaşlarımız aparıcı təhsil təchizatçıları kimi özünü sübut etmiş təlim mərkəzləridir. Şirkətimiz həmçinin seminarlar, təlim proqramları, təcrübə proqramları və universitetlərdə distant təhsil proqramları kimi əhatəli və müasir tədris vəsaitlərindən istifadə edir.

Kadrlarla iş üzrə illik planımıza, əməkdaşların zəruri bacarıqlarının və səlahiyyətlərinin öyrədilməsi və inkişafı, həmçinin gənc mütəxəssislərin cəlb edilməsi və inkişafına yönəldilmiş müxtəlif proqramlar daxildir. Əməkdaşlarımız üçün nəzərdə tutulan təlim və inkişaf proqramları şirkətimizin rəqabət qabiliyyətinin zəruri səviyyəsini təmin edərək fəaliyyətimizin yeni istiqamətləri ilə bağlı problemləri uğurla həll etməyə kömək edir.

2019-cu ildə Nobel Oil və onun törəmə şirkətlərində müəyyən edilmiş təlim dövriliyi, cari və perspektiv planına uyğun olaraq işçi heyətinin bütün kateqoriyalarına uyğun müxtəlif təlim proqramları təşkil edilib. Təlimlər əsasən ixtisasartırma, peşəkar yenidən hazırlanma və qısamüddətli seminarlar formatında keçirilib.

**2019-cu il ərzində hər işçiyə düşən orta təlim saatı** (cinsə və işçilərin kateqoriyaları görə)

| İşçi kateqoriyası | Nobel Oil | Prokon | Glensol |
|---|---|---|---|
| Rəhbər işçilər | 452 | 310 | 6 |
| Mütəxəssislər | 696 | 658 | 39.2 |
| Texniki icraçılar | 8 | 0 | 57.4 |
| Fəhlələr | 0 | 0 | 0 |
| Kişi | 690 | 732 | 38.4 |
| Qadın | 466 | 236 | 13.5 |

Biz həmçinin gələcəkdə potensial işçilərimiz olan gənclərin inkişaf etdirilməsini vacib hesab edirik. Bu baxımdan, şirkətdə gənc mütəxəssislə yay tətili müddətində istehsalat təcrübəsi keçmək üçün "Ödənişli Yay Təcrübəsi" proqramı həyata keçirilir. Proqram gənc mütəxəssislərin sahəmizin müxtəlif bölmələrində praktiki biliklərinin artırılmasına, onların real iş şəraiti ilə yaxından tanış olmasına, nəzəri biliklərin təcrübədə yoxlanmasına, həmçinin Nobel Oil şirkətində işin keyfiyyəti barədə daha ətraflı məlumatın toplanmasına yönəlib. Proqramın şərtlərinə görə tələbələr bu müddət üçün müvəqqəti əmək müqaviləsi bağlayırlar və mütəxəssis kimi işə qəbul edilirlər. Bununla əlaqədar, təcrübəçilərə vaxt və iş yerindən asılı olaraq ödəniş edilir və eyni zamanda Nobel Oil əməkdaşları üçün mövcud olan bütün güzəştlər təcrübəçilərə də şamil edilir.

2019-cu ildə "Yay Təcrübə Proqramı"nın bir hissəsi kimi elan edilmiş müsabiqə nəticəsində 22 təcrübəçi işə qəbul edilmişdir. Yay təcrübəsindən sonra dörd tələbə Nobel Oil Qrupunun şirkətlərində kiçik mütəxəssis kimi əmək fəaliyyətinə başlayıb.

# Mükafatlandırma və motivasiya sistemi



Şirkətin əsas prioritetlərindən biri işçilərin mükafatlandırılması üzrə səmərəli sistemin təmin edilməsidir. Biz, qarşımıza hədəf qoymuşuq ki, əməkdaşların motivasiyasını gücləndirmək hesabına əmək məhsuldarlığını saxlayaq və artıraq . Şirkətdə tətbiq olunan baza əmək haqqı yerinə yetirilən vəzifələrdən, həll olunan məsələlərin mürəkkəbliyindən, eləcə də məsuliyyət səviyyəsindən asılıdır.

Biz peşəkar kateqoriyalar baxımından əmək bazarını daim izləyərək əməkdaşlarımıza rəqabətədavamlı əmək haqqı təklif edirik. 2019-cu ildə bizim təklif etdiyimiz başlanğıc əmək haqqı şirkətin mövcud olduğu ölkədə müəyyən edilmiş əmək haqqının minimum məbləğindən 200% çox olub. Xarici şirkətlərin işçilərinin başlanğıc əmək haqqı o şirkətlərin yerləşdiyi ölkədə qüvvədə olan əmək qanunvericiliyinin normaları və ya kollektiv müqavilə, yaxud da yerli normativ aktlarla təsbit edilmiş minimum əmək haqqından aşağı olmayan səviyyədə müəyyən edilir.

2019-cu ildə biz beynəlxalq təşkilati məsləhət şirkəti Korn Ferry-nin iştirakı ilə i̇nsan resurslarının i̇darə edilməsi sisteminin təkmilləşdirilməsi üzrə birgə layihəyə başladıq. Layihə çərçivəsində biz əməkdaşların dərəcə sisteminin təkmilləşdirilməsinə nail olduq.
Bu, bizə işlərin və vəzifələrin real dəyərini və həcmini müəyyənləşdirməyə, uyğun gələn əməkdaşları düzgün vəzifələrə təyin etməyə və ədalətli ödəniş metodlarını tətbiq etməyə kömək etdi.

Bu layihə çərçivəsində vəzifələrin dərəcələnməsi strukturu əməyin qarşılığının ödənilməsi sisteminin idarə olunması üçün baza rolunu oynayır. Aydın sıralanmış dərəcə strukturu əməyin qarşılığının ödənilməsi və xidmətdə yüksəlmə haqqında obyektiv qərarların qəbul edilməsi üçün məntiqi əsas yaratmağa kömək edir. Bu da, bütün maraqlı tərəflərin cəlb edilməsinə, idarəetmə strukturu və prinsiplərinin müəyyən edilməsinə, əmək haqqı və imtiyazların səviyyələrinin təyin edilməsi prosesinə, həmçinin işçilərə kifayət qədər eşidildiklərini hiss etmələrinə şərait yaradır.
Bundan başqa, bu sistemi tətbiq etməklə, şirkət şəffaflığı və ədalətli yanaşmanı daha da artırmış oldu. Bu yanaşma əməkdaşlara onların karyerə inkişafı haqda aydın təsəvvür yaradır və sistemin adekvat əmək haqqı təklif etdiyini göstərməklə əməkdaşların ədalətli mükafat aldıqlarına əmin edir.

2019-cu ildə, insan resurslarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi ilə əlaqədar olaraq, şirkətin mükafatlandırma və motivasiya sistemi sahəsində həyata keçirdiyi başqa bir addım "İş fəaliyyətinin idarə olunması proseduru"nun tətbiqi oldu. Prosedur təşkilatın strateji məqsədlərinə uyğun fərdi və komanda məqsədlərinin müəyyən edilməsi və əməkdaşların bilik, bacarıq və qabiliyyətlərinin inkişafının təhlili və qiymətləndirilməsi yolu ilə səmərəliliyin artırılması prosesini müəyyən edir.
Bu prosedur əməkdaşların mühitə uyğunlaşması, inkişafı və şirkətdə qalmasının təmin edilməsi, eləcə də onların səmərəliliyinin yoxlanılması üçün vacib bir sistemdir.

Mükafatlandırma sistemi şirkətin strateji məqsədləri nəzərə alınmaqla işlənib hazırlanmış əsas səmərəlilik göstəriciləri əsasında qurulur. Bunun üçün, hər ilin əvvəlində şirkətin strateji məqsədlərinə uyğun olaraq hər bir əməkdaş üçün əsas səmərəlilik göstəriciləri müəyyən edilir. Bu prosedur əsasında əməkdaşların işinin qiymətləndirilməsi ilin sonunda həyata keçirilir. Yanaşmadan asılı olaraq, müvafiq prosedurda da göstərildiyi kimi iş icrasına nəzarət etmək üçün qiymətləndirilmə ilinin ortasında da nəzərdən keçirilə bilər.

Əməkdaşların səmərəliliyini yoxlamaq, qarşıya qoyulmuş məqsədlərə nail olmalarını təsdiq etmək və hər bir əməkdaşın nəticələrinə dair rəy vermək üçün onların birbaşa rəhbərləri ilə görüşlər keçirilir. Fərdi məqsədlərdə edilən istənilən dəyişiklik yalnız menecerlərin birbaşa razılığı ilə həyata keçirilir. Əldə edilmiş məlumatlar nəticəsində ilin sonunda əməkdaşın ümumi səmərəliliyi çatılmış məqsədlərin və səmərəliliyin əsas göstəricilərinin nisbəti əsasında hesablanır. Baş direktorun razılığı ilə yüksək göstəricisi olan işçilərə prosedurda müəyyən edilmiş qayda üzrə mükafatlar təqdim edilir.

Bundan əlavə, şirkətimiz əməkdaşları həvəsləndirmək üçün bir çox güzəştlər və kompensasiyalar təklif edir. Bu sahədə biz işçilərimizin həyat keyfiyyətinə təsir edən məsələlərə böyük diqqət yetiririk. Bizim müavinət və kompensasiya paketlərimizə könüllü tibbi sığorta, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət, istehsalatda bədbəxt hadisələrdən sığorta, sosial sığorta, maliyyə yardımı, ödənişli məzuniyyət (məsələn, analıq/atalıq, tibbi) daxildir. Daimi əməkdaşlara təqdim edilən güzəştlər, həmçinin, müvəqqəti əməkdaşlar və natamam iş günü əsaslı işləyən əməkdaşlara da təqdim edilir.

Hesabat və hesabat verma prosesi haqqında
Nobel Oil Qrup haqqında
Korporativ idarəetmə
Etika və qanunlara riayət
Davamlı inkişafa yanaşma
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə
Əmək münasibətləri təcrübəsi
Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühit
Keyfiyyətin idarə edilməsi
Satınalma Təcrübəsi
Cəmiyyətə dəstək
GRI standartlarına uyğunluq cədvəli

# İşçilərin məmnunluğu




Nobel Oil və onun törəmə şirkətlərində əməkdaşların rəhbərliyə müraciət etmək, problemlər barədə məlumat vermək, eləcə də ortaya çıxan problemlərə baxılması və həlli barədə məlumat almaq imkanı verən daxili ünsiyyət sistemi qurulub. Biz, daxili ünsiyyət sistemini ən yüksək səviyyədə tətbiq etməklə səmərəli komanda işi üçün əlverişli mühit yaratmışıq. Biz başa düşürük ki, əməkdaşlar onların hüquq və vəzifələrinə təsir göstərən korporativ hadisələr haqqında dəqiq və vaxtında məlumat almalı və öz fikirlərini və problemlərini şirkətin rəhbərliyinə çatdıra bilməlidirlər.

Bizim daxili ünsiyyət sistemimizin mühüm elementlərindən biri "açıq qapı" siyasətidir ki, bu da bütün əməkdaşlara rəhbərliklə mütəmadi olaraq görüşlər keçirməyə imkan verir. Bu cür görüşlərin keçirilməsi daxili dialoqa imkan yaradır, açıqlığı və şirkətin fəaliyyətinin əsas məsələlərinin həllinə işçilərin cəlb olunmasını stimullaşdırır. Bu format əməkdaşların məhsuldarlığını artırmağa imkan verir və rəhbərliyə fəaliyyətin mümkün xüsusi aspektləri haqqında birbaşa əməkdaşlardan aktual qeyri-formal məlumat almaları üçün mühüm qarşılıqlı əlaqə kanalı təqdim edir.

Şirkətdə əməkdaşlarla qarşılıqlı fəaliyyətdə mühüm rolu əməkdaşların qaldırdığı həm rəsmi, həm də qeyri-rəsmi məsələlərin aşkarlanmasına, araşdırılmasına və cavab tədbirlərin görülməsinə görə cavabdeh olan insan resursları şöbəsi daşıyır. Şikayətlərin verilməsi mexanizmi əməkdaşlarımız üçün bir neçə kanal vasitəsilə mümkündür və bu prosesdə ilk əlaqələndirici şəxs kimi birbaşa rəhbər çıxış edir. Əməkdaşların daxili şikayətləri elektron poçt, məktub və ya əməkdaşların şəxsən insan resursları şöbəsinin nümayəndəsinə bildirilməsi ilə daxil olur.

Bundan əlavə, əməkdaşların məmnuniyyətini ölçmək üçün şirkət tərəfindən atılan daha bir mühüm addım olaraq illik məmnunluq sorğusunun həyata keçirilməsidir. Bu sorğu nəticəsində əldə edilən məlumatlar işçi həyatinin idarə edilməsi sahəsində fəaliyyətin planlaşdırılmasının əsasını təşkil edir və idarəetmə qərarlarının qəbul edilməsi üçün əsas olur. Bu tədbirin həyata keçirilməsində məqsəd, şirkət əməkdaşlarının iş yerindən məmnuniyyətini daim yüksək səviyyədə saxlamaq üçündür.

2019-cu ildə biz keçiridiyimiz bütün heyəti əhatə edən sorğuda ümumilikdə əməkdaşların 84%-i iştirak edib və əməkdaşlarımızın cavablarına əsasən, şirkətə bağlılıq göstəricisi 83% kimi müəyyən edilib. Sorğu nəticəsində inkişafa ehtiyacı olan məsələlər müəyyən edililib və bu məsələlərin üzərində işləmək məqsədilə fokus qrupu yaradılıb. Fokus qrupunun tərkibi ikisi rəhbər şəxs olmaqla 12 nəfərdən ibarətdir. Digər 10 nəfər Qrup üzrə şirkətlərində işləyən mütəxəssislərdir. Bu tip fokus qruplarda əməkdaşların öz sözünü demək və fikirlərini bölüşmək kimi imkanları olur.



# Müxtəliflik və inklüzivlik



Nobel Oil şirkəti bütün işçiləri müsbət iş mühiti yaratmağı öhdəsinə götürərək, məşğulluq təcrübəsi, iş etikası və davranış qaydaları ilə tənzimlənən, həmçinin müxtəlif və inklüziv mədəniyyəti dəstəkləyən əlverişli iş şəraiti yaradır. Biz başa düşürük ki, yüksək nəticələrə nail olmağımız bizim korporativ mədəniyyətimizə müxtəliflilik və inklüzivliyi tətbiq etmə bacarığımızdan və iş tərzimizdən asılıdır.

Müxtəlifliyi təmin edən və inklüziv iş şəraitinin yaradılması öz potensialını tamamilə göstərə bilən ən yaxşı bacarıqlı mütəxəssislərin tapılmasına kömək edir və bu da öz növbəsində şirkətin rəqabətədavamlılığının artırılmasına səbəb olur. Biz cinslərin, irqlərin, milliyyətlərin, mədəniyyətlərin, etnik mənsubiyyətlərin, düşüncə tərzlərinin, həyat təcrübələrinin və hər birimizi unikal edən bütün digər atributların müxtəlifliyini qəbul edərək alaraq, hər kəsə bərabər imkanlar təqdim edirik. Şirkətin yanaşmasına əsasən, biz əməkdaşlıq və birgə işin gücünə inanaraq hər bir şəxsiyyətin qiymətli olduğu bir mədəniyyətin yaradılmasına can atırıq. Bütün insanlar üçün əlverişli bir mühitin yaradılması, şirkətimizi uzunmüddətli uğura aparan missiyamıza çatmaq üçün böyük əhəmiyyətə malikdir.

Nobel Oil şirkəti məzunları, tələbələri, məhdud imkanlara malik insanları, eləcə də yüksək səviyyəli əməkdaşları işə götürməklə müxtəlifliyi təmin edən inkluziv iş mühitini qurmağa davam edir. Biz biznesimizin nəzarəti altında olan sahələrində gender bərabərliyini dəstəkləsək də, sahənin xüsusiyyətləri bunun üçün çətinliklər yarada bilir. İşçi qüvvəmizin 9%-nı təşkil edən və əksəriyyəti ixtisaslaşdırılmış vəzifələrdə işləyən qadınların işə cəlb edilməsində müəyyən çətinliklər mövcuddur.

Bundan başqa, biz, müxtəlif dərəcəli əlilliyi olan insanları dəstəkləmək və onların inkişafına kömək etmək məqsədilə müxtəlif layihələrdə iştirak edirik. Biz onlara işə öz töhfələrini verməyə, şəxsi ləyaqət hisslərini yaşatmağa və iş yerində hörmətlə yanaşılmağa təmin edən iş mühiti yaradırıq. Hazırda şirkətdə əlilliyi olan 26 işçi işləyir.



Hesabat və hesabat vermə prosesi haqqında
Nobel Oil Qrup haqqında
Korporativ idarəetmə
Etika və qanunlara riayət
Davamlı inkişafa yanaşma
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə
Əmək münasibətləri təcrübəsi
Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühit
Keyfiyyətin idarə edilməsi
Satınalma Təcrübəsi
Cəmiyyətə dəstək
GRI standartlarına uyğunluq cədvəli

## İŞÇİLƏRİN CİNSƏ GÖRƏ ÜMUMİ SAYI

### Nobel Oil

| İşçilərin ümumi sayı | 2017 | | 2018 | | 2019 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| İşçilərin ümumi sayı, cinsə görə | 27 | 15 | 32 | 12 | 38 | 16 |

### Prokon

| İşçilərin ümumi sayı | 2017 | | 2018 | | 2019 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| İşçilərin ümumi sayı, cinsə görə | 857 | 43 | 337 | 26 | 443 | 46 |

### Glensol

| İşçilərin ümumi sayı | 2017 | | 2018 | | 2019 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| İşçilərin ümumi sayı, cinsə görə | 50 | 12 | 66 | 13 | 91 | 14 |

## İŞÇİLƏRİN ÜMUMİ SAYI, HƏSSAS QRUPLARA GÖRƏ

| İşçilərin ümumi sayı | 2019 | | |
|---|---|---|---|
| | Nobel Oil | Prokon | Glensol |
| Əmək qabiliyyətini itirmiş işçilər | 2 | 11 | 0 |
| Qaçqınlar və məcburi köçkünlər | 2 | 12 | 3 |

## ALİ İDARƏETMƏ ORQANININ ÜZVLƏRİNİN CİNS VƏ YAŞ QRUPLARINA BÖLÜNMƏKLƏ SAYI, nəfər

| | Nobel Oil | Prokon | Glensol |
|---|---|---|---|
| Qadın | | | |
| Kişi | 5 | 9 | 2 |
| 30 yaşdan aşağı | | | |
| 30-50 yaşlar arası | 5 | 9 | 2 |
| 50 yaşdan yuxarı | | | |



## İŞÇİLƏRİN YAŞ QRUPLARINA GÖRƏ BÖLGÜSÜ, nəfər

| Nobel Oil | | | Prokon | | | Glensol | | |
|---|---|---|---|---|---|---|---|---|
| 30 yaşdan aşağı | 30-50 yaşlar arası | 50 yaşdan yuxarı | 30 yaşdan aşağı | 30-50 yaşlar arası | 50 yaşdan yuxarı | 30 yaşdan aşağı | 30-50 yaşlar arası | 50 yaşdan yuxarı |
| 8 | 37 | 4 | 118 | 350 | 21 | 15 | 72 | 18 |

## NOBEL OİL ÜZRƏ 2019-CU İLDƏ İŞÇİLƏRİN CİNS VƏ YAŞ KATEQORİYALARINA GÖRƏ BÖLGÜSÜ, nəfər

| | Qadın | Kişi |
|---|---|---|
| Rəhbər işçilər | 0 | 6 |
| Mütəxəssislər | 11 | 19 |
| Texniki icraçılar | 0 | 0 |
| Fəhlələr | 1 | 12 |

## PROKON ÜZRƏ 2019-CU İLDƏ İŞÇİLƏRİN CİNS VƏ YAŞ KATEQORİYALARINA GÖRƏ BÖLGÜSÜ, nəfər

| | Qadın | Kişi |
|---|---|---|
| Rəhbər işçilər | 0 | 9 |
| Mütəxəssislər | 20 | 80 |
| Texniki icraçılar | 11 | 134 |
| Fəhlələr | 15 | 220 |

## GLENSOL ÜZRƏ 2019-CU İLDƏ İŞÇİLƏRİN CİNS VƏ YAŞ KATEQORİYALARINA GÖRƏ BÖLGÜSÜ, nəfər

| | Qadın | Kişi |
|---|---|---|
| Rəhbər işçilər | 3 | 9 |
| Mütəxəssislər | 10 | 59 |
| Texniki icraçılar | 0 | 14 |
| Fəhlələr | 1 | 6 |




# Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi

| 464 322 manat | 1.15 | 0.12 | 1699,24 ton ekv. |
|---|---|---|---|
| **SƏTTƏMM üzrə çəkilən xərclər** | **Ümumi zədələnmə əmsalı** (podratçı şirkətlərin əməkdaşları daxil) | **Zədələnməyə görə itirilmiş vaxt əmsalı** (podratçı şirkətlərin əməkdaşları daxil) | **Ümumi karbon emissiyalarının həcmi** |

# Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitə yanaşmamız

SIFIR ZƏRƏR

Əməkdaşlarımız üçün təhlükəsiz və sağlam iş şəraitinin təmin edilməsi və ətraf mühitə təsirin minimuma endirilməsi bizim üçün əsas prioritetlərimizdən biri olaraq qalır. Biz qəzasız əməliyyatlara, işçilərə təhlükəsiz iş mühitinin təmin edilməsinə və maraqlı tərəflərin sağlamlığının qorunmasına görə məsuliyyətimizi anlayır və qeyd-şərtsiz qəbul edirik.

Biz əməliyyatlarımızda "sıfır zərər" prinsipini rəhbər tuturuq. Bu prinsip Nobel Oil şirkətinin əməyin texniki təhlükəsizliyinə sıfır təhlükə, ətraf mühitlə bağlı sıfır hadisəyə və sıfır qeyri-məhsuldar vaxta nail olmaq yanaşmasını əks etdirir.

Bu prinsip həmçinin əməkdaşlarımıza, müştərilərə və cəmiyyətə olan münasibətimizi və prioritetlərimizi ifadə edən "biznesin aparılmasında ən yüksək standartların müəyyən edilməsi" fəlsəfəmizi tam şəkildə ifadə edir. Bizim etibarlı idarəetmə sistemimiz, səriştəmiz və işçilərimizə sədaqətimiz uğurumuzun əsas elementləri və sıfır zərər göstəricilərinə nail olmağın əsası olaraq qalır.




# İdarəetmə sistemi

Biz nəzarət orqanlarının və müştərilərin gözləntilərini və sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (SƏTTƏMM) üzrə daxili prosedurlarımıza uyğunluğu təmin etmək üçün davamlı olaraq idarəetmə sistemimizin əməliyyat göstəricilərini təkmilləşdirir və səmərəliliyi artırırıq. Bizim SƏTTƏMM idarəetmə sistemimiz Əməyin mühafizəsi haqqında qanuna və yerli qanunvericiliyin Əmək Məcəlləsinin tələblərinə ciddi riayət olunmasına əsaslanır.

SƏTTƏMM tələblərinin yerinə yetirilməsi məsələlərinə vahid yanaşmanı təmin etmək məqsədilə biz 2019-cu ildə SƏTTƏMM siyasətini hazırlamışıq. Bu siyasət şirkətimizin təcrübə və öhdəliklərini rəhbər tutaraq, idarəetmə sisteminin davamlı inkişafını təmin etmək üçün əsas prinsip və yanaşmaları ehtiva edir. Şirkətin bu siyasətinin məqsədi mürəkkəbliyindən asılı olmayaraq görülən bütün işlərin qəzaya və istehsalat xəsarətlərinə yol vermədən təhlükəsiz şəkildə yerinə yetirilməsini təmin etməkdən ibarətdir.

Bundan əlavə, Nobel Oil şirkətinin törəmə müəssisələrində fəaliyyətin günün tələblərinə uyğun qurulması məqsədilə SƏTTƏMM sahəsində ISO 14001 və ISO 45001 beynəlxalq idarəetmə sistemi uğurla tətbiq edilir.

Ümumi idarəetmə sistemimizin bir hissəsi olan SƏTTƏMM beynəlxalq standartların tələblərinə uyğunlaşdırılaraq, hadisələrin nəticələrinin lokallaşdırılması və aradan qaldırılmasına yönəlmiş tədbirlər çərçivəsində, qabaqlayıcı tədbirləri üstün tutaraq risklərin idarə edilməsini təmin edir.

### Nobel Oil şirkətinin idarəetmə sistemi




# Nəzarət və monitorinq

Əməyin mühafizəsi, sənaye təhlükəsizliyi və ətraf mühit məsələlərinə Nobel Oil şirkətinin ən üst rəhbərliyi nəzarət edir, şirkətin bu sahədəki fəaliyyətinin nəticələrinə isə direktorlar şurası səviyyəsində baxılır. Qrupun sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (SƏTTƏMM) üzrə rəhbəri adıkeçən sahənin inkişafının yol xəritəsində nəzərdə tutulmuş işlərin gedişatı və illik plan barədə məlumatı mütəmadi olaraq SƏTTƏMM üzrə üst rəhbərliyin komitəsinin aylıq görüşlərində və iclaslarında yeniləyir. Bundan əlavə, əməyin texniki təhlükəsizliyinin artırılması, eləcə də iş yerlərində təhlükəsizliyin vəziyyəti və sənaye təhlükəsizliyi tələblərinə və ekoloji normalara və qaydalara əməl olunması üzrə planların, tədbirlərin və bütün işlərin yerinə yetirilməsinə Nobel Oil şirkətinin və onun törəmə şirkətlərinin səlahiyyətli rəhbərləri və mütəxəssisləri nəzarət edirlər.

Bizim ən vacib vəzifəmiz Nobel Oil qrupunun və podratçı şirkətlərin işçiləri arasında liderliyin inkişaf etdirilməsi və təhlükəsizlik mədəniyyətinin möhkəmləndirilməsidir. Məsuliyyətli bir şirkət olaraq, biz,



nəzarət prosesində nəzarətə və özününəzarətə nəinki bütün rəhbər və mütəxəssisləri, həm də təhlükəsizlik mədəniyyətinin təbliğində mühüm rol oynayan aparıcı işçiləri də cəlb etməyin vacibliyini başa düşürük.

2019-cu ildə biz nəzarət və monitorinq sisteminin təkmilləşdirilməsi üzrə işləri davam etdirdik. Bununla bağlı, biz, SƏTTƏMM sahəsində "Planlı təftiş proseduru"nu hazırlayaraq tətbiq etmişik. Bu prosedurun məqsədi təsərrüfatın aparılma standartlarına, proqramlarına, müəyyən qaydalarına və ümumi standartlarına uyğunluğun təsdiqinə yönəldilmiş, ixtisaslı mütəxəssislər tərəfindən yerinə yetiriləcək planlaşdırılmış təftişlərin həyata keçirilməsidir. Prosedur Nobel Oil və onun törəmə şirkətlərinin bütün fəaliyyətinə tətbiq edilir. Prosedura əsasən, təftişlər supervayzerlər və menecerlər tərəfindən SƏTTƏMM nümayəndələri ilə birlikdə yüksək təhlükə olan yerlərdə aparılmalıdır. Bundan əlavə, prosedurun əsas bəndlərindən biri də ondan ibarətdir ki, hər yoxlamada şirkətin müxtəlif törəmə şirkətlərin nümayəndələri iştirak etməlidirlər. Biz inanırıq ki, bu, yoxlamaları daha da səmərəli etməyə kömək edəcəkdir.

Şirkət üçün idarəetmə sisteminin səmərəliliyinin qiymətləndirilməsinin və artırılmasının əsas yollarından biri yerli qanunvericiliyin və korporativ standartların tələblərinə riayət olunmasına illik korporativ nəzarət, eləcə də əldə etdiyimiz sertifikatların xarici auditinin nəticələrinə uyğun atılan addımlardır. Bu məsələdə, dövlət orqanları tərəfindən aparılan yoxlamalar və müştərilərimizin tələbləri də mühüm rol oynayır.

# İş yerində əməyin mühafizəsi və təhlükəsizliyi



Nobel Oil işçilərin həyat və sağlamlığının prioritet olduğunu qeyd-şərtsiz qəbul edir və qəzasız əməliyyatlara və təhlükəsiz əmək şəraitinin təmin edilməsinə görə öz məsuliyyətini başa düşür.

Biz əməliyyat və layihələrimizlə əlaqədə olan bütün insanların - əməkdaşlar, təchizatçılar, subpodratçılar, müştərilər və ətrafdakı icmalarda olanlar - sağlamlığı və təhlükəsizliyinə qayğı ilə yanaşırıq. Biz əməyin texniki təhlükəsizliyinə sadiq olduğumuzu və normativ tələblərə tam riayət etdiyimizi işimizlə göstərmişik. Əməyin mühafizəsi və təhlükəsizliyinə olan bu yanaşmanı daha da möhkəmləndirmək üçün biz daim diqqətli olur və bu sahədə olan yeni təşəbbüsləri fəal şəkildə tətbiq edirik.

Nobel Oil və onun törəmə şirkətlərinin əməyin mühafizəsi və təhlükəsizliyi üzrə tədbirlər planına uyğun olaraq əmək şəraitinin, habelə istehsalatda təhlükəsizliyin artırılması və yaxşılaşdırılması istiqamətində təşkilati və texniki tədbirlərin həyata keçirilməsi 2019-cu ildə davam etdirilmişdir.
Hesabat ilində, bizim sənaye təhlükəsizliyi, əməyin mühafizəsi və ətraf mühitin qorunması üzrə öhdəliklərimizin yerinə yetirilməsi çərçivəsində, istehsalat və peşə risklərini minimuma endirmək məqsədilə Nobel Oil qrupunun təşkilatlarında müvafiq korporativ proqramlar həyata keçirilmişdir.





| | | | | |
|---|---|---|---|---|
| *Təlim və təlimatlandırmaların aparılması* | *Əmək şəraitinin və təhlükəsizliyinin qiymətləndirilməsinin aparılması* | *İşçilərin şəxsi mühafizə vasitələri ilə təmin edilməsi* | *SƏTTƏMM üzrə normativ-texniki sənədlərin hazırlanması və tədbiq edilməsi* | *İstehsalatda bədbəxt hadisələrin və peşə xəstəliklərinin araşdırılması və hesabatının aparılması* |

Günümüzdə Nobel Oil müxtəlif səviyyəli bir çox əhəmiyyətli layihələr həyata keçirir. Bu layihələrin hər biri, sağlamlıq və əməyin texniki təhlükəsizliyi üzrə qabaqcıl təşəbbüsləri tətbiq etmək öhdəliyimizə əməl edərək, həmin layihələrdə işləyən bütün insanlara qayğı göstərmək kimi əsas dəyərimizə sadiq qaldığımız üçün uğurlu olur. Biz daim yeniliklər tətbiq etməyə və sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (SƏTTƏMM) üzrə proqramlarımızı inkişaf etdirməyə çalışırıq ki, onlar nəinki sənayemizdə ən qabaqcıl təcrübəni bölüşsünlər, həm də ən yüksək standartlara cavab versinlər.

Biz həmçinin inanırıq ki, həyata keçirdiyimiz hər bir layihədə məhsuldarlığın optimallaşdırılması, sərf olunan vaxtın azaldılması və mükəmməlliyin əldə olunmasının açarı şirkət və müştərilərimizin SƏTTƏMM qaydalarına tam riayət etməsidir.

Biz layihələrimizi tam təhlükəsiz iş yerlərinin layihələndirilməsi ilə həyata keçiririk. Qəza və hadisələrin baş verməsinin önləmək üçün biz zədələrin qarşısının alınması, təhlükələrin müəyyənləşdirilməsi, həmçinin risklərin qiymətləndirilməsi və idarə edilməsi məsələləri üzrə hərtərəfli hazırlıq işləri görürük.

***Biz əməkdaşlara səlahiyyət verir və tələb edirik ki, vəziyyəti təhlükəli hesab etdikləri təqdirdə istənilən işə müdaxilə etsinlər və dayandırsınlar. Bu münasibət şirkətin rəhbərliyi tərəfindən tam dəstəklənir.***

Bütün bu tələblərin həyata keçirilməsi üçün əmək şəraitinin daha da yaxşılaşdırılması məqsədilə hər il Nobel Oil və onun törəmə müəssisələri tərəfindən aydın ehtiyat qaydaları və tədbirlər planı işlənib hazırlanır. Tərtib edilən planda işçilərin sağlamlığının qorunması, sağlam iş mühitinin yaradılması, mümkün bədbəxt hadisələrin və peşə xəstəliklərinin qarşısının alınması, istehsalat risklərinin minimuma endirilməsi və digər sağlamlaşdırıcı, sanitar-gigiyenik tədbirlərin həyata keçirilməsi üzrə tədbirlər nəzərdə tutulur.

Məsuliyyətli bir şirkət kimi biz, əməliyyat sahələrində işləyən əməkdaşlarımızın əmək şəraitinin yaxşılaşdırılması və təhlükəsiz iş üsullarının yaradılması məqsədilə şirkətdə müasir tələblərə cavab verən sistemlərin tətbiqinə çox önəm veririk. Bununla yanaşı, mürəkkəb texnoloji prosesləri həyata keçirən texnoloji qurğu, avadanlıq və mexanizmlərin təhlükəsiz istismarının təmin edilməsi məqsədilə onların texniki baxışı, müayinəsi və sınağı üzrə profilaktik tədbirlərə xüsusi diqqət yetiririk.

***Nobel Oil və onun hər bir törəmə müəssisəsində fövqəladə hallarda davranış qaydaları vardır. Bu, təxliyə planları və tibbi cavab tədbirləri daxil olmaqla, qəza zamanı işçilərin davranış qaydaları və təcili cavab tədbirləri üçün ətraflı tələbləri əhatə edir.***

# Riskə əsaslanan yanaşma




Qəza və hadisələrin baş verməsinin qarşısının alınması üçün əsas tədbirlərdən biri yeni əməliyyat başlamazdan əvvəl və ondan sonra mütəmadi olaraq işçilərin sağlamlığı və təhlükəsizliyi üçün risklərin qiymətləndirilməsidir. İş tapşırıqlarının hazırlanması zamanı təhlükə mənbələri, risk amilləri, qəzaların baş verməsi şərtləri və onların ssenariləri, istehsal heyətinin sayı və yerləşdirilməsi nəzərə alınır. İş tapşırıqlarının mövzusu obyektlərin istehsal fəaliyyətinin xüsusiyyətləri, onların ərazi yerləşməsinin xüsusiyyətləri və bu yerləşmə ilə bağlı mövcud risklərin kompleks qiymətləndirilməsi nəzərə alınmaqla seçilir.

İstehsal fəaliyyətinin təhlükəsizliyi, həmçinin Nobel Oil şirkətinin və podratçı təşkilatların işçilərinin sağlamlığı və həyatı üçün risklər riskə-əsaslanan yanaşma ilə qiymətləndirilir. Risklər şirkətin "Risklərin qiymətləndirilməsi protokolu" sənədində təsvir edilən daxili metodikada əksini tapmış yanaşmaya uyğun olaraq qiymətləndirilir. Protokola əsasən, risklərin qiymətləndirilməsi həm Nobel Oil və onun törəmə şirkətlərinin obyektlərində, həm də onun hüdudlarından kənarda bütün işlərlə bağlı aparılır.

Biz əməyin mühafizəsi, sənaye və ekoloji təhlükəsizlik sahəsində risklərin vahid idarəetmə sisteminin fəaliyyəti çərçivəsində bütün əməliyyat sahələrində yaranma ehtimalının müəyyən edilməsi, qiymətləndirilməsi, aradan qaldırılması və ya azaldılması üzrə işlər aparırıq. Şirkətin bütün sahələrində işləyən əməkdaşların hər birinin təhlükəli amillərin müəyyənləşdirilməsi və risklərin idarə edilməsi üzrə prosedurların həyata keçirilməsində iştirakı, iş yerlərindəki təhlükəli amillərin tam və dəqiq müəyyənləşdirilməsinə və qiymətləndirilməsinə imkan verir.

Müştəridə bizim protokolun razılaşdırılmış əvəzləyicisi və ya bundan daha ciddi proseduru yoxdursa, bu protokol tərəfdaş razılaşmalarına və ya birgə müəssisələrə tətbiq olunur. Əgər müştəri müqavilə razılaşmasına əsasən risklərin qiymətləndirilməsinin konkret prosedurunu və öz obyektində istifadə edəcəkləri formaları təqdim edirsə, o, həmin prosedurdan onun riskə nəzarət mexanizminin bizim protokola uyğun olduğunu təmin etdiyi təqdirdə istifadə edə bilər.

ISO 31000: 2018-də olan risklərin idarə edilməsi prinsipləri bu protokol üçün geniş yanaşmanı təmin edir.




# Dəyişikliklərin idarə edilməsi

Bizim Dəyişikliklərin idarə edilməsi (DİE) prosesimiz dəyişiklik yarada biləcək mümkün təhlükələrin müəyyən edilməsi, daha sonra bu təhlükələrlə bağlı risklərin qiymətləndirilməsi və onların sistemli şəkildə aradan qaldırılması üçün nəzərdə tutulmuşdur. Proses tələb edir ki, bütün əməliyyat dəyişikliklərinin və proses dəyişikliklərinin planlaşdırılması, təhlil edilməsi və xidmətin pozulması və ya yeni təhlükələrin yaranma ehtimalını azaltmaq üçün tətbiq edilməzdən əvvəl təsdiqlənsin.

Şirkətin sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (SƏTTƏMM) və ya normativ tələblərə riayət olunmasına təsir edən bütün kadr və təşkilati dəyişikliklər və Nobel Oil qrupuna aid olan hər hansı bir aktivə edilmiş fiziki, əməliyyat, kimyəvi və texnoloji dəyişikliklər DİE prosesinə uyğun edilməlidir.

DİE prosesinin bütün iştirakçıları, hər hansı bir dəyişikliyin təhlükəsizliyi ilə bağlı şübhələri olduqda, işin dayandırılmasına cavabdehdirlər.

# Obyektlərin təhlükəsizlik səviyyələrinin qiymətləndirilməsi

2019-cu ildə tətbiq etdiyimiz planlı təftiş proseduru bizdən vaxtaşırı planlaşdırılmış təftişləri tələb edir. Bu prosedur eyni zamanda bizə ciddi insidentlərə gətirib çıxara biləcək riskləri operativ aşkarlamağa və qarşısını almağa imkan verir və insidentlərin sıfır səviyyəsində saxlamağa və dəyərimizin artmasına kömək edir.

# Üçüncü tərəf şirkətlərə nəzarət

Əməyin texniki təhlükəsizliyinin təmin edilməsi ilə bağlı öz yanaşmalarımızda biz əməyin mühafizəsi və sənaye təhlükəsizliyi sahəsində prinsip və siyasətlərimizi bütün işçilərimizə,



podratçı və subpodratçı təşkilatlarının işçiləri də daxil olmaqla hər kəsə şamil edirik. Biz bunu ona görə edirik ki, onlar bizim layihələrin təhlükəsiz istismarına əhəmiyyətli dərəcədə təsir göstərir. Şirkətlərin obyektlərində fəaliyyətin həyata keçirilməsi zamanı biz podratçılardan əməyin mühafizəsi və sənaye təhlükəsizliyi sahəsində qəbul etdiyimiz standartlara və normalara ciddi riayət olunmasını tələb edirik. Bu tələblər Nobel Oil və onun törəmə şirkətləri ilə podratçı təşkilatlar arasında olan müqavilələrin ayrılmaz tərkib hissəsidir.

Podratçılar tərəfindən işlərin təhlükəsiz yerinə yetirilməsini təmin etmək üçün Nobel Oil Qrupunda podratçının işçi heyətində iş ixtisasına uyğun vəsiqələrin mövcudluğu yoxlanılır, əməyin mühafizəsi üzrə giriş məlumatlandırmaları edilir və iş yerində təhlükəsizlik üzrə ilkin təlimatlandırmalar keçirilir. İşlər tapşırıq-icazə sistemi əsasında həyata keçirilir. Görülən işlərə nəzarət və görülən işlərin keyfiyyətinin yoxlanılması təmin edilir.

Biz bilirik ki, yüksək təhlükəsizlik göstəriciləri birbaşa yüksək layihə nəticələrinin əldə olunmasına töhfə verir və bu nəticələr iş sahəsinin hər tərəfində detallara olan diqqətin, sayıqlığın və cavabdehliyin artırılması ilə birbaşa əlaqədardır. Məhz bütün bu səylərin təsiri son nəticədə işçilərimizin təhlükəsizliyini təmin edir, onların rifah halını artırır və bizə üstün nəticələr əldə etməyə imkan verir.



# İş şəraitinin xüsusi qiymətləndirilməsi



Biz təhlükəsiz və layiqli iş şəraitinin yaradılması və qorunub saxlanılmasına istənilən texniki və təşkilati məsələlərdən daha çox diqqət yetirir və üstünlük veririk.

Yerli qanunvericiliyə, habelə Nobel Oil və onun törəmə şirkətlərində iş şəraitinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə uyğun olaraq, hər il istehsal mühitinin və əmək prosesinin zərərli və təhlükəli amillərinin aşkar edilməsi, onların işçilərə təsirinin ölçülməsi məqsədilə iş şəraitinin qiymətləndirilməsi aparılır. Onların nəticələrinə görə iş şəraiti siniflədirilir, işçilərin əmək şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilir.

2019-cu ildə bizim törəmə şirkət olan Prokon MMC-də iş yerlərinin 80%-i attestasiyadan keçib. Bu proses şirkətin attestasiya komissiyasının iştirakı ilə dövlət akkreditasiyalı laboratoriya vasitəsilə aparılmışdır. İşıqlandırma, səs-küy, hava, eləcə də radiasiyanın monitorinqi şirkətin baş ofisində və onun həyata keçirdiyi HAOR layihəsində iş yerlərinin attestasiyası prosesi zamanı həyata keçirilmişdir.

Bu fəaliyyət nəticəsində müəyyən edilmişdir ki, Prokon MMC-nin həm layihə, həm də ofis iş yerlərinin fiziki parametrləri (mobil laboratoriya vasitəsilə ölçülən bütün parametrlər də daxil olmaqla) qanunvericiliklə müəyyən edilmiş normalar həddindədir. Zərərli istehsal amillərinin işçilərə təsir sahəsində əsas peşəkar risklər yenə də vibroakustik amillər (səs-küy, vibrasiya), radiasiya və iş prosesinin ağırlığıdır. Ümumiyyətlə, Prokon MMC-nin ofis və sahə işlərində əməyin ağırlığı və intensivliyi baxımından optimal iş yerləri sinfinə aiddir.

***Zərərli istehsal amillərinin təsirini azaltmaq üçün biz işçiləri ən yüksək keyfiyyətli xüsusi geyim və ayaqqabı, eşitmə və görmə orqanlarının müdafiə vasitələri, dərinin təmizlənməsi və zərərsizləşdirilməsi üçün vasitələrlə təmin edirik.***

# Zədələnmə üzrə hesabat

Nobel Oil şirkəti fəaliyyətində həm öz əməkdaşlarını, həm də podratçı və subpodratçı təşkilatların işçiləri ilə baş vermiş bütün bədbəxt hadisələri nəzərə alır. Qeydiyyatın aparılması işlərin görüldüyü yerlərdə nəzarətin artırılmasına, istehsal təhlükəsizliyinin təmin edilməsi üçün daha səmərəli sistemin formalaşdırılmasına imkan verir. Bütün hadisələrin qeydiyyatı, həmçinin bədbəxt hadisələrin araşdırılması yerli qanunvericiliyin tələblərinə və bizim daxili prosedurlarımıza uyğun olaraq vaxtında aparılır.

Şirkət hər bir bədbəxt hadisəni diqqətlə araşdırır, səbəbləri müəyyən edir və gələcəkdə oxşar hadisələrin təkrarlanmaması üçün bütün lazımlı təhlilləri aparır.

2019-cu ildə, əməyin texniki təhlükəsizliyinin yüksəldilməsini təşviq edən hesabatlılığın şəffaflığının artırılması üçün biz Hadisələr və onların araşdırılmasına dair protokol adlı bütün təşkilata siraət edən protokolun tərtib edilməsi təşəbbüsünü irəli sürdük.

Bu protokolun məqsədi baş vermiş hadisədən sonra araşdırmanın nə vaxt və necə aparılmalı olduğunu müəyyən etməkdir. Protokol faktiki və potensial hadisələr üçün məlumatlandırma, araşdırma, müşahidə və ciddilik səviyyələrini müəyyənləşdirir. Bu protokol bizə, bütün Qrup daxilində əməyin mühafizəsi və sənaye təhlükəsizliyi anlayışlarının və terminologiyanın ardıcıl anlaşılmasını, eləcə də hadisələrin araşdırılmasına ardıcıl yanaşmanı təmin etməyə imkan verəcək.

Bundan əlavə, əməyin mühafizəsi və sənaye təhlükəsizliyi hesabatlarının bir çox protokolları hadisənin qeydə alınıb-alınmadığına diqqət yetirərkən, tətbiq etdiyimiz yeni protokolun bizə əməyin mühafizəsi və sənaye təhlükəsizliyi sistemini yaxşılaşdırmaq üçün daha çox imkanlar verdiyini aşkar etdik. Bu protokol bizə üç əsas üstünlük verir:

- **Rəhbərliyin müvafiq səviyyələrində hadisələr haqqında vaxtında və dəqiq məlumatlandırmanı müəyyən etmək**
- **Vaxt və resursları risk təşkil edən hadisələr üzərində cəmləşdirmək**
- **Hadisələrin təkrarlanmasının qarşısını almaq üçün təşkilatın təlim proqramlarına dəstək olmaq və nəzarət iyerarxiyasının bir hissəsi kimi aradan qaldırma, əvəzləmə, mühəndis, administrativ və şəxsi mühafizə sistemlərinin nəzarətini tətbiq etmək**

MƏHSULDARLIĞA DAİR MƏLUMATLAR

| Kateqoriya | 2018 | | 2019 | |
|---|---|---|---|---|
| | Prokon | Glensol | Prokon | Glensol |
| LTIR (zədələnməyə görə itirilmiş vaxt əmsalı) | 0 | 0 | 0.12 | 0 |
| TIR ( ümumi zədələnmə əmsalı) | 0 | 0 | 0.35 | 0.80 |

2019-cu ildə, Glensol şirkətinin bir əməkdaşı ilə bağlı insident baş verib. Kabel çəkilişi zamanı, elektrik mühəndisinin polad tir ilə səbətin çəpəri arasında qalan sağ əlinin barmağını yaralamışdır. Bununla əlaqədar əməliyyat dərhal dayandırılmış, yaralanmış şəxsə ilk tibbi yardım göstərilərək klinikaya çatdırılıb. Zədə çox ciddi olmadığından işçi növbəti iş günündə işə çıxa bilib.



# İşçilərin məlumatlandırılması hesabına təhlükəsizliyin artırılması

Əməyin mühafizəsi və təhlükəsizlik sahəsində işçilərin bilik və səriştələri biznesin davamlılığının təhlükəsizliyi üçün vacibdir. Biz rəhbərlərdən başlayaraq bütün işçilərin məcburi təlim prosesini təşkil edirik və buna ciddi nəzarət edirik. Bu, şirkət üçün düzgün yanaşma və təhlükəsizlik mədəniyyətini yaratmağa kömək edir. Bizim təlim fəaliyyətimiz, ilk növbədə, işçilərimiz üçün ən müasir materiallardan istifadə etməklə tədris, təkmilləşdirmə və ixtisasartırma üzrə əyani proqramların həyata keçirilməsini, təhlükəli avadanlıqla işləyən işçi heyətinin xüsusi təlim sisteminin tətbiqini və əməyin texniki təhlükəsizliyi və mühafizəsi ilə olan əlaqənin keyfiyyətinin artırılmasını əhatə edir.

Bizim müəssisələrdə layihənin həyata keçirilməsi zamanı elə ilkin mərhələlərdə uyğun təhlükəsizlik planı hazırlanır. Hər bir vacib işə başlamazdan əvvəl işin əsas məqamları və təhlükələri üzrə şirkət əməkdaşları, eləcə də podratçı təşkilatların işçiləri üçün təlimlər keçirilir. Şirkət işçi heyətinin öz işinə yalnız hərtərəfli təhlükəsizlik yoxlamasının aparılmasından sonra başlamasını təmin edir.

Təhlükəsizlik mədəniyyətinin inkişaf etdirilməsi və tələb olunan tədbirlərin məşq edilməsi məqsədilə 2019-cu ildə işçilərin "Əməyin mühafizəsi və təhlükəsizlik" və "İlk yardımın göstərilməsi" mövzularında şirkət-boyu təlimlər təşkil edilib.

2019-CU İLDƏ ƏMƏYİN MÜHAFİZƏSİ VƏ SƏNAYE TƏHLÜKƏSİZLİYİ ÜZRƏ KEÇİRİLMİŞ KURSLAR HAQQINDA MƏLUMAT

| Təlim kursunun mövzusu | Dinləyicilərin sayı (nəfər) | Təlimlərin keçirilmə müddəti (adam/saat) |
|---|---|---|
| Elektrik təhlükəsizliyi | 1650 | 1744 |
| Yüksəklikdə iş | 1552 | 1620 |
| Əl ilə qaldırma | 1615 | 1710 |
| Dənizdə təhlükəsizlik | 5 | 40 |
| Yanğın təhlükəsizliyi | 1594 | 1737 |
| İlk yardımın göstərilməsi | 1413 | 1743 |
| Nəqliyyat vasitəsinin təhlükəsiz idarə edilməsi | 1236 | 1315 |
| Qapalı yerlərdə iş görmə | 1688 | 1751 |

# Ekoloji normalara uyğunluq

Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (SƏTTƏMM) siyasətimizdə qorunmasına öhdəlik götürdüyümüz obyektlərin, eləcə də layihələrimizin hər birində yerli normativ tələblərdən asılı olmayaraq ekoloji göstəricilərin minimal standartının müəyyən edilməsi tələb edilir.

Bizim ətraf mühitin idarə olunması proqramımız daxili və xarici normativ tələblərə uyğunluğu təmin edən bir neçə prosesi əhatə edir. Buna nail olmaq üçün, Nobel Oil və onun Prokon və Qlensol törəmə şirkətlərinin ətraf mühitə münasibətdə tətbiq etdiyi dəqiq qayda və normaları vardır.

Layihələrin həyata keçirilməsində yanaşmamız və ekoloji planımız sayəsində ekoloji risklərin sistemli şəkildə idarə edilməsi metodları təkcə bizim üçün deyil, həm də maraqlı tərəflərimiz üçün də dəyəri artıracaq şəkildə tətbiq edilmişdir.

Şirkətin ekoloji risklərinin idarə edilməsi bizim idarəetmə sistemimizin tərkib hissələrindən biridir.

Hesabat və hesabat vermə prosesi haqqında
Nobel Oil Qrup haqqında
Korporativ idarəetmə
Etika və qanunlara riayət
Davamlı inkişafa yanaşma
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə
Əmək münasibətləri təcrübəsi
Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühit
Keyfiyyətin idarə edilməsi
Satınalma Təcrübəsi
Cəmiyyətə dəstək
GRI standartlarına uyğunluq cədvəli



Fəaliyyətimizi həyata keçirərkən, biz, ekoloji riskləri və imkanları aşkarlamaq, onları layihələrin icrası prosesinin gedişatında nəzərə almaq və müntəzəm monitorinq vasitəsilə idarə etmək üçün təklif mərhələsində mövcud qanunvericilikdə və normativ aktların tələblərində edilmiş dəyişiklikləri daim təhlil edirik. Bundan başqa, bizim SƏTTƏMM üzrə komandamız istehsalat fəaliyyəti yerlərində ətraf mühitin vəziyyətinin qiymətləndirilməsi üçün daim monitorinqlər həyata keçirir.

2019-cu ildə törəmə şirkətimiz olan Prokonda layihənin, ərazinin hazırlanmasından başlayaraq texnoloji planın bütün bloklarının istismara verilməsinə qədər olan bütün mərhələlərində ekoloyi təhlükəsizliyin təmin olunması təsvir edilmiş yeni ekoloji idarəetmə planı hazırlanmış və təsdiq edilmişdir. Bu planın məqsədi layihənin hər bir mərhələsində bütün ekoloji tələblərə riayət olunmasında "Prokon"a və onun podratçı və subpodrat təşkilatlarına kömək etməkdir.

# İqlim dəyişikliyinə təsirimiz

Nobel Oil iqlim dəyişikliyinə qarşı mübarizəni və BMT-nin ümumi qlobal istiləşmənin 2 dərəcədən aşağı səviyyəyə qədər məhdudlaşdırılmasına yönəldilmiş iqlim dəyişikliyi haqqında Paris sazişini dəstəkləyir. Biz başa düşürük ki, bu məqsədə nail olmaq üçün məsuliyyət yalnız dövlətlərin deyil, həm də özəl sektorun və vətəndaş cəmiyyətlərinin üzərinə düşür. Bu səbəbdən biz, bu istiqamətdə öz töhfəmizi vermək üçün həmişə fəaliyyətimizi və təşəbbüslərimizi davamlı inkişaf sahəsində məqsədlərə uyğunlaşdırmağa çalışırıq.

Mühəndislik, satınalma və tikinti üzrə podratçı olaraq, biz davamlı inkişafın məqsədlərinə nail olmaqla bağlı məsuliyyətimizi başa düşürük. İnnovasiya həll yolları hesabına ətraf mühitə təsir problemlərini həll etmək bacarığımız müştərilərimizə eyni zamanda ətraf mühitə təsiri azaltmaqla fəaliyyətlərinin səmərəliliyini maksimuma çatdırmağa kömək edir. Bu baxımdan, şirkət üçün əsas prioritetlərdən biri iqlim risklərini idarə etməyə kömək edən yenilikçi texnoloji həllər təqdim etməkdir ki, bu da, fikrimizcə, bizim öz dayanıqlılığımızı və müştərilərimizin dayanıqlılığını artırır.

Biz həmçinin dərk edirik ki, iqlim dəyişikliyinin zərərli təsirlərini azaltmaq üçün alternativ enerji mənbələrindən və enerjidən səmərəli istifadə edən sistemlərdən istifadənin dəstəkləməliyik. Bunu üçün operativ fəaliyyət təqdim etməklə yanaşı, biz həmçinin ətraf mühitə təsirimizi azaltmaq sahəsində öz hərəkətlərimizə diqqət yetirməliyik. Karbon qazının atmosferdə məcmu həcmini azaldılmasına töhfə vermək məqsədilə biz əməliyyatlarımızın səmərəliliyini artırmaq hesabına karbon qazı emissiyalarımızı azaltmağa çalışırıq.

## İstehsalat sahələrimizdən İstixana effekti yaradan qazların minimuma endirilməsi üzrə tədbirlər

Zərərli emissiyaların minimuma endirilməsi və əhalinin, eləcə də, ətraf mühitin qorunması Nobel Oil şirkətinin ən əsas prioritetlərindən biridir. İstixana qazlarının emissiyalarının böyük hissəsi fəaliyyətimizdə istifadə olunan enerji və yanacaq istehlakından gəldiyindən, bizim əsas məqsədlərimizdən biri enerjiyə qənaət və daha təmiz yanacağa keçid üçün tədbirlərin görülməsidir.



**↓25%**

***2019-cu ildə biz dizel mühərrikli bəzi yükləyici maşınları əvəz etmək üçün elektrik yükləyicilər satın aldıq. Əməkdaşlar layihələrdə bu maşınlarla gündəlik işləri yerinə yetirilmələrini nəzərə alsaq, biz, ətraf mühitə mənfi təsir göstərən emissiyaların və tullantıların azaldılmasına nail olduq. İndi bu maşınlarla biz yanacaq, yağ, filtrlər, radiator mayesi və adətən daxili yanma mühərriklərinə lazım olan digər əşyalardan daha az istifadə edirik.***

**↓50%**

***Hesabat ilində həyata keçirilmiş daha bir layihəmiz Qlensol törəmə şirkətinin şəffaf dam örtüklü yeni ofisinin tikintisi ilə bağlıdır. Belə otaqların daxilində, ofis təbii işıqla işıqlandırıldığından, rahat mühit daha təmin edilir, bu da insanların sağlamlığına yaxşı təsir göstərir. Bundan əlavə, şüşə konstruksiya istiliyi ələ keçirdiyindən, bu, bizə isitmə və işıqlandırmaya daha az enerji sərf etməyə imkan verir ki, bu da ətraf mühitə mənfi təsir göstərən emissiyaların və tullantıların azalmasına gətirib çıxarır.***

# Karbon xüsusiyyətlərinin gözdən keçirilməsi

Biz bir məsuliyyətli biznes kimi müxtəlif tədbirlər görərək, ofislərimizdə və əməliyyat sahələrimizdə enerji istehlakının azaldılması ilə bağlı qarşımıza məqsədlər qoyuruq. Bizim birbaşa enerji istehlakımız əsasən elektrik, təbii qaz və yanacaq istehlakı ilə bağlıdır.

Xidmət göstərən bir şirkət kimi biz, icarəyə götürülmüş ofis yerlərində və sahə əməliyyatlarında enerjinin faktiki istehlakını ölçə bilmirik, çünki çöl şəraitində enerjinin istehlakının istifadəsi adətən müştərilərimiz tərəfindən təmin edilir və onlar tərəfindən nəzarət olunur. Lakin buna baxmayaraq, biz, təsirimizi azaltmaq imkanlarını başa düşməklə dəyər yaratmağa nail oluruq. Bu səbəbdən, icarəyə götürdüyümüz ofis məkanlarının əksəriyyəti üçün enerji istehlakını enerjinin bir nəfərə nisbətindən istifadə edərək qiymətləndiririk. Belə orta qiymətlərin karbon inventarımıza daxil edilməsi bizə ehtiyatların və istehlakın idarə edilməsi tədbirlərini işləyib hazırlamağa kömək edir.

***Şirkətin istixana qazlarının emissiyaları aşağıdakı qrafikdə göstərilir . Birbaşa istixana qazı emissiyaları (Sahə 1) və dolayı istixana qazı emissiyaları (Sahə 2). Qrafikdə istifadə olunan əsas ölçü vahidi karbon qazının ekvivalentinin metrik tonudur.*** *(Ton CO2 ekv.)*






Hesabat və hesabat vermə prosesi haqqında
Nobel Oil Qrup haqqında
Korporativ idarəetmə
Etika və qanunlara riayət
Davamlı inkişafa yanaşma
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə
Əmək münasibətləri təcrübəsi
Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühit
Keyfiyyətin idarə edilməsi
Satınalma Təcrübəsi
Cəmiyyətə dəstək
GRI standartlarına uyğunluq cədvəli

## Enerji istehlakı

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| Elektrik enerjisi, min kVt/saat | 93 | 2474 | 2963 |
| Yanacaq, ton: | | | |
| benzin | 11,3 | 22 | 21,8 |
| dizel | 8,05 | 8,6 | 614[3] |

# Su istehlakı

Biz başa düşürük ki, su ehtiyatlarının çirklənməsi və zəif idarə edilməsi birbaşa bizim təşkilata, eləcə də icmalara və ətraf mühitə mənfi təsir göstərə bilər.

Bizim törəmə şirkətlərimizdə su ehtiyatlarının səmərəli idarə olunmasının təmin edilməsi, habelə onlara mümkün mənfi təsirlərin aradan qaldırılması üçün bütün zəruri tədbirlər hazırlanmışdır. Layihənin fəaliyyətini və yerini nəzərə alaraq bu tədbirlər çirklənmə və su ehtiyatlarından səmərəsiz istifadə riskinə məruz qaldığı müəyyən edilmiş əməliyyatlarda həyata keçirilir.

Bizim üçün düzgün su istehlakı ətraf mühitin mühafizəsi sahəsində ekologiyaya münasibətimizin bir hissəsidir. Biz əməkdaşlarımızı layihənin həyata keçirilməsi və müntəzəm istifadə üçün sudan effektiv və səmərəli istifadə etməyə çağırırıq.

Su istehlakı haqqında məlumatlar bizim stasionar obyektlərimizi əhatə edir və çöl əməliyyatlarını istisna edir, çünki çöl şəraitində suyun istifadəsi, adətən, bizim müştərilər tərəfindən təmin edilir və onlar tərəfindən nəzarət olunur. Bundan əlavə, su istehlakını tənzimləmək və bu haqda məlumat verə bilməyimiz ofisin yerindən asılıdır, çünki məkanları icarəyə götürdükdə, biz su hesablarını birbaşa ödəmirik və onları idarə etmirik, bu da istehlakımızı və qənaətimizi izləməkdə çətinlik yaradır. Ancaq belə olan hallarda biz suyun bir işçiyə olan nisbətindən istifadə edirik.

***Su istehlakı*[4], *min ton.***




[4]Artım - əməliyyatların həcminin böyüməsi ilə əlaqədardır

# Tullantıların idarə edilməsi

Biz təhlükəsizlik təlimatlarına, ümumi qəbul edilmiş qaydalara riayət edərək, həmçinin ekoloji nəzarəti həyata keçirərək, tullantılar məsələsinə məsuliyyətlə yanaşırıq.

2019-cu ildə biz ehtiyatlarımızın birbaşa istehlakının və yaratdığımız tullantıların azaldılması üçün yeni imkanların axtarışını davam etdirdik. Yaranan tullantıların maksimal mümkün istifadəsinə keçid şirkətin gündəliyində prioritet məsələdir. Bizim Qlensol və Prokon törəmə şirkətlərimizdə tullantıların səmərəli idarə edilməsindən ibarət olan tullantılar üçün yeni pasportlar hazırlanmışdır.

Tullantıların böyük hissəsinin yaranmasına səbəb olan Prokon törəmə tikinti şirkətimizdə podratçı və subpodrat təşkilatları üçün yeni "Tikinti tullantıları ilə rəftar qaydası" hazırlanmışdır. Bu təlimat podratçı və subpodratçı təşkilatlar üçün layihə öncəsi və layihənin aktiv fazasında tikinti işləri zamanı tullantıların idarə edilməsi üçün qayda və prosedurları müəyyən edir. Prosedurda tullantıların düzgün xarakteristikası, emal və saxlanması üçün tələblər təsvir olunur.

## TULLANTILARIN NÖVLƏRİ VƏ ONLARLA RƏFTAR ÜSULLARI




Diaqramdan göründüyü kimi, şirkətdə iki növ əsas tullantı yaranır: təhlükəli və təhlükəsiz. Tullantıların əksəriyyəti təhlükəsiz kateqoriyasına aiddir və ümumi miqdarı layihələrin həcmindən asılı olaraq ildən-ilə dəyişir.

Təhlükəli tullantılarla rəftar edərkən podratçı və subpodratçı təşkilatlar, bizim tövsiyələrimizə riayət edərək bu tip tullantılar olan hər bir konteyneri tərkibi, təhlükənin xüsusiyyətləri, risk ifadələri (R ifadələri) və AİB-in müvafiq Avropa direktivinin təhlükəsizlik (S ifadələri) üzrə tövsiyələrinin göstərildiyi xüsusi etiketlə təmin edir. R-ifadələr təhlükəli maddələr və preparatların nisbi xüsusi riskinə dair göstərişlər verir. S-ifadələr təhlükəli maddələr və preparatlardan istifadə və rəftar edərkən ehtiyat tədbirləri barədə göstərişlər verir.

**Tullantıların ümumi həcmi[5], min m³**




[5]2018-ci il ilə müqayisədə kəskin azalma Prokon şirkətində "Tikinti tullantıları ilə rəftar qaydası"-nın tədbiqi ilə bağlıdır.

# Biomüxtəliflik

Bizim ofislərimiz mühafizə olunan ərazilərdə və ya biomüxtəliflik üçün böyük əhəmiyyətli ərazilərdə və ətrafında olan sahələrdə deyil şəhərlərdə yerləşir. Sahələrdə fəaliyyət göstərən layihə sahibi bu rayonda biomüxtəlifliyə təsir göstərə biləcək fəaliyyətin idarə edilməsinə və Nobel Oil ilə müqavilə daxilində həll edilməli olan hər hansı biomüxtəliflik məsələlərinin müəyyənləşdirilməsinə görə məsuliyyət daşıyır.

Biz məsuliyyətli bir şirkət kimi, məhdud sayda olsa da belə, mümkün təsir sahələrinə ciddi yanaşırıq. Şirkətimiz potensial zərərin qiymətləndirilməsi və təsirin minimuma endirilməsi məqsədilə həll yolları düşünür və onlardan maksimum yararlanmaq üçün uyğun mexanizmlər tətbiq edir.




# Keyfiyyətin idarə edilməsi

**ISO 9001:2015**
Tətbiq olunmuş beynəlxalq standart

**100%**
Məmnuniyyət sorğularda iştirak edən müştərilər

**4/5**
Müştəri məmnuniyyəti sorğusunun nəticəsi (ballar)

# Keyfiyyətin idarə edilməsi sistemi

Nobel Oil şirkəti daim öz xidmətlərinin dəstəklənməsi və keyfiyyətinin yüksəldilməsi proseslərinin səmərəliliyinin artırılması, həmçinin nəzarət rejiminin etibarlılığının artırılması üzərində işləyir. Bizim Qlensol törəmə şirkətində ISO 9001:2015 beynəlxalq standartının tələblərinə cavab verən keyfiyyətin idarə edilməsi sistemi fəaliyyət göstərir. Bu sistem müştərilərimizin tələbatını ödəyən nəticələr əldə etmək üçün yüksək keyfiyyətli xidmətlərin təmin edilməsinə yönəlib.



Keyfiyyətin idarə edilməsi sisteminin effektivliyinin qiymətləndirilməsi daxili və xarici müstəqil audit, bütün müştəri qruplarının məmnunluğunun qiymətləndirilməsi, həmçinin istehlakçılarla qarşılıqlı əlaqənin nəticələrinin təhlili əsasında həyata keçirilir.

Hazırda Qlensol törəmə şirkətimiz Azərbaycanda detalların istehsalına və avadanlıqların yığılmasına başlamağı planlaşdırır. Buna görə də mövcud olan Keyfiyyəti İdarə Etmə Sistemin processlərini API Q1 və API Q2 standartların tələblərinə uyğunlaşdırmağa çalışırıq.

Biz bununla əlaqədar olaraq, yüksək ixtisaslı və sertifikatlaşdırılmış daxili auditorlarımızın apardığı auditlər, eləcə də xarici müstəqil audit əsasında ISO 9001:2015 tələblərinin yerinə yetirilməsi üçün mövcud sistemin çatışmazlıqlarının təhlilini apardıq və API Q1 və Q2 standarların tələblərinə uyğunluğumuzu qiymətləndirdik. Biz, sistemimizin bu üç standartlara uyğunluğunu təmin etmək üçün müəyyən edilmiş bütün boşluqların aradan qaldırılması üzərində işləyirik.

## KEYFİYYƏTİN İDARƏ EDİLMƏSİ SİSTEMİ






# Bizim yanaşmamız

Törəmə şirkətimiz olan Qlensol öz strateji məqsədlərinə, eləcə də keyfiyyətə nəzarət sahəsində məqsəd və vəzifələrinə uyğun olaraq öz keyfiyyətin idarəetmə sisteminin effektivliyini davamlı şəkildə inkişaf etdirməyi hədəfləyir. Keyfiyyətin idarə edilməsi iki komponentə əsaslanır: keyfiyyətin təmin edilməsi və artırılması. Bu səbəbdən biz, mövcud olan "Keyfiyyətin İdarəetmə sistemi"nin daxilində aşağıdakı sistemlərin inkişaf etdirilməsinə daim xüsusi diqqət yetiririk.

**Sənədlərin idarə edilməsi sistemi**

Sənədlərin effektiv idarə edilməsi bizim şirkətimizdə keyfiyyətin idarəetmə sisteminin bir hissəsidir və mükəmməliyin təməlini təşkil edən bir prosesdir. Şirkətimizdə fəaliyyət göstərən bütün növ proseslər sənədləşdirilib və sənədlərin qəbul olunmuş iyerarxiyası üzrə yaradılmışdır. Bütün sənədlər ardıcıllıqla və səmərəliliklə yenilənir, paylanılır, izlənilir və lazım olduqda istifadədən cıxarılır və ya əvəz edilir.

**Uyğunsuzluq hesabatı sistemi**

Bizim keyfiyyətin idarəetmə sistemi faktiki və potensial uyğunsuzluqların öncədən müəyyən edilib aradan qaldırılmasına yönəldilmişdir. Şirkətimizdə uyğunsuzluqların müəyyənləşdirilməsi, sənədləşdirilməsi, təhlili və müvafiq düzəldici tədbirlərin həyata keçirilməsini idarə edən proses qurulmuşdur. Bütün təqdim olunan məhsul və göstərilən xidmət nəticələrindən və idarəetmə sistemi proseslərindən irəli gələn uyğunsuzluqlar araşdırılır və bunların baş verməməsi üçün müfaviq tədbirlər görülür.

**Dəyişikliklərin idarə edilməsi sistemi**

Dəyişikliklərin idarə edilməsi prosesimiz (DİE) yeni risklər aşkarlandıqda və ya əməliyyat planına düzəlişlər edildikdə, dəyişikliklərlə bağlı risklərin idarə olunması üçün nəzərdə tutulub. DİE prosesi xidmətin pozulması və ya yeni təhlükələrin yaranması ehtimalını azaltmaq üçün bütün əməliyyat və texnoloji dəyişikliklərin təhlil edilməsini, planlaşdırılmasını və tətbiq edilməzdən əvvəl təsdiq olunmasını tələb edir.

# Müştəri məmnuniyyəti sorğuları

Bizim Qlensol törəmə şirkəti işimizin səmərəliliyini artırmaq və müştəri məmnuniyyətini maksimum dərəcədə artırmaq üçün mütəmadi olaraq müştəri məmnuniyyəti sorğuları keçirir. Bununla əlaqədar olaraq, şirkət bütün rəylərin, şikayət və təriflərin reyestrini aparır. Biz, bu reyestiri aparmaqla müştərilərimizə şirkətin işinin və keyfiyyətinin xülasəsi kimi hesabatlar təqdim edirik. Hazırda biz bu sistemin inkişafı üzərində işləyirik ki, onu müştərilər və özümüz üçün daha rahat edək.

## MƏMNUNİYYƏT SORĞUSUNUN NƏTİCƏSİ

| Kateqoriya | 2019 |
|---|---|
| Müştəri məmnuniyyəti sorğusunun nəticəsi (ballar) | 4 |
| Sorğularda iştirak edən müştərilər (%) | 100% |




# Satınalma təcrübəsi

**38%**

*Rüşvətxorluq və korrupsiya meyarına görə qiymətləndirilmiş təchizatçılar*

**90%<**

*Yerli təchizatçıların payı*

# Davamlı layihə təchizat zəncirinin idarə olunması

Nobel Oil mal və xidmət təchizatçıları ilə qarşılıqlı fayda əsasında işgüzar əlaqələrin qurulmasına böyük diqqət ayırır. Biz qərəzsiz və düzgün fəaliyyət göstərərək, bütün tərəflərin maraqlarını nəzərə almağa çalışırıq. Bu səbəbdən biz təchizat zəncirinin şəffaflığını və rəqabət qabiliyyətini təmin edirik və özümüzlə yanaşı təchizatçılarımız üçün də yüksək standartlar müəyyən etmək məqsədilə müvafiq tədbirlər görürük. Yüksək səviyyəyə çatmaq və təchizatçılarımız ilə müqavilələrin qarşılıqlı hörmət əsasında, dürüst və səmərəli şəkildə bağlanmasına zəmanət vermək üçün, biz əməliyyat metodlarımızı və müvafiq daxili prosedurları daim təkmilləşdiririk. Biz təchizatçılarla əməkdaşlıq edərək, hər zaman davamlı inkişafa sadiqliyimizin bir hissəsi olan təchizat zəncirimizin idarə olunmasının effektivliyini artırmağa çalışırıq.

**Şirkətimiz öz satınalma sistemi üzrə SAP və Opentext kimi proqram təminatlarından istifadə etməklə daxili sənədlərin rəqəmsallaşdırılması üçün mühüm addımlar atıb. Bu proqramlara istifadəyə daxili satınalma sorğusunun, satınalma sifarişinin, müqavilə sorğularının yaradılması və təsdiqlənməsi aiddir.**

Fəaliyyətin xüsusiyyətindən asılı olaraq, biz təchizatçıların iştirakını, onların seçimini və onlarla sonrakı işimizi tənzimləyən bir neçə prosedurdan ibarət təchizatçıların idarəetmə sistemini tətbiq edirik. Mal, iş və xidmət təchizatçılarının seçimi Azərbaycan Respublikasının 24 iyun 2011-ci il tarixli Gömrük Məcəlləsi, kommersiya nəzarəti və satınalma proseduru da daxil olmaqla bir sıra digər daxili prosedurların tələblərinə uyğun olaraq tənzimlənir. Tenderdə qalib gəlmiş təşkilatla müqavilə bağlanır və bu müqavilə əsasında, hər iki tərəfin qarşılıqlı münasibətlərinin sonrakı tənzimlənməsi həyata keçirilir.

2019-cu ildə Nobel Oil elektron satınalma sisteminin yaradılması üzrə işləri davam etdirib ki, korporativ ofis çərçivəsində elektron satınalma prosesini genişləndirə bilsin. Biz inanırıq ki, bu platforma qrupun bütün şirkətlərinə şamil olunacaq və nəticədə daxili məhsuldarlıq artıracaq. Şirkətimiz öz satınalma sistemi üzrə SAP və Opentext kimi proqram təminatlarından istifadə etməklə daxili sənədlərin rəqəmsallaşdırılması üçün mühüm addımlar atıb. Bu proqramlara istifadəyə daxili satınalma sorğusunun, satınalma sifarişinin, müqavilə sorğularının yaradılması və təsdiqlənməsi aiddir. Bunun sayəsində satınalma zəncirində şəffaflıq və hesabatlılıq tam şəkildə təmin olunub. Növbəti ildə bu və başqa proqram təminatlarından istifadə etməklə digər satınalma sənədlərinin də rəqəmsallaşdırılması planlaşdırılır.

Məsuliyyətli bir şirkət kimi biz anlayırıq ki, məhsul və xidmətləri təchiz edərək təchizatçılarımızın cəmiyyətə və ətraf mühitə təsir edən faktorlara öz töhfəmizi vermiş oluruq. Bu səbəbdən də bizim üçün əsas prioritetlərdən biri müsbət iqtisadi və sosial töhfəmizi maksimum dərəcədə artırmaq və ətraf mühitə təsirimizi minimuma endirməkdir. Biz mühəndislərə və tikinti layihəçilərinə müştərilərlə əməkdaşlıq edərək və büdcə məhdudiyyətlərini nəzərə alaraq bizim müştərilərimizin layihələri üçün daha dayanıqlı tikinti materialları, avadanlıq və xidmətlərin seçimində kömək edirik. Biz həmçinin texnologiyalar, xidmətlər, dəftərxana malları və interyer əşyaları kimi daxili əməliyyatlar üçün uzunmüddətli və qiymətli sazişlər əsasında davamlılığın yoxlanılmasını həyata keçiririk.

SATINALMA PROSESİNİN SXEMİ






# Subpodratçı və təchizatçının ilkin kvalifikasiyası prosesi



Biz hər bir layihəyə başlamazdan öncə onun reallaşdırılması üçün konkret parametrlərini və məqsədlərini nəzərdən keçirərək, şirkətin əlaqə dairəsinə qoşularaq hədəflərimizə uyğun olan və müştərilərimizin səylərini dəstəkləyən optimal tərəfdaşlarımızı araşdıraraq seçirik.

Şirkət ilə əlaqələrin başlanğıcında, təchizatçılar ilkin kvalifikasiya prosedurundan keçirlər. Bu nizama salınmış və hərtərəfli qiymətləndirilmə prosesi subpodratçı və ya təchizatçının Nobel Oil şirkətinin əməliyyatları və ya müştərilərin layihəsi üçün səbəb ola bilək potensial riskləri və ya təhlükələri aşkarlamağa kömək edir. Şirkətdə tətbiq edilmiş bu prosedur təchizatçının yoxlanılması üzrə əməliyyatların ardıcıllığını təsvir edir və prosesin hər bir mərhələsi üçün ətraflı təsəvvür yaradır. Bu prosedurun yaradılması bütün Qrup üçün vahid yanaşma müəyyən etmiş və bazarda biznesə olan müsbət təsirini artırmışdır.

Bu prosedur yalnız tenderdə iştirak etmək üçün dəvət olunmuş təchizatçılar üçün və ya təkliflərin verilməsi zamanı işə salınır. Şirkətdə mövcud olan təchizatçıların yoxlanılmış siyahısı iş həcminin yerinə yetirilməsinə və ya müqavilənin verilməsinə dair heç bir hüquq vermir, çünki müqavilənin verilməsi şirkətin satınalma prosedurunda təsvir edilən müsabiqə hərracları prosesinə əsaslanmalıdır.

Bizim kompleks və təhlükəsizlik yoxlaması proseslərimiz kvalifikasiya öncəsi və ya tenderdə iştirak mərhələsində satınalma rəhbərləri tərəfindən göndərilən daxili və xarici anketlər əsasında təchizatçıların fəaliyyətinin araşdırılmasına aiddir. Qiymətləndirmə zamanı toplanmış bütün məlumatlar etika və komplayens üzrə sənədlərdə saxlanılır və hər altı aydan bir yenilənir. Tenderdən asılı olaraq, əlavə yoxlama tələb olunarsa, bu prosesdə zərurət yarandıqca şirkətin hüquqi, maliyyə və sağlamlıq, əməyin texniki təhlükəsizliyi, ətraf mühitin mühafizəsi (SƏTTƏMM) kimi müvafiq bölmələri də iştirak edir.

Bundan başqa, bizim təchizatçıların kvalifikasiya prosesində əsas yanaşmalarımızdan biri də təchizatçı ilə müqavilə imzalanarkən müqaviləyə rüşvətxorluq və korrupsiya ilə mübarizə haqqında şirkətin Əsasnamənin və Audit hüququnun bəndinin daxil edilməsidir. Bu, potensial korrupsiya və fırıldaqçılıq risklərinin qarşısını almaq üçün təchizatçıların Nobel Oil şirkətinin daxili qaydalarına və prosedurlarına uyğunluğunu təmin etməyə imkan verir. Şübhəli əməliyyatlar və pozuntular halında, şirkət təchizatçı daxilində müntəzəm yoxlamalara başlaya bilər.

İlkin kvalifikasiya kimi, layihədən sonra nəzərdən keçirilmə də eyni dərəcədə vacib addımdır. Hər bir layihə tamamlandıqda biz təchizatçılarla və subpodratçılarla öhdəliklərimizin nəticələrini təhlil edirik. Təchizatçılar haqqında onların öhdəlikləri və fəaliyyət tarixçəsi haqqında informasiyanı əks etdirən məlumat bazamız əsasında təchizatçının kompleks qiymətləndirilməsi aparılır. Bu təhlil təchizatçılarla və subpodratçılarla münasibətimizi yaxşılaşdırmağa və hər bir yeni layihə üçün hazırladığımız təchizat zəncirinin hər bir həll yolunun əvvəlkindən daha yaxşı olması üçün tərəfdaşların siyahısını təkmilləşdirməyə imkan verir.

Bizim qiymətləndirməmizin nəticələrinə əsasən korporativ tələblərimizə uyğunsuzluq nümayiş etdirən təchizatçılar tenderlərdə iştiraka buraxılmırlar. Hər hansı təchizatçı xidmət və materialları müntəzəm olaraq gözlənilən səviyyədə təqdim edə bilmirsə və bu cür dayanmalar təchizatçıların nəzarətində olan səbəbdən baş verirsə, belə təchizatçı karantin siyahısına köçürülür və dayanmaların səbəbləri aradan qaldırılana və müvafiq izahatlar təqdim edilənə qədər xidmət və materialların təqdim edilməsi dayandılır.

Aşağı məhsuldarlıqla bağlı problemləri aradan qaldırmamış, eləcə də müsabiqə hərraclarının keçirilməsi və müqavilələrin icrası zamanı pozuntulara yol vermiş təchizatçı onun Nobel Oil şirkətlər Qrupunun hər hansı bir layihəsində iştirakını tamamilə təcrid edən qadağan olunmuş siyahıya köçürülür. Bu yanaşma həmçinin, kompleks yoxlama və təhlükəsizlik yoxlamasını keçməmiş təchizatçılara da tətbiq edilir.

Hesabat və hesabat vermə prosesi haqqında
Nobel Oil Qrup haqqında
Korporativ idarəetmə
Etika və qanunlara riayət
Davamlı inkişafa yanaşma
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə
Əmək münasibətləri təcrübəsi
Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühit
Keyfiyyətin idarə edilməsi
Satınalma Təcrübəsi
Cəmiyyətə dəstək
GRI standartlarına uyğunluq cədvəli



# Təchizatçıların müxtəlifliyinin dəstəklənməsi

Ölkədə ən iri alıcılardan biri olaraq, biz hər il böyük həcmdə mal, iş və xidmət alır və çoxlu sayda təsərrüfat subyektini kommersiya münasibətlərinə cəlb edirik. Nobel Oil şirkəti keyfiyyətli və rəqabətqabiliyyətli təchizat zəncirinin qurulması və saxlanılmasının vacibliyini başa düşür və fəaliyyət göstərdiyi ölkələrdə yerli təchizatçıların inkişafında, beləliklə də, həm birbaşa həm də dolayı olaraq ölkənin iqtisadiyyatında mühüm rol oynayır. Şirkətin satınalma fəaliyyəti təchizatçılarımıza maliyyə sabitliyini qoruyub saxlamağa və artırmağa, iş yerlərini saxlamağa və onları inkişaf etdirməyə kömək edir.

Nobel Oil bütün xidmətlərimizin dəyərini artıran təchizatçılarla möhkəm münasibətlərin yaradılmasına can atır. Biz təchizatçı bazamızı daim optimallaşdırmağa və satın aldığımız məhsulların, komponentlərin və xidmətlərin keyfiyyətini və uzunömürlülüyünü güzəştə getmədən ən yaxşı kommersiya təkliflərini əldə etməyə çalışırıq. Biz güclü dəyərlər və hərtərəfli davranış kodeksinə sadiqlik nümayiş etdirən, qanun çərçivəsində və etik şəkildə davranan təchizatçıları axtarırıq.

2019-cu ildə şirkətin təchizat zəncirində təşkilati dəyişikliklər nəticəsində əhəmiyyətli yeniliklər baş verməyib. Təchizatçılar və subpodratçılar layihələrimiz üzrə materiallar, mühəndis avadanlıqları, hazır məmulatlar, peşəkar və texniki xidmətlər və tikinti xidmətləri təqdim edirlər. Şirkətin təchizat zəncirindəki əsas təchizatçıları aşağıdakı kateqoriyalar üzrə bölmək olar:

| Nobel Oil təchizat zənciri | Glensol təchizat zənciri | Prokon təchizat zənciri |
|---|---|---|
| Peşəkar və konsultasiya xidmətləri;<br>Bank və sığorta xidmətləri;<br>İnformasiya texnologiyaları;<br>Otel xidmətləri;<br>Ofis malları;<br>Təlim xidmətləri;<br>Səyahət xidmətləri | Xammal və materiallar;<br>Logistika və daşınma;<br>Sənaye avadanlıqları və maşınlar;<br>Elektrik avadanlıqları;<br>Maşın və avadanlıqların icarəsi; Fərdi Təhlükəsizlik Vasitələri;<br>Transport xidmətləri | Tikinti xidmətləri;<br>Sənaye avadanlıqları və maşınlar;<br>Xammal və materiallar;<br>Elektrik avadanlıqları;<br>Maşın və avadanlıqların icarəsi;<br>Fərdi Təhlükəsizlik Vasitələri;<br>Nəqliyyat xidmətləri |

## NOBEL OİL VƏ TÖRƏMƏ ŞİRKƏTLƏRİNDƏ YERLİ TƏCHİZATÇILARIN PAYI





Hesabat və hesabat vermə prosesi haqqında
Nobel Oil Qrup haqqında
Korporativ idarəetmə
Etika və qanunlara riayət
Davamlı inkişafa yanaşma
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə
Əmək münasibətləri təcrübəsi
Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühit
Keyfiyyətin idarə edilməsi
Satınalma Təcrübəsi
Cəmiyyətə dəstək
GRI standartlarına uyğunluq cədvəli



# Cəmiyyətə dəstək

**3**
Həyata keçirilmiş layihə

**22**
Tələbə təcrübə proqramı

**50<**
Əlilliyi olan şəxslər üçün keçirilən təlimlərin sayı

# Əlilliyi olan şəxslərin məşğulluq imkanlarının artırılmasına dəstək layihəsi



Nobel Oil, Azərbaycanda BP və tərədaşları tərəfindən dəstəklənən və British Council tərəfindən icra olunan Bakı şəhərində əlilliyi olan insanlar üçün iş imkanlarının artırılması layihəsinin həyata keçirilməsinə töhfə vermişdir.

Əlilliyi olan şəxslərin cəmiyyətə adaptasiyasının asanlaşdırılması məqsədilə həyata keçirilmiş bu layihədə Nobel Oil şirkəti "müştəri xidmətləri" mövzusunda peşəkar təlim verilmişdir. Hər biri üçün dörd saat olmaqla dörd qrup üçün nəzərdə tutulmuş təlimdə iki gün ərzində 50-dən çox əlilliyi olan şəxs iştirak etmişdir.

Bundan başqa, sözügedən layihə çərçivəsində, biz, 2018 və 2019-cu illərdə, əlilliyi olan insanların müsahibə bacarıqlarını inkişaf etdirmək məqsədilə 20-dən çox açıq müsahibəyə qatılaraq dəstək olmuşuq. Nobel Oil bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlığını təmin etmək məqsədilə, 2020-ci ildə British Council tərəfindən təşkil olunacaq əmək yarmarkasında iştirak etməyi planlaşdırır.

***Bizim strateji məqsələrdən biri də müxtəlif sosial və xeyriyyə proqramları vasitəsilə fəaliyyət göstərdiyimiz regionların inkişafını və sosial-iqtisadi dayanıqlığını dəstəkləməkdir. Korporativ sosial məsuliyyətə xüsusi diqqət yetirən məsuliyyətli bir şirkət kimi biz, fəaliyyət göstərdiyimiz ölkələrdə cəmiyyətə töhfə vermək üçün daim imkanlar axtarırıq. Nobel Oil korporativ sosial məsuliyyət prinsiplərinə əməl edərək mədəniyyət, idman və təhsil sahəsində proqram və layihələr həyata keçirərək yerli icmaları daim dəstəkləyir.***

# "Məhdud imkanları olan gənclərin dəstəklənməsi" layihəsi

Nobel Oil əlilliyi olan şəxslərə daim diqqətlə yanaşaraq onlara güclü tərəflərini göstərə biləcəkləri iş mühiti yaratmağa çalışır. Bu məqsədlə biz 90 nəfərdən artıq həssas qrupdan olan insanları iş ilə təmin etmişik. Bunun davamı olaraq sözügedən əmək yarmarkaları vasitəsilə yeni namizədlərin də cəlb ediləcəyi gözlənilir.

Nobel Oil 2019-cu ildə məhdud imkanları olan gəncləri dəstəkləmək məqsədilə təşkil edilmiş əmək sərgisində iştirak edib. Tədbir zamanı şirkətinin nümayəndələri gənc namizədlərə şirkətin fəaliyyəti ilə tanış edib və namizədlərə mövcud vakansiyalar barədə məlumat verib. Sonrakı mərhələdə, biz, ilkin müsahibə görüşləri üçün tələbələrdən və məzunlardan onlarla müraciət aldıq.




# Yay təcrübəsi proqramı

Nobel Oil tələbələrə dəstək məqsədilə 2019-ci il ərzində 4-dən çox əmək yarımarkasında aktiv iştirak edib və yay təcrübə proqramı layihəsini həyata keçirtməyə nail olub. Yay təcrübə proqramı çərçivəsində şirkətə 1500-dən çox tələbə müraciət edib. Musahibə seçimlərinə əsasən 22 tələbə 2 ay müddətində müxtəlif şöbələrdə təcrübə keçmək imkanı qazanıb. Sözügedən yay təcrübə programına müxtəlif bölgələrdən gələn və təcrübə keçmək imkanı az olan tələbələri cəlb edərək, Nobel Oil şirkətlər qrupu əsasən təcrübəsi az olan tələbələrə iş mühitində öz bacarıqlarını ifadə etmək üçün imkan yaradıb.

Hesabat və hesabat vermə prosesi haqqında
Nobel Oil Qrup haqqında
Korporativ idarəetmə
Etika və qanunlara riayət
Davamlı inkişafa yanaşma
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə
Əmək münasibətləri təcrübəsi
Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühit
Keyfiyyətin idarə edilməsi
Satınalma Təcrübəsi
Cəmiyyətə dəstək
GRI standartlarına uyğunluq cədvəli

# GRI standartlarına uyğunluq cədvəli

| GRI standartları və açıqlamalar | Qeyd | Hesabatın bölməsi (alt bölməsi) |
|---|---|---|
| **GRI 102: Ümumi açıqlamalar – Təşkilatın profili** | | |
| 102-1. Təşkilatın adı | | Hesabat və hesabat vermə haqqında |
| 102-2. Əsas fəaliyyət, brendlər, məhsul və xidmətlər | | Biznes dəyərin yaradılması |
| 102-3. Təşkilatın qərargahının yerləşdiyi ünvan | | Nobel Oil Qrup haqqında |
| 102-4. Əməliyyatların coğrafi ərazisi | | Biznes dəyərin yaradılması |
| 102-5. Mülkiyyətin xüsusiyyəti və təşkilati-hüquqi forması | | Nobel Oil Qrup haqqında |
| 102-6. Xidmət göstərilən bazarlar | | Biznes dəyərin yaradılması |
| 102-7. Təşkilatın miqyası | | Biznes dəyərin yaradılması |
| 102-8. Əməkdaşlar və digər işçilər üzrə məlumat | | Əmək münasibətləri təcrübəsi |
| 102-9. Təşkilatın təchizat zənciri | | Təchizatçıların müxtəlifliyinin dəstəklənməsi |
| 102-10. Təşkilatda və təchizat zəncirində baş vermiş əhəmiyyətli dəyişikliklər | | Qrupun yeni strategiyası; |
| 102-11. Təşkilatda "ehtiyatlı yanaşma" prinsipi | | Risklərin idarə edilməsi;<br>Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühitə yanaşmamız |
| 102-12. Təşkilat xarici təşəbbüslər | | Hesabat boyu |
| 102-13. Təşkilatın assosiasiyalarda üzvlüyü | | Hesabat boyu |
| **GRI 102: Ümumi açıqlamalar – Strategiya** | | |
| 102-14. Yüksək vəzifəli qərar qəbul edən şəxsin bəyanatı | | Baş icraçı direktorumuzun giriş sözü |
| 102-15. Əsas təsirlər, risklər və imkanların təsviri | | Hesabatın məzmununu müəyyənləşdirən prinsiplər;<br>Risklərin idarə edilməsi |
| **GRI 102: Ümumi açıqlamalar – Etika və düzgünlük** | | |
| 102-16. Təşkilatın dəyərləri, prinsipləri, standartları və etik davranış normaları | | Baxış, Missiya və Dəyərlər; |
| 102-17. Etik məsələlər ilə əlaqədar məsləhət və müraciət mexanizmləri | | Biznes etikası və davranış qaydaları;<br>Korrupsiyaya qarşı mübarizə |
| **GRI 102: Ümumi açıqlamalar – İdarəetmə** | | |
| 102-18. İdarəetmə strukturu | | Korporativ idarəetmə sistemi |
| 102-19. Səlahiyyətlərin ötürülməsi | | Direktorlar şurasının komitələri |



| GRI standartları və açıqlamalar | Qeyd | Hesabatın bölməsi (alt bölməsi) |
|---|---|---|
| 102-20. İqtisadi, ekoloji və sosial mövzular üzrə rəhbərlik səviyyəsində məsuliyyət | | Direktorlar şurası;<br>Direktorlar şurasının komitələri |
| 102-21. İqtisadi, ekoloji və sosial mövzulara dair maraqlı tərəflər ilə şirkətin ali idarəetmə orqanı arasında mövcud olan konsultasiya | | Maraqlı tərəflərlə qarşılıqlı əlaqə prinsipləri |
| 102-22. Ali idarəetmə orqanının və komitələrin tərkibi | | Direktorlar şurası;<br>Direktorlar şurasının komitələri |
| 102-23. Ali idarəetmə orqanının sədri | | Korporativ idarəetmə strukturu |
| 102-24. Ali idarəetmə orqanının namizədliyi və seçilməsi | | Direktorlar şurası; |
| 102-25. Maraqların toqquşması | | Maraqların toqquşmasının qarşısının alınması |
| 102-26. Məqsəd, dəyər və strategiyanın təyin olunmasında ali idarəetmə orqanının rolu | | Direktorlar şurası; |
| 102-27. Ali idarəetmə orqanının kollektiv biliyi | | Direktorlar şurası; |
| 102-28. Ali idarəetmə orqanının fəaliyyətinin qiymətləndirilməsi | | Direktorlar şurası; |
| 102-29. İqtisadi, ekoloji və sosial təsirlərin müəyyənləşdirilməsi və idarə olunması | | Direktorlar şurasının komitələri |
| 102-30. Risklərin idarə olunması prosesinin effektivliyi | | Risklərin idarə edilməsi |
| 102-31. İqtisadi, ekoloji və sosial mövzuların təkrar gözdən keçirilməsi | İqtisadi, ekoloji və sosial məsələlərə dair aylıq, rüblük və illik hesabatlar rəhbərliyə təqdim olunur. | Hesabat boyu |
| 102-32. Ali idarəetmə orqanının dayanıqlı inkişaf hesabatında rolu | | Davamlı inkişaf sahəsində yanaşma |
| 102-33. Vacib məsələlər haqqında ali idarəetmə orqanının məlumatlandırılması | | Direktorlar şurası;<br>Direktorlar şurasının komitələri |
| 102-34. Vacib məsələlərin təbiəti və ümumi sayı | | Hesabatın məzmununu müəyyənləşdirən prinsiplər |
| 102-35. Ali idarəetmə orqanının və rəhbər şəxslərin mükafatlandırma siyasəti | | Mükafatlandırma və motivasiya sistemi |
| 102-36. Mükafatlandırmanı müəyyən edən proses | | Mükafatlandırma və motivasiya sistemi |
| **GRI 102: Ümumi açıqlamalar – Maraqlı tərəflərlə münasibətlər** | | |
| 102-40. Maraqlı tərəf qruplarının siyahısı | | Maraqlı tərəflər qrupu |
| 102-41. Kollektiv əmək müqavilələri | | İnsan resurslarına yanaşma və onun idarə edilməsi |
| 102-42. Maraqlı tərəfləri müəyyən etmək və seçmək üçün əsas proseslər və üsullar | | Maraqlı tərəflərlə qarşılıqlı əlaqə prin-sipləri |
| 102-43. Maraqlı tərəflərin cəlb edilməsinə yanaşma | | Qarşılıqlı əlaqə formaları və müzakirə olunan mövzular |
| 102-44. Maraqlı tərəflərin cəlb edilməsi nəticəsində qaldırılmış əsas mövzular və məsələlər | | Qarşılıqlı əlaqə formaları və müzakirə olunan mövzular |

# GRI standartlarına uyğunluq cədvəli

| GRI standartları və açıqlamalar | Qeyd | Hesabatın bölməsi (alt bölməsi) |
|---|---|---|
| **GRI 102: Ümumi açıqlamalar – Hesabatlılıq təcrübəsi** | | |
| 102-45. Birləşdirilərək daha effektiv hala gətirilmiş edilmiş maliyyə hesabatlarına daxil olan müəssisələr | | Aktivlərin strukturu |
| 102-46. Hesabat məzmununun və mövzuların müəyyənləşdirilməsi | | Hesabatın məzmununu müəyyənləşdirən prinsiplər |
| 102-47. Əhəmiyyətli mövzuların siyahısı | | Müəyyən edilmiş əhəmiyyətli mövzularının siyahısı |
| 102-48. Əvvəlki hesabatlarda əks olunmuş məlumatların dəyişdirilməsi | | Hesabatın məzmununu müəyyənləşdirən prinsiplər |
| 102-49. Hesabatlılıq üzrə baş vermiş dəyişikliklər | | Hesabatın məzmununu müəyyənləşdirən prinsiplər |
| 102-50. Hesabat dövrü | | Hesabat verme prosesinin təşkili |
| 102-51. Ən son hesabatın tarixi | | Hesabat vermə prosesinin təşkili |
| 102-52. Hesabatın dərc olunma tezliyi | | Hesabat vermə prosesinin təşkili |
| 102-53. Hesabat və hesabatın məzmunu ilə bağlı yaranmış suallar üçün əlaqə vasitəsi | | Kamran Məhərrəmov k.maharramov@nobeloil.com |
| 102-54. Hesabatın GRI standartlarına uyğun olaraq hazırlanması iddiası | | Hesabat vermə prosesinin təşkili |
| 102-55. GRI məzmun indeksi | | GRI standartlarına uyğunluq cədvəli |
| 102-56. Müstəqil audit | | |
| **GRI 103: İdarəetməyə yanaşma** | | |
| 103-1. Əhəmiyyətli mövzular və onların hüdudlarının izahı | | Hesabatın məzmununu müəyyənləşdirən prinsiplər |
| 103-2. İdarəetməyə yanaşma və onun komponentləri | | Hesabat boyu |
| 103-3. İdarəetməyə yanaşmanın qiymətləndirilməsi | | Hesabat boyu |
| **GRI 201: İqtisadi fəaliyyət** | | |
| 201-1. Əldə edilmiş birbaşa iqtisadi dəyər və onun paylaşdırılması | | İqtisadi göstəricilər |
| 201-3. Müəyyən edilmiş imtiyazlar planı üzrə öhdəliklər və digər pensiya planları | | Mükafatlandırma və motivasiya sistemi |
| 201-4. Dövlətdən alınan maliyyə yardımı | Hesabat ili ərzində dövlətdən maliyyə yardımı alınmamışdır. | |
| **GRI 202: Bazarda mövcudluq** | | |
| 202-1. Yerli minimal əmək haqqı ilə müqayisədə cinslərə görə standart əmək haqqı | | Mükafatlandırma və motivasiya sistemi |
| 202-2. Yerli əhalidən olan rəhbərliyin payı | Nobel Oil Azərbaycan üzrə rəhbərlik nümayəndələrinin 60%-i Azərbaycan vətəndaşıdır | |



| GRI standartları və açıqlamalar | Qeyd | Hesabatın bölməsi (alt bölməsi) |
|---|---|---|
| **GRI 203: Dolayı iqtisadi təsirlər** | | |
| 203-1. İnfrastruktur sərmayələri və dəstəklənən xidmətlər | | Cəmiyyətə dəstək |
| 203-2. Əhəmiyyətli dolayı iqtisadi təsirlər | | Cəmiyyətə dəstək |
| **GRI 205: Anti-korrupsiya** | | |
| 205-1. Korrupsiya riski üzrə qiymətləndirilmiş əməliyyatlar | | Korrupsiyaya qarşı mübarizə; Subpodratçı və təchizatçının ilkin kvalifikasiyası prosesi |
| 205-2. Anti-korrupsiya siyasət və prosedurları üzrə keçirilmiş təlim və kommunikasiya | | Korrupsiyaya qarşı mübarizə; |
| 205-3. Qeydə alınmış korrupsiya halları və bu halların qarşısını almaq üçün həyata keçirilmiş tədbirlər | | Məlumat açıqlanmamışdır |
| **GRI 206: Anti-rəqabət davranışı** | | |
| 206-1. Sağlam olmayan rəqabət davranışları, etimadsızlıq və monopoliya təcrübələri üzrə hüquqi tədbirlər | | İnhisarçılığa və rəqabətə qarşı qanunvericilik qaydalarına riayət olunması |
| **GRI 302: Enerji** | | |
| 302-1. Təşkilat üzrə enerji sərfiyyatı | | Karbon xüsusiyyətlərinin gözdən keçirilməsi |
| 302-4. Enerji sərfiyyatının azaldılması | | İqlim dəyişikliyinə təsirimiz |
| **GRI 303: Su** | | |
| 303-1. Mənbələrə görə alınan suyun ümumi miqdarı | | Su istehlakı |
| 303-2. Su mənbələrinin suyun istifadəsindən ciddi təsirə məruz qalması | Hesabat dövrü ərzində bu cür hallar baş verməmişdir. | |
| **GRI 304: Biomüxtəliflik** | | |
| 304-1. Qorunan ərazilər və yüksək biomüxtəliflik dəyəri olan ərazilər və ya bitişik ərazilərdə mövcud olan əməliyyat sahələri | Nobel Oil şirkətinin heç bir əməliyyat sahəsi qorunan və ya yüksək biomüxtəliflik dəyərinə malik olan əraziləri əhatə etmir. | |
| 304-2. Əməliyyatların, məhsulların və xidmətlərin biomüxtəlifliyə ciddi təsirləri | | Biomüxtəliflik |
| **GRI 305: Emissiyalar** | | |
| 305-1. İstixana effekti yaradan qazların (İEYQ) birbaşa emissiyası (Sahə 1) | | Karbon xüsusiyyətlərinin gözdən keçirilməsi |
| 305-2. İEYQ dolayı emissiyası (Sahə 2) | | Karbon xüsusiyyətlərinin gözdən keçirilməsi |
| 305-5. İEYQ emissiyalarında azalmalar | | İqlim dəyişikliyinə təsirimiz |
| 305-6. Ozon qatını məhv edən emissiyalar | Fəaliyyətə uyğun deyil | |

| GRI standartları və açıqlamalar | Qeyd | Hesabatın bölməsi (alt bölməsi) |
|---|---|---|
| **GRI 306: Atqılar və tullantılar** | | |
| 306-2. Növünə və ləğv olunma metoduna görə tullantılar | | Tullantıların idarə edilməsi |
| 306-3. Əhəmiyyətli dağılmalar | Hesabat dövrü ərzində bu cür hallar baş verməmişdir. | |
| 306-4. Təhlükəli tullantıların həcmi | | Tullantıların idarə edilməsi |
| 306-5. Su axıdılması və ya dağıdılması nəticəsində təsirə məruz qalan su obyektləri | Hesabat dövrü ərzində bu cür hallar baş verməmişdir. | |
| **GRI 307: Ətraf mühit üzrə uyğunluq** | | |
| 307-1. Ekoloji qanun və təlimatlarla uyğunsuzluq | | Ekoloji normalara uyğunluq |
| **GRI 401: Məşğulluq** | | |
| 401-1. Yeni işə götürülən işçilər və işçi dövriyyəsi | | İnsan resurslarına yanaşma və onun idarə edilməsi |
| 401-2. Müvəqqəti və yarımştat işçilərə təklif olunmayan, lakin tamştat işçilərə təqdim olunan əlavə ödəmələr, güzəştlər və imtiyazlar | | Mükafatlandırma və motivasiya sistemi |
| **GRI 402: İşçi və rəhbər əlaqələri** | | |
| 402-1. Əməliyyat dəyişiklikləri ilə bağlı minimal bildiriş müddətləri | Keçən ilki hesabatda bu haqda ətraflı məlumat verilmişdir. Biz Azərbaycan Respublikasının Əmək Məcəlləsinin qaydalarına tam riayət edirik. | |
| **GRI 403: Əməyin texniki təhlükəsizliyi və sağlamlığı** | | |
| 403-1. Rəsmi işçi-rəhbər sağlamlıq və təhlükəsizlik komitələrində işçilərin təmsil olunması | | Direktorlar şurasının komitələri |
| 403-2. Zədə hadisələri və əmsalları, itirilmiş iş günləri, peşə xəstəlikləri, iş yerində olmama əmsalı və iş yerində ölüm hadisələri | | Zədələnmə üzrə hesabat |
| 403-3. Peşə ilə əlaqədar qəza və ya xəstəliyə tutulma ehtimalı yüksək olan işçilər | | İş yerində əməyin mühafizəsi və təhlükəsizliyi |
| **GRI 404: Təlim və təhsil** | | |
| 404-1. Bir əməkdaşın payına düşən illik təlim saatları | | Yüksək ixtisaslı işçi qüvvəsinin təmin edilməsi |
| 404-2. İşçi bacarıqlarının artırılması və keçid üzrə təlimlər | | Yüksək ixtisaslı işçi qüvvəsinin təmin edilməsi |
| **GRI 405: Müxtəliflik və bərabər imkanlar** | | |
| 405-1. İdarəetmə orqanlarının və işçilərin müxtəlifliyi | | Müxtəliflik və inkluzivlik |
| 405-2. Başlanğıc əmək haqqı və mükafatlandırma üzrə qadınların kişilərə olan nisbəti | Şirkətdə əmək haqqı və mükafatlandırma cinsə görə dəyişmir. | |
| **GRI 406: Ayrı seçkiliyin olmaması** | | |
| 406-1. Ayrı-seçkilik hadisələri və onların qarşısını almaq üçün görülmüş tədbirlər | Hesabat dövrü ərzində müvafiq hallar baş verməmişdir. | |



| GRI standartları və açıqlamalar | Qeyd | Hesabatın bölməsi (alt bölməsi) |
|---|---|---|
| **GRI 407: Assosiasiya azadlığı və kollektiv müqavilələr** | | |
| 407-1. Fəaliyyət çərçivəsində assosiasiya azadlığını və kollektiv müqavilələrin istifadəsi haqqını risk altına salan əməliyyatlar və təchizatçılar | Hesabat dövründə assosiasiya azadlığını və kollektiv müqavilələrin istifadəsi haqqını risk altına salan əməliyyatlar və təchizatçılar olmamışdır. | |
| **GRI 408: Uşaq əməyi** | | |
| 408-1. Uşaq əməyinin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar | Hesabat dövrü ərzində "Nobel Oil"-in heç bir əməliyyatında və ya əməkdaşlıq etdiyi təchizatçı və podratçıların əməliyyatlarında uşaq əməyi istismarı halı aşkar edilməmişdir. | |
| **GRI 409: Məcburi əmək** | | |
| 409-1. Məcburi əməyin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar | Hesabat dövrü ərzində müvafiq hallar baş verməmişdir. | |
| **GRI 410: Təhlükəsizlik təcrübələri** | | |
| 410-1. Təhlükəsizlik işçilərinin insan haqqları üzrə siyasət və prosedurlar üzrə təlim keçməsi | Şirkətdə işə yeni daxil olan bütün işçilər iş yerində işə başlamazdan qabaq ilkin təlimatlar alır. | |
| **GRI 411: Yerli xalqların hüquqları** | | |
| 411-1. Yerli xalqların haqqlarının pozulması insidentləri | Hesabat dövrü ərzində müvafiq hallar baş verməmişdir. | |
| **GRI 412: İnsan hüquqlarının qiymətləndirilməsi** | | |
| 412-1. İnsan haqqlarının pozulması və təsirləri üzrə gözdən keçirilmiş və qiymətləndirilmiş əməliyyatlar | Hesabat dövrü ərzində insan haqlarının pozulması halları baş verməmişdir. | |
| **GRI 413: Yerli icmalar** | | |
| 413-1. Yerli icmaların cəlb olunması, təsirlərin qiymətləndirilməsi və inkişaf proqramları | | Cəmiyyətə dəstək |
| **GRI 414: Təchizatçıların sosial qiymətləndirilməsi** | | |
| 414-1. Sosial meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar | | Subpodratçı və təchizatçının ilkin kvalifikasiyası prosesi |
| 414-2. Təchizat zəncirində mənfi sosial təsirlər və görülən tədbirlər | Hesabat dövrü ərzində şirkətin təchizat zəncirində əhəmiyyətli neqativ sosial təsirlər aşkar olunmayıb. | |
| **GRI 415: İctimai siyasət** | | |
| 415-1. Siyasi xarakterli ödənişlər və fəaliyyət | Hesabat dövrü ərzində "Nobel Oil"-in heç bir siyasi xarakterli ödənişi olmamışdır. | |

# GRI standartlarına uyğunluq cədvəli

| GRI standartları və açıqlamalar | Qeyd | Hesabatın bölməsi (alt bölməsi) |
|---|---|---|
| **GRI 416: Müştəri sağlamlığı və təhlükəsizliyi** | | |
| 416-1. Məhsul və xidmət kateqoriyalarının sağlamlıq və təhlükəsizlik təsirləri üzrə qiymətləndirilməsi | Müntəzəm olaraq məhsul və xidmətlərin inkişaf etdirilməsi üçün ekoloji monitorinqlər də daxil olmaqla işlər aparılır. | |
| 416-2. Məhsul və xidmətlərin sağlamlıq və təhlükəsizlik tələblərinə cavab verməməsi halları | Hesabat dövrü ərzində insan haqlarının pozulması halları baş verməmişdir. | |
| **GRI 418: Müştəri məxfiliyi** | | |
| 418-1. Müştəriyə aid məxfiliyin pozulması və müştəri məlumatlarının itirilməsinə dair əsaslandırılmış şikayətlər | Hesabat dövrü ərzində insan haqlarının pozulması halları baş verməmişdir. | |
| **GRI 419: Sosial-iqtisadi uyğunluq** | | |
| 419-1. Sosial və iqtisadi sahədə qanun və qaydalar ilə uyğunsuzluq halları | Hesabat dövrü ərzində insan haqlarının pozulması halları baş verməmişdir. | |

[6]Qlobal Hesabatlılıq Təşəbbüsü



Hesabat və hesabat vermə prosesi haqqında
Nobel Oil Qrup haqqında
Korporativ idarəetmə
Etika və qanunlara riayət
Davamlı inkişafa yanaşma
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə
Əmək münasibətləri təcrübəsi
Sağlamlıq, əməyin texniki təhlükəsizliyi və ətraf mühit
Keyfiyyətin idarə edilməsi
Satınalma Təcrübəsi
Cəmiyyətə dəstək
GRI standartlarına uyğunluq cədvəli